Xalqın qəzeti!

# Xalq qəzeti

№ 159 (30853) 2 avqust 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Dünya Bankı Azərbaycanın "yaşıl" tərəfdaşıdır

*Maliyyə qurumu ölkəmizin təmiz enerji layihələrinə 173,5 milyon dollar kredit ayırıb*

***Azərbaycan Prezidenti İlham ƏLİYEV:***

*Biz Azərbaycan ilə Dünya Bankı arasındakı əməkdaşlığa böyük əhəmiyyət veririk. Bu baxımdan ölkəmizdə həyata keçirilən iqtisadi islahatlarda, gerçəkləşdirdiyimiz irimiqyaslı infrastruktur layihələrinin maliyyələşdirilməsində Dünya Bankının yaxından iştirakını məmnunluqla qeyd etmək istərdim. Dünya Bankının fəaliyyət sahələri üzrə əməkdaşlığımızın daha da dərinləşdirilməsi istiqamətində səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.*



**Azərbaycan Respublikasının dövlət siyasətində enerji təhlükəsizliyi və iqlim dəyişikliyi ilə mübarizə prioritet istiqamətlərdən biridir. Ölkəmiz bu gün təkcə mövcud enerji ehtiyatlarına arxalanmaqla kifayətlənmir, həm də dayanıqlı gələcək naminə bərpa olunan enerji mənbələrinin inkişafına ciddi önəm verir. Prezident İlham Əliyevin rəhbərliyi ilə müəyyənləşdirilən "yaşıl" enerji strategiyası respublikanın yaxın illərdə Cənubi Qafqazda və bütövlükdə Avrasiya məkanında enerji keçidinin aparıcı ölkələrindən birinə çevriləcəyini göstərir.**

Azərbaycan 2030-cu ilə qədər ölkənin ümumi enerji balansında bərpa olunan enerji mənbələrinin payının 30 faizə çatdırılmasını qarşıya önəmli vəzifə kimi qoyub. Bu hədəf sıradan bir rəqəm deyil – bu, həm beynəlxalq öhdəliklərə uyğun bir strateji mövqe, həm də enerji təhlükəsizliyinin daxili mənbələr hesabına təmin olunmasına yönələn mühüm addımdır. Çünki təmiz enerjiyə keçid nə qədər mürəkkəb proses olsa da, uzunmüddətli perspektivdə dayanıqlı iqtisadi inkişafın və ətraf mühitin qorunmasının əsas təminatçısıdır.

*(ardı 7-ci səhifədə)*

## Dövlətçilik uğrunda savaş yeni mərhələdə



səhifə ⇨ 6

## Demokratiyanı maraqlara kim qurban verib: Azərbaycan, yoxsa Qərb?



səhifə ⇨ 4

## Üçtərəfli işçi qrupu "ölü qurum"a çevrilib

*Sülhə aparan yol isə ikitərəfli əməkdaşlıqdan keçir*



**Azərbaycan, Ermənistan və Rusiya arasında 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatla regionda yeni geosiyasi reallıq yarandı. Bu reallığın fonunda nəqliyyat-kommunikasiya xətlərinin bərpası və dövlət sərhədlərinin müəyyənləşdirilməsi məqsədilə 2021-ci ilin əvvəlində Rusiya Prezidenti Vladimir Putinin təşəbbüsü ilə xüsusi üçtərəfli işçi qrupu yaradıldı. Qrupda Azərbaycan, Ermənistan və Rusiya baş nazirlərinin müavinləri səviyyəsində təmsil olunurlar.**

ardı səhifə ⇨ 4

## Moskva XIX əsrin ritorikası ilə danışır

***Rusiyada etnosentrizm, şovinizm və ksenofobiya qaldıqca qonşularla səmimi və etibarlı münasibət qurulması çətin olacaq***



**Gəlin etiraf edək ki, AZAL-ın sərnişin təyyarəsi ilə bağlı faciə, ardınca Azərbaycanın informasiya resurslarına edilən kiberhücumlar, Yekaterinburq və Rusiyanın digər şəhərlərində azərbaycanlıların zorakılıq və qətllərlə müşayiət olunan kütləvi həbsləri 30 il bundan əvvəl baş versəydi, yəqin Bakı susmağa üstünlük verərdi. Amma bu gün vəziyyət fərqlidir. Azərbaycan sabit inkişaf edən güclü dövlət, güclü orduya malik və bölgədə söz sahibinə çevrilmiş regional aktordur. Bakı artıq Qafqazda baş verənlərə müşahidəçi qismində baxmır, cərəyan edən hadisələrin memarlarından biridir. Məhz bu parametrlərinə görə Azərbaycan öz vətəndaşının milli ləyaqətinin və suverenliyin qorunması məsələsində qəti və prinsipial mövqe tutmağı bacarır. Daha sükut yeganə mümkün seçim deyil.**

*(ardı 5-ci səhifədə)*

## Xankəndidən Köniqsberqə doğru

*Yaxud TASS, yoxsa deşilmiş tas?*

**Köniqsberq. Şübhəsiz, bu ad bir çoxumuza tanışdır. Bir qədər aydınlıq gətirmək üçün deyək ki, söhbət işğaldan sonra Kalininqrad adlandırılmış şəhərdən gedir. Hazırda Rusiyaya məxsus şəhərdən. O şəhərdən ki, sabiq SSRİ dövründə oranın alman əhalisi sürgünə göndərilib. Yəni, Köniqsberqdən alınan təkcə adı deyil, eyni zamanda, əhalisi olub. Müasir dillə desək, şəhər etnik təmizləməyə məruz qalıb.**

Rusiya Federasiyası ərazisində Kareliya Respublikası da var. Kareliya-Fin Respublikası yazsaq, daha düzgün olar... Rusiyadakı İvanqorodun tarixi adı Narvadır. Narva adlı Estoniya şəhəri də var. Təsəvvür edin, Narva Estoniya ərazisindədir, İvanqorod Rusiyadadır və şəhərlər Rusiya ilə Estoniyanın sərhədində yerləşirlər. Çox güman, İvanqorodun adının qondarma olduğunun və rus işğalı nəticəsində meydana çıxdığının fərqinə vardınız.




ardı səhifə ⇨ 3

## Konfrans adı altında informasiya savaşı

səhifə ⇨ 5

# İsveçrə Konfederasiyasının Prezidenti Zati-aliləri xanım Karin Keller-Suttere

**Hörmətli xanım Prezident!**

Ölkənizin milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan-İsveçrə münasibətlərinin dostluq məcrasında inkişafı və səmərəli əməkdaşlığımızın davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, İsveçrə Konfederasiyasına daim rifah və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 iyul 2025-ci il**

# "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 fevral tarixli 316 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

"Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 fevral tarixli 316 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 108) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1** 1.5-ci bəndə "Nazirliyi" sözündən sonra ", təhlükəli maddələrə münasibətdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi" sözləri əlavə edilsin.

**2** Aşağıdakı məzmunda 1.5-1-ci və 1.5-2-ci bəndlər əlavə edilsin:

"1.5-1. həmin Qanunun 6.2-ci maddəsində (birinci halda) "orqan (qurum)" dedikdə minatəmizləmə fəaliyyəti üzrə icraçı Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi olduqda Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, digər icraçılar olduqda isə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;

1.5-2. həmin Qanunun 6.11-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, tabeliyindəki dövlət qoruqlarının ərazisində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Şuşa şəhərinin ərazisində Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində isə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi nəzərdə tutulur;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 avqust 2025-ci il**

# F.M.Manafovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan kino sənətinin inkişafında xidmətlərinə görə Fəxrəddin Manaf oğlu Manafov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 avqust 2025-ci il**

# Qarabağ səfərinə "E-Polis"dən icazə




**Daxili İşlər Nazirliyi tərəfindən vətəndaşların rahatlığını və dövlət xidmətlərindən istifadədə məmnunluğunu artırmaq məqsədilə E-Polis mobil tətbiqi davamlı olaraq təkmilləşdirilir. Artıq bu yeniliklər sayəsində işğaldan azad olunan bölgələrə səfərlərdə icazə prosesi daha sürətli və rahat təşkil olunur.**

DİN Mətbuat Xidmətindən verilən məlumata görə, mobil tətbiqə yeni əlavə edilən funksiya vasitəsilə Qarabağa getmək üçün icazəni elektron qaydada ala bilərsiniz. Bunun üçün tətbiqə daxil olub ana səhifədəki "Qarabağa icazə" və ya "Xidmətlər" siyahısından "İşğaldan azad olunmuş ərazilərə buraxılış icazəsinin alınması" xanasını seçirsiniz.

Açılan pəncərədə "Müraciət et" düyməsini sıxdıqdan sonra bildirişlərin sizə vaxtında çatması üçün əlaqə vasitələrinizi daxil edirsiniz. Növbəti mərhələdə səfər etmək istədiyiniz əraziləri və tarixləri seçirsiniz. Nəzərə alın ki, icazə maksimum 5 gün müddətinə verilir.

Səfər zamanı istifadə edəcəyiniz avtomobilin dövlət qeydiyyat və şəhadətnamə nömrələri tətbiqə daxil edildikdən sonra nəqliyyat vasitənizdəki oturacaq yerindən asılı olaraq maksimum 9 nəfərin getməsinə icazə veriləcək.

Onu da nəzərinizə çatdıraq ki, sərnişinlər həm yerli, həm də müvafiq sənədləri olan əcnəbi vətəndaşlar ola bilərlər. Ən sonda məlumatları yoxlayıb "Təsdiqlə" düyməsini sıxmaqla müraciətinizi tamamlaya bilərsiniz. Bildirişlər şəxsi elektron kabinetiniz varsa birbaşa ora, yoxdursa SMS vasitəsilə mobil nömrənizə göndəriləcək.

E-polis tətbiqinin günü-gündən yenilənən funksiyalarından faydalanın, yolunuz açıq və təhlükəsiz olsun.

***XQ***

# Ceyhun Bayramov İsrailin yeni səfiri ilə görüşüb

**Avqustun 1-də xarici işlər naziri Ceyhun Bayramov İsrailin Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ronen Krausla görüşüb.**



Görüş zamanı səfir etimadnaməsinin surətini Ceyhun Bayramova təqdim edib. Nazir səfiri təyinatı münasibətilə təbrik edib, ona ölkəmizdə diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Sonra Azərbaycan ilə İsrail arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, habelə regional vəziyyət müzakirə olunub. Yaxın Şərq regionunda gərgin vəziyyətin ciddi narahatlıq doğurduğu, ölkəmizin sülhün və sabitliyin bərqərar olunmasına çağırış etdiyi və bu prosesə töhfə verməyə hər zaman hazır olduğu diqqətə çatdırılıb.

Yeni səfir fəaliyyəti müddətində ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğulayıb.

***XQ***

# **Qızıl Xaç Azərbaycanda fəaliyyətini dayandırır**

**Avqustun 1-də xarici işlər naziri Ceyhun Bayramov Beynəlxalq Qızıl Xaç Komitəsinin missiyası yekunlaşan Azərbaycan nümayəndəliyinin rəhbəri Draqana Koyiçlə ölkəmizdəki diplomatik fəaliyyətinin başa çatması münasibətilə görüşüb.**



Ceyhun Bayramov xanım Draqana Koyiçə Azərbaycanda fəaliyyəti müddətində əməkdaşlığın inkişafı istiqamətində göstərdiyi səylərə görə təşəkkür edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Tərəflər görüşdə BQXK-nın ölkəmizdəki son 33 illik fəaliyyəti, Azərbaycanla Ermənistan arasında sülh prosesinin cari vəziyyəti və perspektivləri, işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri, mina təhdidi, itkin düşmüş şəxslərin aqibəti kimi məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdə qarşı tərəf Azərbaycan Hökuməti tərəfindən təşkilatın fəaliyyətinə göstərilən dəstəyə və əməkdaşlığa görə məmnunluğunu ifadə edib. Nümayəndəliyin fəaliyyətini cari il sentyabrın əvvəlində dayandırmasından sonra da BQXK ilə Cenevrədə yerləşən baş qərargah vasitəsilə əməkdaşlığın davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

***XQ***

# Arif İmran oğlu Babayev

**Azərbaycan mədəniyyətinə ağır itki üz vermişdir. Milli muğam sənətinin görkəmli nümayəndəsi, Xalq artisti, Heydər Əliyev Mükafatı laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Azərbaycan Milli Konservatoriyasının professoru Arif İmran oğlu Babayev 2025-ci il avqustun 1-də ömrünün 88-ci ilində vəfat etmişdir.**



Arif Babayev 1938-ci il fevralın 20-də Ağdam rayonunun Sarıhacılı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1962-1968-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunda ali təhsil almışdır.

Əmək fəaliyyətinə hələ tələbə ikən – 1966-cı ildə Azərbaycan Dövlət Opera və Balet Teatrında solist olaraq başlayan Arif Babayev 1981-ci ildən Bülbül adına orta ixtisas musiqi məktəbində müəllim işləmiş, 1984-2000-ci illərdə indiki Bakı Musiqi Akademiyasında muğam ixtisası üzrə dərs demiş, 2002-ci ildən ömrünün sonunadək Azərbaycan Milli Konservatoriyasında professor və kafedra müdiri vəzifələrində çalışmışdır.

Qarabağ xanəndəlik məktəbinin parlaq simalarından olan Arif Babayev Azərbaycanın musiqi mədəniyyəti xəzinəsinə dəyərli töhfələr vermişdir. O, sələflərinin sənət ənənələrini yaradıcılıqla davam etdirərək, özünəməxsus ifaçılıq dəst-xəti formalaşdırmış və bütün fəaliyyəti ərzində muğamın klassik ifa tərzinin qorunub saxlanmasında təqdirəlayiq xidmətlər göstərmişdir. Məlahətli və zəngin çalarlı səs tembrinə malik sənətkar milli muğam sənətinin vokal formasına yeni nəfəs gətirməklə dinləyicilərin məhəbbətini qazanmışdır.

Arif Babayevin yüksək məharətlə ifa etdiyi "Qarabağ şikəstəsi", "Segah", "Çahargah", "Rast", "Şur", "Bayatı-Şiraz" və digər muğamlar milli muğam sənətinin qızıl fonduna daxil olaraq Azərbaycanın musiqi sərvətləri xəzinəsini daha da zənginləşdirmişdir. Xanəndənin xüsusi zövq və ustalıqla oxuduğu təsniflər və xalq mahnıları Azərbaycanın musiqi mədəniyyəti inciləri sırasında layiqli yer tutur. Arif Babayev uzun illər muğam operalarında əsas partiyaların ifaçısı kimi canlandırdığı yaddaqalan obrazlarla musiqi salnaməmizdə dərin iz qoymuşdur. Onun dahi bəstəkar Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" əsərində yaratdığı Məcnun obrazı opera tariximizdəki ən unudulmaz ifalardandır.

Arif Babayev dünyanın müxtəlif ölkələrinə qastrol səfərləri zamanı Azərbaycan mədəniyyəti günlərində və beynəlxalq musiqi festivallarında milli mədəniyyətimizi uğurla təmsil etmiş, çıxışları ilə musiqimizi müxtəlif xalqların nümayəndələrinə sevdirməyi bacarmışdır. Uzun müddət pedaqoji fəaliyyət göstərən ustad xanəndə keçdiyi həyat və sənət yolu ilə örnək olmuş, ifaçıların bir neçə nəslinin mənsub olduğu böyük məktəb yaratmışdır. Muğamla bağlı gerçəkləşdirilən layihə və proqramlarda yaxından iştirakı Arif Babayevin ölkədə muğam ifaçılığı ənənələrinin yaşadılması istiqamətində apardığı səmərəli işlərlə vəhdət təşkil edirdi.

Arif Babayev milli musiqi mədəniyyətinin inkişafı sahəsində qazandığı mühüm nailiyyətlərinə görə 1998-ci ildə Azərbaycan Respublikasının ali mükafatlarından olan "Şöhrət", 2008-ci ildə "İstiqlal" və 2018-ci ildə "Şərəf" ordenləri, 2023-cü ildə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" və 2025-ci ildə Heydər Əliyev Mükafatı ilə təltif edilmişdir.

Görkəmli xanəndə, mahir pedaqoq və səmimi insan Arif İmran oğlu Babayevin xatirəsi sənətsevərlərin qəlbində həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!

**İlham ƏLİYEV,**
**Mehriban ƏLİYEVA,**
**Əli ƏSƏDOV,**
**Sahibə QAFAROVA,**
**Samir NURİYEV,**
**Eldar ƏZİZOV,**
**Fərəh ƏLİYEVA,**
**Adil KƏRİMLİ,**
**Emin ƏMRULLAYEV,**
**Polad BÜLBÜLOĞLU,**
**Zeynəb XANLAROVA,**
**Alim QASIMOV,**
**Səkinə İSMAYILOVA,**
**Mənsum İBRAHİMOV**

# Birinci vitse-prezident Mehriban Əliyeva Arif Babayevin vəfatı ilə əlaqədar paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Xalq artisti Arif Babayevin vəfatı ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.**

Paylaşımda yazılır: "Azərbaycan muğam sənətinin görkəmli nümayəndəsi Arif Babayevin vəfatı mədəniyyətimiz, bütün xalqımız üçün əvəzsiz itkidir. O, yaşından asılı olmayaraq hər kəsin sevdiyi əsl Xalq artisti idi. Onun məharətlə ifa etdiyi muğamlar milli musiqi irsimizi daha da zənginləşdirmişdir. Arif Babayevin xoş, nurlu xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır. Allah rəhmət eləsin".

***XQ***

# İqtisadi Şuranın növbəti iclası



**Avqustun 1-də Azərbaycan Respublikasının İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində "2026-cı il və sonrakı üç il üçün dövlət və icmal büdcələrinin proqnozları"nın hazırlanması üçün mühüm əhəmiyyət kəsb edən büdcə-vergi siyasəti, "Azərbaycan Respublikasının Vergi Məcəlləsi"nə ediləcək dəyişikliklər və cari iqtisadi məsələlər müzakirə olunub.**

Bu barədə Nazirlər Kabineti məlumat yayıb.

Gündəlikdə olan məsələlər üzrə maliyyə naziri Sahil Babayevin, iqtisadiyyat naziri Mikayıl Cabbarovun və əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyevin təklifləri dinlənilib və İqtisadi Şuranın üzvləri tərəfindən müzakirələr aparılıb.

İclasın yekununda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla aidiyyəti dövlət orqanlarına müvafiq tapşırıqlar verilib.

***XQ***

# Xankəndidən Königsberqə doğru

(əvvəli 1-ci səhifədə)

Rusiyada belə nümunələrin sayı kifayət qədərdir. Şübhəsiz, diqqətli oxucularımız Volqa çayının İtil, Volqoqradın Sarısu, çar İvan Qroznunun şərəfinə adlandırılmış Qroznu şəhərinin əsl adının Solja-Qala olduğunu bilirlər. Bu barədə söz açmağımızın isə əlahiddə səbəbi var. Rusiyada mövzuya yer verməyimiz üçün yalvaranlar tapılıb. Daha doğrusu, onlar yenidən meydana çıxıblar. Əlbəttə, söhbət bildiyimiz yalvarışdan getmir. Bu adamlar hərəkət və davranışları ilə tarixi sillə kimi üzlərinə vurmağımızı istəyirlər. Problem yoxdur, arzularını çin edərik.

Əlqərəz, Xankəndi şəhəri xanın kəndi olaraq Qarabağ xanlığı tərəfindən XVIII əsrdə salınıb. Xanlığın Rusiya tərəfindən ələ keçirildiyini də bilirik, 1813-cü ilin Gülüstan, 1828-ci ilin Türkmənçay müqavilələri ilə əzəli Azərbaycan torpaqlarının işğalının başa çatdırıldığını da, Xalq Cümhuriyyətinin qurulmasından sonra Xankəndidə Azərbaycanın hərbi paradının keçirdiyini də, 1920-ci ildə sovet Rusiyası tərəfindən cümhuriyyətin varlığına son qoyulduğunu da.

Beləliklə, 1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti quruldu. 1923-cü ilin sentyabrında Xankəndinin adı dəyişdirildi. Kommunist donu geymiş, 1918-ci ildə mart soyqırımını törədənlərin başında dayanmış erməni cəlladı Stepan Şaumyanın adı da hər kəsə yaxşı tanışdır. O da məlumdur ki, 1991-ci il noyabrın 26-da Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Xankəndi etnonimi bərpa edildi. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində isə şəhər uzun müddət yenə Stepanakert adı ilə separatçı "Dağlıq Qarabağ Respublikasının" paytaxtı oldu. Nəhayət, Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü il sentyabrın 19-20-da keçirdiyi lokal xarakterli uğurlu antiterror tədbirləri ilə qondarma rejimə son qoyuldu, qədim şəhər öz sahiblərinin sərəncamına keçdi.




Sən demə, lokal xarakterli antiterror tədbirlərinədək Qarabağdakı rus sülhməramlıları tərəfindən quraşdırılmış erməni əsilli rəssam İvan Ayvazovskinin (Hovanes Ayvasyan) abidəsinin sökülməsi yolverilməz imiş və guya bu, ölkəmizdə rus mədəniyyətinə münasibətdə hörmətsizlikmiş. Deməli, sülhməramlıların Qarabağ ermənilərinə rus varlığını xatırlatmaq üçün uşaq bezi daşımaqdan başqa da işləri varmış. Onlar abidə də ucaldıbmışlar. Görəsən, işləri bu idi? Sülhməramlılar nə haqla, kimdən icasə alaraq Azərbaycan ərazisində, belə demək mümkünsə, heykəl yaradıcılığı ilə məşğul olmuşdular?

Axı heykəl quraşdırmaq pampers daşımaq deyil. Son günlər Azərbaycana qarşı hədyan yağdırmaq üzrə ixtisaslaşmış Rusiya Prezidentinin beynəlxalq mədəniyyət məsələri üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy bunu bilmirmi? Onun TASS-da yayımlanmış sərsəmləmələrinin üzərində geniş dayanmağa ehtiyac duymuruq. Çünki bu şəxs diqqətə çatdırdığımız suallara cavab vermir. Ümumən, bir adam ki, Azərbaycanda Rusiya mədəniyyəti günləri tədbirlərinin ləğvinin ölkəmizdə mədəni mühiti yoxsullaşdıracağı illüziyasına baş vurur, ondan nə gözləyəsən?.. Hələlik, diqqət yetirmək istədiyimiz məsələ Rusiyanın rəsmi dövlət agentliyi olan TASS-da Azərbaycanın Xankəndi şəhərinin Stepanakert kimi qələmə verilməsi, "Dağlıq Qarabağ" ifadəsinin işlədilməsidir. Şübhəsiz, bu, ölkəmizin ərazi bütövlüyünə hörmətsizlikdir və belə halları Rusiyanın digər media orqanlarında az görməmişik.

Bəli, bu cür yarıtmazlıqlar erməni təəssübünə köklənmiş pataloji xəstəlikdən qaynaqlanır. O xəstəlikdən ki, Rusiyada ona yoluxma faizinin yüksəkliyi vurğulanmalıdır. Təsəvvür edin, hazırda Ermənistanın baş naziri Nikol Paşinyan, eləcə də ölkənin digər rəsmiləri bir sıra çıxışlarında həqiqəti öz adı ilə çağırmağın tərəfdarı olduqlarını vurğulayırlar. Deməli, səmimi davranmasalar da, onlar keçmişi geridə qoymaq mesajları verirlər və bu mesajlar, Azərbaycan və Ermənistan arasında etimad quruculuğu tədbirlərinə töhfədir. Əlbəttə, Ermənistanda revanşist və şovinist kəsim də var ki, etimad quruculuğuna, yəni bütövlükdə Bakı-İrəvan sülhünə zərbə vurur. Söhbət Rusiyadan idarə olunan kəsimdən gedir.

Rəsmi Moskva hər zaman bildirir ki, Azərbaycan və Ermənistan arasında barış mühitinin formalaşmasının tərəfdarıdır. TASS isə "Stepanakert", "Dağlıq Qarabağ" ritorikalarına köklənir. Necə başa düşək? Hesab edək ki, Rusiyanın dövlət mediası Ermənistandakı illüziyapərəstlər üçün "yem" verir? Üstəlik, nəzərə alaq ki, "Qarabağın erməni mirası" məsələsi dəfələrlə həm erməni iqtidarı, həm də xaricdəki ermənipərəstlər tərəfindən qaldırılıb. Ancaq rəsmi İrəvan bu "kampaniyanın" köməyilə Azərbaycana təsir göstərməyin qeyri-mümkünlüyünü anlayıb. Hərçənd, xaricdəki erməni lobbi və diaspor təşkilatlarının reallığı qəbul etmirlər. Onların hərəkətə keçirdikləri müxtəlif beynəlxalq qurumlar bəyanat və qətnamələrində tarixin zibilliyindəki ifadələrdən "yararlanırlar". Yəni, "Stepanakert", "Dağlıq Qarabağ" deyib şivən qoparırlar. Görünür, TASS-da da "zibillikdə eşələnmək" istəyənlər var. Varsa, deməli, Rusiya dövlətində də bu cür sərsəm düşüncə sahiblərinin mövcudluğunu vurğulaya bilərik və belə bir şəraitdə Kreml rəsmiləri Cənubi Qafqazda barışdan, bərabərtərəfli münasibətlərdən dəm vururlar. Təəccüblü deyilmi? Həm təəccüblü, həm də ziddiyyətlidir.

Bəli, TASS-da "Stepanakert" işlədilirsə, Rusiya rəsmilərinin son zamanlar ölkələri ilə Azərbaycan arasında yaranmış gərginliyə münasibət bildirərkən dilə gətirdikləri pozitiv notların səmimiliyinə inanmaq müşkilə çevrilir. Belə qənaətə gəlirik ki, Rusiyanın, guya, böyüklük göstərdiyini, ölkənin rasional davrandığını vurğulamağa hesablanmış həmin bəyanatlar gözdən pərdə asmaqdan başqa bir şey deyil. Axı TASS Rusiyanın böyüklük görüntüsünü cılızlaşdırır, ortaya son dərəcə bəsit yanaşma qoyur. Bəlkə media qurumu ölkəmizlə münasibətlərin daha da kəskinləşməsinin tərəfdarıdır?

Ən böyük nəticə budur: Xankəndi Stepanakertdirsə, "Dağlıq Qarabağ" hələ də "yaşayırsa", deməli, Moskva Azərbaycanla Ermənistan arasında münaqişənin qalmasında maraqlıdır. Niyə maraqlıdır? Çünki keçmiş Qarabağ münaqişəsi Rusiya tərəfindən Cənubi Qafqazda söz sahibi olmaq üçün alət idi. Hazırda Azərbaycan özünün ərazi bütövlüyünü və suverenliyini bərpa etdiyindən, bu alət əhəmiyyətini itirib. Rusiya isə heç bir dövlətlə normal, bərabərtərfli, qarşılıqlı maraqlara əsaslanmış münasibətlər qurmaq niyyətində və potensialında deyil, onun üçün yalnız imperiya ambisiyaları var. Yəni, TASS-ın mövqeyi həmin ambisiyalar naminə ideoloji plasdarm hazırlamaqdır. Deməli, media qurumu 1988-ci ildə vüsət almış "Miatsum" cəfəngiyyatını təbliğ etsə, təəccüblənməyək. O cəfəngiyyat ki, kimlər tərəfindən, hansı məqsədlə ortaya atıldığını gözəl bilirik.

Sonda yazımızı pozitiv ab-havada bitirmək üçün, daha dəqiq desək, Rusiyanın media orqanlarının Azərbaycana qarşı qərəzinin dayanacağına ümid bəsləyərək deyək ki, TASS gecikmədən fəaliyyətinddə dönüş etməlidir. İndiki durumda bunun tək yolu Stepan Şaumyanın iyrənc ruhunun təcəllisi olan "Stepanakert" adını, "Dağlıq Qarabağ" ifadəsini bir daha səsləndirməmək öhdəliyinin götürülməsindən və üzrxahlıqdan keçir. Əgər bunlar baş verməyəcəksə, ən azından Kalininqrada Königsberq deyəcəyik. Təkcə deməyəcək, eyni zamanda, ilahi ədalətin bərpası naminə dua edəcəyik. İlahi ədalətin bərpasının isə Xankəndi nümunəsi var. TASS deşilmiş tas olmaq istəmirsə, nəticə çıxarsın.

***Ə.CAHANGİROĞLU***
***XQ***

## Kəmaləddin Heydərov BMMT-nin yeni Baş katibi ilə görüşüb



**Fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov ölkəmizdə səfərdə olan Beynəlxalq Mülki Müdafiə Təşkilatının yeni Baş katibi Ərgüc Kələntərli ilə görüşüb.**

K.Heydərov cari il iyulun 8-dən 10-dək Bakıda keçirilən BMMT-nin İcraiyyə Şurasının 58-ci sessiyasının, eyni zamanda təşkilatın Baş Assambleyasının 3-cü növbədənkənar sessiyasında Azərbaycan nümayəndəsinin BMMT-nın yeni Baş katibi seçilməsini ölkəmiz adına uğurlu nailiyyət adlandırıb.

K.Heydərov əminliklə qeyd edib ki, bundan sonra da ölkəmiz fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində Beynəlxalq Mülki Müdafiə Təşkilatı ilə əməkdaşlıq əlaqələrini daha da gücləndirəcək, onun inkişafına öz töhfəsini verəcək.

İlk rəsmi səfərini Azərbaycana reallaşdıran Beynəlxalq Mülki Müdafiə Təşkilatının yeni Baş katibi Ərgüc Kələntərli səmimi görüşə görə təşəkkürünü bildirib, ona göstərilən dəstəyə görə minnətdarlığını ifadə edib.

***XQ***

## Baş prokuror Xətai rayonunda vətəndaşları qəbul edib



**Avqustun 1-də Baş prokuror Kamran Əliyev Bakı şəhəri Xətai Rayon Prokurorluğunun inzibati binasında Xətai rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 33 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

***XQ***

**Xuntaçıların məhkəməsi**

## Erməni hərbçilərinin insanlıq əleyhinə əməlləri araşdırılır





**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası avqustun 1-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Zərərçəkmiş şəxs Azər Abdullayev məhkəmədə verdiyi ifadəsində 2022-ci ilin sentyabrında Qubadlı rayonunda Ermənistan silahlı qüvvələrinin Gorus istiqamətindən törətdiyi təxribatın qarşısını alarkən qəlpə xəsarəti aldığını bildirib.

Samir Yusifov ifadəsində deyib ki, 2022-ci il sentyabrın 13-də Kəlbəcərdə tibb məntəqəsinin feldşeri qismində şəhidləri və yaralıları təxliyə edərkən Ermənistan silahlı qüvvələri tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində yaralanıb. Zərərçəkmiş şəxs dövlət ittihamçısı Təranə Məmmədovanın suallarına cavabında təxliyə maşınının üzərində onun tibb xidməti avtomobili olduğunu bildirən nişanın olduğunu söyləyib.

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıran zərərçəkmiş şəxs Akifə Bayramova qeyd edib ki, 44 günlük Vətən müharibəsi dövründə 2020-ci il oktyabrın 11-də gecə saat 02:00 radələrində yaşadığı Gəncə şəhərinə Ermənistan silahlı qüvvələri tərəfindən atılmış raketin düşməsi nəticəsində evi dağılıb. Akifə Bayramova hadisə zamanı özünün yaralandığını bildirib. Nəvəsinin dağıntılar altından çıxarıldığını söyləyən zərərçəkmiş şəxs "Nəvəm hələ də müalicə olunur" deyib.

Gəncə sakini olan Nərbala Babayev də 2020-ci il oktyabrın 4-də baş vermiş raket hücumu zamanı evinin dağıldığını, özünün və oğlunun xəsarət aldığını söyləyib.

Amin Əsgərov, Eldar Məmmədov, Gülnarə Quliyeva, Aynurə Əliyeva, Kübra Ələkbərova da Vətən müharibəsi zamanı Gəncəyə raket hücumu nəticəsində yaşadıqları evlərin dağıldığını, özlərinin yaralandıqlarını diqqətə çatdırıblar. Vurğulayıblar ki, hadisə zamanı həyatını itirənlər olub.

Zərərçəkmiş şəxs Sevinc Həsənova ifadəsində 44 günlük Vətən müharibəsi zamanı 2020-ci il oktyabrın 5-də Goranboyda qardaşıgildə qonaq olarkən Ermənistan silahlı qüvvələrinin artilleriya atəşi nəticəsində özünün və doğmalarının xəsarət aldığını deyib.

Qurban Qurbanov, Hüseyinbaba Sayıllı, Xəzri Əhmədov, Əliyar Məmmədov, Ehtiram Səmədov, Qasım Qəribov, Əli Qarazadə, Anar Alıyev, Ülvin Musayev, Əlihüseyn Şahbazov, Asim Mikayıllı, Rəhman Qasımov və Ceyhun Xankişiyev ifadələrində 2022-ci il sentyabrın 12-14-də Kəlbəcərdə Ermənistan silahlı qüvvələrinin Cermuk istiqamətində təxribatının qarşısını alarkən yaralandıqlarını söyləyiblər. Onlar bildiriblər ki, həmin vaxt Azərbaycan hərbçiləri arasında şəhid olanlar və yaralananlar da olub. C.Xankişiyev dövlət ittihamçısı Fuad Musayevin suallarına cavabında qeyd edib ki, bu, Ermənistan silahlı qüvvələrinin ilk təxribatı deyildi: "Düşmən 2020-ci ildəki məğlubiyyətlə barışa bilmirdi, yüksəklikləri ələ keçirmək istəyirdi".

Saleh Həsənov, Mehdi Yusifov, Səfa Məmmədov, Əliş Şamıyev, Fərid İlyaszadə, Sənan Mirzəliyev ifadələrində 2022-ci il sentyabrın 12-dən 13-nə keçən gecə Zəngilanda Ermənistan silahlı qüvvələrinin təxribatının qarşısını alarkən xəsarət aldıqlarını qeyd ediblər. Həmin vaxt onların hərbçi yoldaşları arasında həyatını itirənlər və yaralananlar da olub.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıran Cavanşir Tahirli 2016-cı il iyunun 1-də Tərtər rayonunun Çaylı kəndində Ermənistan silahlı qüvvələrinin atəşkəsi pozaraq törətdiyi təxribat nəticəsində güllə xəsarəti aldığını bildirib.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran Yusif Məmmədov 2015-ci il aprelin 3-də Füzuli-Xocavənd istiqamətində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatını qarşısını alarkən snayper atəşi nəticəsində yaralandığını söyləyib.

İfadə verən digər zərərçəkmiş şəxslər Anar Nəbiyev, Murad Musayev, Xəyal Abbasov, İlkin Tağıyev, Seymur İsmayılov, Ədalət Məmmədov, Həsən Qədiməliyev Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tərəfindən açılmış atəşlər nəticəsində yaralandıqlarını vurğulayıblar.

Aqil İspərzadə, Möhsüm Kərimli və Murad Babazadə Azərbaycan Ordusunun 2023-cü ilin sentyabrında həyata keçirdiyi antiterror əməliyyatı zamanı Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəşlər nəticəsində yaralandıqlarını deyiblər.

Şahin Qarayev ifadəsində 2021-ci il noyabrın 21-də yaşadığı Goranboy rayonunun Tapqaraqoyunlu kəndi ərazisində mina partlaması nəticəsində yaralandığını bildirib.

Nahid Yolçuyev ifadəsində 2010-cu ildə Ağdam rayonunun Yusifcanlı kəndində hərbi xidmətdə olarkən Ermənistan silahlı qüvvələri tərəfindən açılmış atəş nəticəsində yaralandığını söyləyib.

Şakir İsmayılov ifadəsində 2016-cı ildə baş vermiş Aprel döyüşləri zamanı yaralandığını deyib.

Ruhin Vəliyev isə 2022-ci il iyunun 17-də Cəbrayılda minatəmizləmə ilə məşğul olarkən mina partlayışı nəticəsində xəsarət aldığını söyləyib.

İsmayıl Hüseynov və Tural Xanəliyev də öz növbələrində Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində yaralandıqlarını bildiriblər.

Zərərçəkmişlər, həmçinin təqsirləndirilən şəxslərin, onların müdafiəçilərinin və özlərinin nümayəndələrinin suallarını da cavablandırıblar.

Prosesdə hakim elan edib ki, təqsirləndirilən şəxs Levon Balayanın vəkili dövlət qurumlarından birinə təyinat alıb. Bu səbəbdən də ona yeni müdafiəçi təyin edilməlidir. Məsələyə münasibət bildirən təqsirləndirilən şəxs L.Balayan "Əgər o qalsaydı, daha yaxşı olardı" deyərək, yeni vəkil təyin edilməsinə etirazının olmadığını bildirib.

İclasa sədrlik edən hakim Zeynal Ağayev L.Balayana yeni vəkil təyin ediləcəyini söyləyib.

Məhkəmə prosesi avqustun 4-də davam etdiriləcək.

***XQ***

# Demokratiyanı maraqlara kim qurban verib: Azərbaycan, yoxsa Qərb?

**Qərb uzun illərdir "demokratiya ixracı" adı altında dünyaya öz ideoloji modelini təqdim edir. Modelin əsas sütunları – insan hüquqları, söz azadlığı, seçki institutları, müstəqil məhkəmə sistemi – ilk baxışda bəşəri tərəqqinin və ədalətin zirvəsi kimi görünür. Ancaq praktikada bu dəyərlər çox vaxt yalnız Qərbin maraqlarına xidmət edən yumşaq güc vasitələrinə çevrilir.**



BBC-də dərc edilən "Qaz qarşılığında insan hüquqları?" adlı məqalə məhz bu alətşünas yanaşmanın təzahürüdür. Sözün həqiqi mənasında, məqalə müəllifləri – biri azərbaycanlı, digəri erməni – birləşərək Qərbin seçmə demokratik ritorikasına yeni "etik qidalanma" təqdim etməyə çalışırlar. Lakin bu cəhd nə analitik dərinlik, nə də obyektivlik baxımından ciddi qəbul edilə bilər. Çünki onlar bir tərəfdən Avropa İttifaqının enerji maraqlarını qeyd edir, digər tərəfdən isə həmin maraqlar uğrunda "insan hüquqlarının satıldığını" iddia edirlər. Halbuki bu, jurnalistikadan daha çox, siyasi ittiham aktına bənzəyir.

Ancaq məsələ ondadır ki, Azərbaycan bu münasibətdə nə satıcı, nə də alıcı rolundadır. Azərbaycan, sadəcə olaraq, enerji resurslarını siyasi silaha çevirmədən beynəlxalq bazara çıxarır və bu prosesdə qarşılıqlı maraqlar əsasında münasibətlər qurur. Əgər Qərb bu əməkdaşlığı demokratiyanın zərərinə sayırsa, deməli, özü bu əməkdaşlıqda prinsiplərinə sadiq qalmır.

Bu gün Qərb özü ciddi siyasi transformasiyadan keçir. 2008-ci ildən başlayaraq bir çox Avropa dövlətlərində iqtisadi və sosial qeyri-sabitlik, populizmin yüksəlişi, siyasi institutlara etimadsızlıq dalğası müşahidə olunur. Demokratiyanın öz beşiyində belə zəifləməsi fonunda, digər ölkələrə dərs keçmək artıq ironik görünür. Fransa polis zorakılığı ilə sarsılır, Almaniyada miqrant düşmənçiliyi gündəlik hadisəyə çevrilib. Bütün bunlara rəğmən, Qərb özünü hələ də "mənəvi arbitr" kimi təqdim edir.

Azərbaycan isə yeni dünya düzənində real siyasət yürüdür. Demokratiyanı şüar olaraq deyil, cəmiyyətin təkamülü üçün bir alət kimi qəbul edir. Ən əsası – bu prinsipləri daxili maraqlarla uzlaşdırmağa çalışır.

Qərb mediasının beynəlxalq informasiya məkanındakı hegemonluğu artıq bir sıra suallara yol açır: Onların hegemonluğu tərəfsiz və obyektiv informasiya axını təmin etmək üçündürmü, yoxsa konkret siyasi məqsədlərə xidmət edən "ideoloji montaj xətti" rolunu oynayır? BBC-nin sözügedən məqaləsinə bu baxımdan yanaşsaq çox aydın görünür – Qərb mediası bir çox hallarda reallığı təqdim etmək yox, onu siyasi məqsədlərlə "kodlaşdırmaq" üçün var.

Azərbaycanın guya "avtoritar rejim" kimi təqdim edilməsi, insan haqları ilə bağlı ittihamlar və Qarabağda "etnik təmizləmə" kimi əsassız iddiaların yer alması bu məqsədli informasiya arxitekturasının tərkib hissəsidir. İddialar emosional təəssüratlara əsaslanır. Əgər obyektivlik prinsipinə sadiq qalmaq əsasdırsa, həmin müəlliflər bu qədər cəsarətlə Qarabağda 30 il ərzində azərbaycanlılara qarşı həyata keçirilmiş işğalı, deportasiyanı və mədəni soyqırımı niyə unudurlar? Niyə 1 milyon qaçqın və məcburi köçkünün hüquqları onların yazılarında öz əksini tapmır?



Bütün bunlar seçmə empatiyadır – yəni kiminsə ağrısını görmək, başqasınınkını isə görməzdən gəlmək. Məsələ ondadır ki, Qərb mediası bu ikili standartları təkcə Ermənistan–Azərbaycan kontekstində tətbiq etmir. Demokratiya və insan haqları yalnız Qərbin maraqlarına zidd getməyən ölkələrdə təriflənir. Əgər bir ölkə öz müstəqil kursunu seçirsə və bu kurs Qərbin maraqları ilə üst-üstə düşmürsə, dərhal "avtoritar", "insan haqları pozucusu" kimi etiketlənir. Azərbaycan da artıq "itaətkar periferiyadan" çıxaraq "regional güc mərkəzinə" çevrilir və bu, "Qərbin postkolonial siyasətində" qəbul edilməyəcək yenilikdir.

Qərb mediası bu narahatlığı öz informasiya hegemonluğu vasitəsilə amortizasiya etməyə çalışır. BBC-nin məqaləsi də bu strategiyanın parçasıdır: Azərbaycanın legitim mövqelərini gözdən salmaq, onun beynəlxalq nüfuzunu zədələmək və enerji əməkdaşlığı kontekstində Avropa ictimai rəyində şübhələr yaratmaq. Lakin artıq XXI əsrdə informasiya plüralizmi bu manipulyasiyaların qarşısını daha effektli şəkildə almağa başlayıb. Azərbaycanın informasiya siyasəti, diplomatik ritorikası və beynəlxalq təşəbbüsləri bu qara rəngləmə kampaniyalarının təsirini ciddi şəkildə neytrallaşdırır.

Qərbin Cənubi Qafqaz siyasətində obyektivlik meyarı çoxdan itirilib. İllərdir ki, regionda mövcud olan ikili yanaşma praqmatik maraqlara əsaslanır. İkili standartların ən açıq-aşkar nümunəsi – Ermənistanla bağlı Qərb ritorikasıdır. Bəs nə üçün Qərb Ermənistana münasibətdə bu qədər tolerant və güzəştli davranır? Əvvəla, Ermənistan Qərbin regionda Rusiya və İran təsirinə qarşı "yumşaq tampon" kimi baxdığı bir məkandır. Coğrafi mövqeyi onu geosiyasi şahmat taxtasında Qərbin manevr nöqtəsinə çevirir.

Ermənistanın Azərbaycana qarşı 30 il davam edən işğalçılıq siyasəti də Qərb tərəfindən ya səssizliklə qarşılanırdı, ya da balanslı və neytral ritorika ilə "konflikt" adı altında gizlədilirdi. Halbuki, bu, beynəlxalq hüququn fundamental prinsiplərinə – dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına hörmətsizlik idi.

Siyasi selektivlik Ermənistanı regionda cəzasızlıq sindromuna düçar etdi. Qərbin dəstəyi ilə formalaşan "etik immunitet" Ermənistan cəmiyyətində və hakim dairələrində yanlış bir illüziya yaratdı – sanki dünyada qəbul olunmuş beynəlxalq hüquq prinsipləri onlara aid deyil. Bütün bunlar 2020-ci ildə baş verən müharibənin, daha sonra 2023-cü ilin sentyabrında Azərbaycanın suverenliyini tam bərpa etməsi ilə yekunlaşan antiterror tədbirlərinin psixoloji köklərində duran əsas faktorlardan biridir. Ermənistan hakimiyyəti reallığı anlamadı, çünki Qərb onu uzun müddət informasiya və siyasi dəstəyi ilə yanlış istiqamətə yönləndirmişdi.

Prosesdə Qərb mediası əsas rollardan birini oynadı. Ermənistan daim "kiçik, əzabkeş xalq, əzilmiş xristian milləti" obrazında təqdim olunurdu. Bu stereotip isə Qərb ictimai rəyində Azərbaycanı "güclü və qəddar müsəlman qonşu" kimi qavramağa zəmin yaradırdı. BBC məqaləsində də bu alt qat açıq hiss olunur: azərbaycanlıların Qarabağda öz suveren hüquqlarını icra etməsi "etnik təmizləmə" adlandırılır, lakin 30 illik işğal dövründə baş verənlər haqqında bir sətir belə yoxdur.

Müasir beynəlxalq münasibətlər sistemində əsl müstəqillik – yalnız ərazi bütövlüyü deyil, həm də qərarların daxili maraqlara uyğun şəkildə qəbul edilməsidir. Azərbaycan məhz bu istiqamətdə son illər ardıcıl və prinsipial bir xətt yürüdür. Azərbaycanın Qərb üçün "problematik ortağa" çevrilməsinin əsas səbəbi – onun Qərbin strateji maraqları ilə hər zaman üst-üstə düşməyən siyasi kurs yürütməsidir. Məsələn, Bakı Moskva ilə də, Ankara ilə də, Brüssel və Pekinlə də paralel və praqmatik əməkdaşlıq siyasəti aparır. Heç bir tərəf ilə qəti bağlılıq və ya mütləq asılılıq yaratmadan balanslaşdırılmış diplomatiya formalaşdırır. Bu isə Qərbin post-sovet məkanında öyrəşdiyi "bloklaşmış vassal münasibətləri" şablonuna uyğun gəlmir. Qərb, xüsusilə də Avropa İttifaqı və ABŞ, qarşısında ya tam loyal, ya da açıq şəkildə düşmən aktorlar görməyə öyrəşib. Amma Azərbaycan bu ikili şkalaya sığmayan üçüncü modeldir – nə marionetdir, nə də konfrontasiya tərəfdarı.

Azərbaycanın balanslı mövqe tutması ona strateji əhəmiyyətli imkanlar qazandırıb. Cənub Qaz Dəhlizi vasitəsilə Avropanın enerji təhlükəsizliyində həlledici rola malik olmaq, Şərq–Qərb ticarət yollarında əsas tranzit ölkəyə çevrilmək, regional münaqişələrin diplomatik həlli üçün etibarlı vasitəçi statusu qazanmaq – bütün bunlar müstəqil xarici siyasətin məntiqi nəticələridir.

XXI əsrin ilk rübü tamamlanarkən qlobal güc balansında artıq dönməz xarakter almış struktur dəyişiklikləri müşahidə olunur. Dəyişikliklər fonunda Qərbin klassik "universal dəyərlər" modeli həm praktikada, həm də nəzəriyyədə ciddi suallar doğurur. Demokratiya artıq tək bir mədəniyyətin diktəsi deyil, müxtəlif sivilizasiyaların öz tarixi, dini və sosial kontekstlərinə uyğun şəkildə yenidən yozduğu siyasi konseptə çevrilir. Azərbaycan bu kontekstdə öncül nümunələrdən biridir. O, nə Qərb təsirinə tam tabe olur, nə də Avrasiya tipli avtoritarizmi mənimsəyir. Bakı müstəqil siyasət yürütməklə Qərbə öz iradəsini qəbul etdirmək gücündə olduğunu sərgiləyir. Enerji diplomatiyası, nəqliyyat-logistika layihələri, Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində beynəlxalq aktivliyi Azərbaycanı Qlobal Cənubun yeni intellektual-siyasi mərkəzlərindən birinə çevirir. Reallıqlar Qərbi yeni dilemma ilə üz-üzə qoyur: ya Azərbaycan kimi ölkələrin daxili suverenliyinə hörmət etməyi, onları "problematik tərəfdaş" kimi deyil, bərabərhüquqlu aktor kimi qəbul etməyi öyrənəcək, ya da geosiyasi və iqtisadi tərəfdaşlıqlarını itirmək riski ilə üzləşəcək.

Yazımızın əvvəlindən davam edən əsas sual – "demokratiyanı maraqlara qurban verən kimdir?" – əslində, çağdaş beynəlxalq münasibətlər sisteminin təməl dilemmasıdır. Son onilliklərdə bu dilemma Qərb siyasətində ən açıq formada müşahidə olunur. Lakin bu dəfə məsələ təkcə dəyərlərin instrumentalizasiyası ilə bağlı deyil – məsələ həm də yeni dünya düzənində hansı aktorun hansı etik çərçivəyə uyğun davranacağı ilə bağlıdır. Burada əsas sual yaranır: Dəyişən dünyada legitimlik haradan doğur?

Azərbaycan bu suala praktiki cavab təqdim edən ölkələrdən biridir. Onun uğuru – müəyyən dəyərləri deklarativ şəkildə təkrarlamaqda deyil, həmin dəyərləri öz tarixi, sosial və təhlükəsizlik reallıqlarına uyğun şəkildə sistemə çevirməkdədir. Siyasi idarəetmə, hüquqi mexanizmlər, insan haqları və azadlıqlar məsələsində Azərbaycan nə Qərbin təzyiqi ilə hərəkət edir, nə də rəqib blokların təsirində qərar qəbul edir.

Bütün bunların fonunda cavab daha qətiyyətlidir: Demokratiyanı maraqlara qurban verən Qərbin özüdür. Çünki dəyərlərindən alət düzəldən, onları selektiv şəkildə tətbiq edən, siyasi təzyiq vasitəsinə çevirən məhz odur. Azərbaycan isə bu dəyərləri daxili quruculuğun tərkib hissəsi kimi anlayır və tətbiq edir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

---

# Üçtərəfli işçi qrupu "ölü qurum"a çevrilib

**(əvvəli 1-ci səhifədə)**

İşçi qrupu yaradılanda əsas hədəflərdən biri iki dövlət arasında sərhədlərin müəyyənləşməsi ilə yanaşı, Zəngəzur dəhlizinin işə salınması idi. Moskva bu layihəni Cənubi Qafqazda nəqliyyat-logistika şəbəkəsinin açılması və eyni zamanda, Rusiya üçün strateji nəzarət aləti kimi görürdü. Rusiya baş nazirinin müavini Aleksey Overçukun regiona mütəmadi səfərləri bu məqsədlə həyata keçirilirdi. Səfərlər zamanı Rusiya tərəfi Ermənistan ərazisindən keçəcək birbaşa və nəzarətli dəhlizin yaradılmasına xüsusi önəm verdiyini açıq şəkildə bildirirdi. Lakin bu niyyət Ermənistan tərəfindən ciddi müqavimətlə qarşılandı və rəsmi İrəvan dəhlizin "Qeksteryor nəzarətlə" fəaliyyət göstərməsinə qarşı çıxaraq onun suverenlik prinsipinə zidd olduğunu bəyan etdi.

Digər tərəfdən, Azərbaycan da məsələyə fərqli yanaşma sərgilədi. Bakı hesab edirdi ki, istər dəhliz məsələsi, istərsə də digər kommunikasiya layihələri yalnız iki tərəfin razılığı əsasında həyata keçirilməlidir. Bu layihələrə üçüncü tərəfin, xüsusilə də geosiyasi maraqları olan güclərin müdaxiləsi arzuolunmazdır. Rəsmi Bakı bildirdi ki, regional məsələlər bölgə ölkələrinin özlərinin iştirakı və qarşılıqlı etimad mühitində həll olunmalıdır.

Məhz bu ziddiyyətli mövqelər və iştirakçı ölkələrin fərqli maraqları üçtərəfli işçi qrupunun fəaliyyətini zəifləti və onu passif qrupa çevirdi. Qrupun fəaliyyətsizliyi artıq rəsmi şəkildə təsdiqlənməkdədir. Ermənistan baş naziri Nikol Paşinyan 2025-ci il iyulun 16-da keçirdiyi mətbuat konfransında bildirdi ki, komissiya hazırda fəaliyyət göstərmir. O, bunun əsas səbəbləri sırasında texniki çətinlikləri, razılaşdırılmış sənədlərdəki uyğunsuzluqları və ümumi inamsızlığı göstərdi. Rusiya tərəfi də bu struktura ciddi perspektiv kimi yanaşmır. Rusiya XİN-in sözçüsü Mariya Zaxarova bu yaxınlarda verdiyi açıqlamada bildirib ki, komissiyanın fəaliyyətinin dayanmasının əsas səbəbi Ermənistanın qeyri-müəyyən mövqeyi və Qərb ölkələrinin prosesə destruktiv təsiridir. Bu bəyanat faktiki olaraq, Rusiya tərəfindən işçi qrupun uğursuzluğunun etirafı kimi dəyərləndirilə bilər.



*

Üçtərəfli mexanizmin dağılması həm də Cənubi Qafqazdakı geosiyasi durumun dəyişməsi ilə izah edilə bilər. Son illər Rusiya Ukrayna müharibəsi və digər qlobal siyasi-iqtisadi çağırışlarla üzləşərək regionda əvvəlki təsir imkanlarını əhəmiyyətli dərəcədə itirib. Bu isə Azərbaycanla Ermənistan arasında birbaşa təmasların artmasına və vasitəçisiz danışıqlar mühitinin yaranmasına yol açıb. Artıq Azərbaycan və Ermənistan nümayəndələri paralel olaraq delimitasiya və demarkasiya üzrə ikitərəfli komissiya çərçivəsində mütəmadi görüşlər keçirir. Bu da onu göstərir ki, real proseslər ikitərəfli müstəviyə keçib və üçüncü tərəfin iştirakı olmadan müəyyən razılaşmalar əldə edilə bilər. Bu, həm tərəflər arasında etimad mühitinin formalaşdığını, həm də üçüncü tərəfin, xüsusən Rusiya kimi aktorun bu prosesdə iştirakının əhəmiyyətini itirdiyini göstərir. Bunun bariz nümunəsi 2024-cü ilin yazında sərhədin Tavuş–Qazax istiqamətində əldə edilən razılaşmadır. İki ölkə arasında aparılan birbaşa danışıqlar nəticəsində Qazax rayonuna məxsus Bağanis Ayrım, Aşağı Əskipara, Qızılhacılı və Xeyrimli silah işlədilmədən, diplomatik yolla Azərbaycana qaytarıldı. Bu, 30 ildən artıq davam edən işğal vəziyyətinin və hüquqi qeyri-müəyyənliyin aradan qaldırılması baxımından mühüm siyasi və hüquqi hadisə idi.

Hazırda gözləntilər delimitasiya prosesinin növbəti mərhələsində eksklav 3 kəndin taleyinin də müzakirəyə çıxarılması və danışıqlar yolu ilə məsələnin həll olunması yönündədir. Əvvəlki mərhələdə əldə olunan sülh razılaşmaları göstərdi ki, qarşılıqlı etimad və siyasi iradə mövcud olduqda, problemin zorakılıqdan uzaq şəkildə, diplomatik yolla həlli mümkündür

Ən əsası, Əbu-Dabi görüşündə dövlət başçıları delimitasiya üzrə komissiyanın fəaliyyətinin aktivləşdirilməsinə dair konkret tapşırıq veriblər. Bu isə onu göstərir ki, tərəflər öz aralarında birbaşa əlaqə və qarşılıqlı siyasi iradə əsasında real nəticələr əldə edə bilirlər. İki ölkə arasında sərhədin digər istiqamətlərində də uğurlar əldə edəcəklər. Bu, üçtərəfli deyil, iki tərəfli görüşlər çərçivəsində mümkün olacaq.

**Bununla bağlı politoloq Aydın Quliyev XQ-yə bildirdi ki,** iki ölkə arasında delimitasiya prosesi hüquqi əsaslarla və qarşılıqlı razılaşma ilə yekunlaşmalı, ərazi bütövlüyü tam təmin olunmalıdır: "Bu, həm ədalətin bərpası, həm də regionda sülhün dayanıqlı əsaslar üzərində qurulması üçün zəruridir. Əbu-Dabi görüşündə iki ölkənin dövlət başçıları delimitasiya komissiyasının fəaliyyətinin daha da intensivləşdirilməsi ilə bağlı razılığa gəliblər. Ermənistan parlamentinin spikeri Alen Simonyan isə bildirib ki, tərəflər arasında bu proseslə bağlı ciddi fikir ayrılığı mövcud deyil. Bu onu göstərir ki, vasitəçisiz aparılan ikitərəfli danışıqlar artıq konkret nəticələr verir. O ki qaldı üçtərəfli formata, artıq bu format iflasa uğrayıb. İndiki reallıqda işləməyən komissiyanın saxlanmasına ehtiyac yoxdur. Diplomatik protokollar baxımından belə strukturlar bəzən rəsmən ləğv edilməsə də, onların fəaliyyətsiz qalması onu "ölü format" statusuna gətirir. İnanıram ki, mövcud reallıqlar və regionda yaranmış yeni dinamikalar fonunda bu komissiyanın yaxın aylarda ya formal olaraq ləğv ediləcəyi, ya da tamamilə passiv statusda qalacağı ehtimalı yüksəkdir. Çünki Azərbaycanla Ermənistan arasında danışıqlar ikitərəfli formatda aparılır. İkincisi, tərəflər arasında birbaşa əlaqə kanalları mövcuddur və onlar işləkdir. Üçüncüsü, Rusiya regional proseslərdə əvvəlki rolunu itirməkdədir. Dördüncüsü, tərəflər arasında qarşılıqlı etimadın formalaşması vasitəçilərə ehtiyacı azaldır.

Bütün bunlar göstərir ki, bu komissiyanın formal mövcudluğu sadəcə kağız üzərindədir və əgər tərəflərdən biri, xüsusən də Azərbaycan və ya Ermənistan prosesin effektivliyi naminə bu strukturun rəsmi ləğvini irəli sürərsə, bunun diplomatik baxımdan da əsaslandırılmış izahı olacaq. Görünür, hələlik buna ehtiyac duyulmur. Onsuz da üçüncü tərəfin proseslərdə iştirakı faktiki olaraq mövcud deyil və komissiya formal xarakter daşıyır. Amma tez-gec fəaliyyətsiz bir qrum kimi tarixin arxivinə qovuşacaq ".

Bugünkü geosiyasi və diplomatik reallıqlar göstərir ki, Azərbaycan və Ermənistan arasında regiondakı əsas məsələlərin həlli üçün birbaşa, vasitəçisiz format daha səmərəli və nəticəyönümlü yanaşma formalaşdırıb. Son aylar tərəflər arasında ikitərəfli formatda baş tutan təmaslar, əldə olunan razılaşmalar və praktiki addımlar sübut edir ki, artıq prosesin effektiv irəliləməsi üçün üçüncü tərəfin iştirakı zəruri deyil.

Bu kontekstdə Rusiya–Azərbaycan–Ermənistan üçtərəfli komissiyası faktiki olaraq öz funksionallığını itirib. 2020-ci ildən sonra sülhə aparan mexanizmlərdən biri kimi nəzərdə tutulan bu platforma hazırda daha çox simvolik xarakter daşıyır və tərəflərin birbaşa qarşılıqlı fəaliyyət imkanlarını məhdudlaşdırmaq riski yaradır. Komissiyanın formal şəkildə saxlanılması isə yalnız süni status-kvonun qorunmasına və prosesin uzadılmasına xidmət edir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Moskva XIX əsrin ritorikası ilə danışır

(əvvəli 1-ci səhifədə)

Rusiya SSRİ-nin dağılmasından sonra yaranmış və müstəqilliyini bərpa etmiş dövlətlərin iqtisadi yüksəlişini və artan rifahını alqışlamaq əvəzinə, əksinə, onları zəiflətməyə, özündən asılı vəziyyətə salmağa və yoxsullaşdırmağa çalışır. Bu mövqenin strateji cəhətdən səhv olduğu birmənalıdır. Böhranın əsas səbəblərini Rusiya cəmiyyətinin özündə, onun ideologiyasının və "qeyri-slavyan" mənşəli vətəndaşlara münasibətinin dəyişməsində axtarmaq lazımdır. Moskvanın xarici siyasətində, xüsusilə qonşularla əlaqələrində üzləşdiyi uğursuzluqlar məhz daxildə gedən neqativ proseslərin fəsadlarıdır.

Bəli, Kremlin başbilənlərinin düşüncəsinə görə, Rusiya artıq xalqların çoxmillətli birliyi deyil, digərlərinin, yəni, "yadların" qonaq olduğu "rusların ölkəsi"dir. Bu yanaşma, təbii ki, nə Şimali Qafqaz, nə Volqaboyu, nə də Sibirdəki qeyri-rus mənşəli respublikalar və sayları on milyonlarla ölçülən xalqlar üçün qəbuledilməndir. Daxili problemləri bir yana, bəs qonşuları, dünənki müttəfiqləri niyə Rusiyadan üz çevirirlər? Ermənistan və Moldova özlərinə daha çox Qərbdə dəstək axtarır, Mərkəzi Asiyanın əksər respublikaları nümayişkaranə şəkildə Moskvadan uzaqlaşır. Hətta Rusiyanın sadiq tərəfdaşı olan Serbiya xarici strategiyasına yenidən baxır. Səbəb aydındır: bu ölkələrin nəzərində Rusiya özünün bərabərhüquqlu və etibarlı tərəfdaş kimi legitimliyini itirir. Bu gün Kremlin ritorikası və hərəkətləri XIX əsrin dəyişməyə qadir olmayan Rusiya imperiyasını xatırladır.

*

Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy Azərbaycanın Qarabağ iqtisadi rayonunda erməni əsilli rəssam Ayvazovskinin büstünün sökülməsinə "rus mədəniyyətinin məhv edilməsi" kimi sərsəm və avantürist açıqlama verib. Kremlin "mədəni" təmsilçisinin açıqlamasını şərh edən Azərbaycan XİN-in mətbuat katibi Ayxan Hacızadə bildirib ki, İvan Ayvazovskinin (Hovanes Ayvasyan) büstünün Rusiya sülhməramlıları tərəfindən Bakının icazəsi olmadan torpaqlarımızda quraşdırılması qanunsuz addım idi: "Bu, Azərbaycan Respublikasının suverenliyinə münasibətdə Rusiya tərəfindən hörmətsizliyin təzahürü olub. Azərbaycan ərazilərinin işğalı zamanı qanunsuz olaraq qoyulmuş bu kimi dırnaqarası abidələrin sökülməsi məntiqli, düzgün və qanunauyğundur".

A.Hacızadə haqlı olaraq qeyd edir ki, cənab Şvıdkoyun, guya, Azərbaycanda Rusiya mədəniyyətinin "ləğv edilməsi" iddiaları növbəti yalandır: "Rusiya mədəniyyətini Azərbaycanda heç kim ləğv etməyib. Azərbaycanda rus teatrı, rus dilində məktəblər, rus dilində nəşrlər olduğu halda, Rusiyada Azərbaycan dilində teatr, məktəblər, qəzet və jurnallar mövcud deyil. Bu disparitetə baxmayaraq, biz Rusiyada Azərbaycan mədəniyyətinin "ləğv edilməsi" iddiası ilə çıxış etmirik".



Azərbaycan XİN rəsmisinin şərhində daha sonra deyilir: "Rusiya tərəfinə bildirmək istərdik ki, onun rəsmi orqanları tərəfindən Azərbaycan toponimlərinin təhrif olunması və ərazilərimizin keçmiş separatçı qondarma rejim tərəfindən istifadə olunan adlarla qeyd olunması hallarına son qoyulmasını gözləyirik. Bu kimi hallar təkrarlanarsa, qarşılıqlılıq prinsipindən irəli gələrək Azərbaycan tərəfi Rusiya ərazisində bir çox yaşayış yerlərini öz əzəli adları ilə qeyd edə bilər". Bəli, onların öz dilində desək, "necə salam verərsənsə, o cür də cavab alarsan".

*

**Məlum hadisə ilə bağlı XQ-yə açıqlamasında Milli Məclisin deputatı Cavanşir Feyziyev** Mixail Şvıdkoyun, guya, Azər-



baycanda rus mədəniyyətinin ləğv edilməsi barədə verdiyi açıqlamanın hər cür məntiqdən məhrum olduğunu bildirdi: "Rusiyanın Azərbaycanla mədəni əlaqələrini koordinasiya edən səlahiyyətli şəxs kimi Şvıdkoy hamıdan yaxşı bilir ki, Azərbaycanda rus mədəniyyətinin simvolları nələrdir və cəmiyyətin rus mədəniyyətinə və ümumiyyətlə, yad mədəniyyətlərə münasibəti nədən ibarətdir. Uzun illər Azərbaycanda rus dilinə və mədəniyyətinə göstərilən qayğını digər ölkələr üçün örnək göstərmiş Şvıdkoyun bu gün tərsinə danışması və özünü təkzib etməsi onun artıq mədəniyyətə yox, siyasətə xidmət etdiyini göstərir. Bu davranış onun özü haqqında yaratdığı "mədəniyyət xadimi" obrazını darmadağın etməklə yanaşı, bu sahənin siyasi dəllalı kimi ifşa edir. O, yaxşı bilir ki, Rusiyada hələ XVIII-XIX əsrlərdə pravoslav dininin ayrı-ayrı təriqətlərinə sitayiş edən rus icmaları öz ölkələrində ciddi təqiblərə məruz qalır, marginallaşdırılır və hətta ölkədən sürgün edilirdilər. Hələ o zaman bir sıra rus icmaları Azərbaycanda özlərinə sığınacaq tapıb və məhz burada adət-ənənələrini qoruyub saxlamaqla sərbəst və rahat yaşamaq imkanı əldə etmişdilər. Öz mədəniyyətindən cüzi fərqliliyə görə vətəndaşlarına bu cür düşmən münasibət sergiləyən bir dövlətin bugünkü məmurunun başqa ölkələri rus mədəniyyətini sıxışdırmaqda günahlandırmaq cəhdləri yalnız gülünc doğura bilər".

Azərbaycanın qədim türk torpağı olduğunu, türklərin idarə etdiyi ərazilərdə, o cümlədən ölkəmizdə bütün mədəniyyətlərin nümayəndələrinin müsəlmanlarla birlikdə sülh və əmin-amanlıq şəraitində yaşadığını Şvıdkoya xatırladan C.Feyziyev burada heç bir xalqın dili, dini inancları, adət-ənənələrinin diskriminasiyaya məruz qalmadığını vurğuladı: "Ona görə də bu gün Azərbaycan dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Amma öz vətəndaşlarını etnik mənsubiyyətinə görə fərqləndirən, rus kökənli olmadığına görə cəzalandıran Rusiyada yüksək vəzifə daşıyan məmurun başqa bir ölkədə, xüsusilə Azərbaycanda mədəni mühit haqqında fikir yürütməsi absurddur. Mixail Şvıdkoyun nəzərinə çatdırıram ki, 2020-ci ildə Azərbaycan ərazisində müvəqqəti olaraq yerləşdirilmiş Rusiya sülhməramlı qüvvələrinin mandatı ərazidə təhlükəsizliyin qorunması ilə bağlı olub. Müvəqqəti yerləşdirildikləri Azərbaycan ərazisində hər hansı bir mədəniyyət abidəsinin ucaldılması onların səlahiyyəti çərçivəsində olmayıb və Rusiya sülhməramlı qüvvələri Ayvazovskiyə abidə qoyulması layihəsini Azərbaycanın müvafiq dövlət və mədəniyyət qurumları ilə razılaşdırmayıb. İşğal olunmuş ərazilərdə qeyri-qanuni olaraq tikilmiş bütün digər obyektlər kimi, Ayvazovskiyə qoyulan abidə də qeyri-qanunidir və ləğv olunmağa məhkum idi. Kremlin məmuru isə bu hadisəyə münasibət bildirməzdən əvvəl öz-özündə belə bir suala cavab axtarmalı idi: Azərbaycan əsgəri Sankt-Peterburqa gəlib Rusiya dövlət orqanları ilə razılaşdırmadan orada Nizamiyə, Nəsimiyə və ya Səttar Bəhlulzadəyə abidə qoya bilərdimi? Bu suala müsbət cavabı yoxdursa Mixail Şvıdkoy "tanımadığı kola girməməli" idi".

Deputat sonda onu da qeyd etdi ki, Şvıdkoy bu açıqlamanı verməklə öz beyninin məhsulunu dilə gətirməyib: "O, sadəcə, xidmətində durduğu səlahiyyətlilərin mesajını səsləndirib. Bu rolda isə Mixail Şvıdkoy dövlət məmuruna yox, küsülülər arasında söz aparıb-gətirən uşağa bənzəyir. Ruslar özləri belələrinə "xüsusi nümayəndə" yox, "мальчик на побегушках" deyirlər".

Artıq ağı qaradan ayırmağın, gözlə görünən həqiqətləri anlamağın məqamı yetişib. Həm də böyüklüyünə güvənərək ədalətsizlik edən bilməlidir ki, əsl güc mövcud olanı məhv etmək deyil, yenisini qurmaq, yaratmaq bacarığıdır. Yəni, başqalarının gözündə özünün düşmən kultunu deyil, sülhsevər mədəniyyət obrazını yaratmaq lazımdır. Əgər sənin keçmiş tarixin məntiqi qarşıdurmanı diktə edirsə, deməli, ətrafını, dünyanı deyil, məntiqini dəyişməyin vaxtıdır.

*

**Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov** hesab edir ki, yaranmış vəziyyət özünün qəribəliyi ilə diqqəti cəlb edir: "Qəribəlik ondadır ki, vaxtilə Qarabağ bölgəmizdə tarixi abidələrimiz, məscidlərimiz erməni vandalları tərəfindən məhv ediləndə, Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün heykəlləri güllləbarana məruz qalanda Mixail Şvıdkoyun heç səsi çıxmırdı. Əgər o, doğrudan mədəniyyət sahəsinin kuratoru sayılırdısa, o zaman harada idi? Elementar reaksiya belə vermədi. Mədəni irsimizin məhv edilməsinə dair



faktlar kifayət qədərdir. Şvıdkoyun məlum açıqlamasının mahiyyəti ondan ibarətdir ki, o, qərəzli münasibət nümayiş etdirir. Ən maraqlısı isə budur ki, həmin TASS təxminən ayyarım bundan əvvəl Xankəndini bizim dediyimiz və yazdığımız kimi adlandırmışdı. İndi isə bu şəhərimizi "Stepanakert" kimi təqdim etməsi birmənalı olaraq sifarişin yerinə yetirilməsi, məqsədli şəkildə Azərbaycanda qıcıq yaratmağa hesablanmış kampaniyadır".

Professor bu qənaəti xüsusi olaraq vurğuladı ki, Azərbaycanda rus dilində məktəblər, dövri nəşrlər kifayət qədərdir və rus dilinə hörmətlə yanaşırıq: "Rus Dram Teatrında tamaşalara baxmağa gedənlərin sayı da heç azalmayıb. Yəni, bizim ölkəmizdə rus mədəniyyətinə, rus dilinə xələl gətirəcək heç bir fəaliyyət aparılmır. Amma Rusiyada nə Azərbaycan dilində teatr, məktəb, nə də qəzet və jurnal var. Şvıdkoy gərək bu həqiqəti unutmasın. İndi belə bir məntiqi nəticəyə gələ bilərik ki, əgər onlar Xankəndinə Stepanakert deyirlərsə, onda gərək biz də Rusiyanın bir çox şəhərlərini əzəli adları ilə adlandıraq. Misal üçün, Kalininqradı həm danışıqda, həm də yazıda Königsberq adlandıra bilərik. Eləcə də bu qəbildən olan digər şəhərlərinin adlarını. Şvıdkoy, sanki bu reallığı görmür. Onun kimi şovinistlər o dərəcədə qərəzli mövqe tuturlar ki, həqiqəti görmək üçün gözləri kor, eşitmək üçün qulaqları kar olur. Yəni, sadəcə olaraq, reallıq hissini itirirlər. Görünür, onların duyğu üzvlərini bərpa etmələri üçün öz tərəfimizdən buna adekvat obyektiv və tutarlı cavabımızı verməliyik. Həm də bütün səviyyələrdə".

Nə qədər ki, rus cəmiyyətində etnosentrizm, şovinizm və ksenofobiya təmayülləri artmaqda davam edir, xarici dünya ilə sabit və etibarlı münasibətlər qurmaq daha da çətinləşəcək. Keçmiş dostları, qonşuları onlara yuxarıdan aşağı baxanlara, "kiçik qardaş" hesab edənlərə yaxın durmazlar. Öz xalqına hörmət xaricdə etimad qazanmağın başqa bir əsasıdır. Belə görünür ki, Rusiya bunu anlayana qədər dostlarının sayı sıfıra enəcək.

*İmran BƏDİRXANLI*
*XQ*

# Konfrans adı altında informasiya savaşı

## *Tehranda keçiriləcək toplantı, əslində, nəyi hədəfləyir?*

**İran İslam Respublikasının rəsmi dairələri kimi media qurumları və ekspert çevrələri də Zəngəzur dəhlizinin açılması məsələsinə xüsusi həssaslıqla yanaşırlar. Bu həssaslıq regionda baş verən proseslərin Tehranın strateji maraqlarına necə təsir edəcəyi ilə bağlı narahatlıqlardan qaynaqlanır. İranın həm rəsmi şəxsləri, həm də analitikləri dəhlizin reallaşmasını təkcə iqtisadi-logistik nöqteyi-nəzərdən deyil, həm də təhlükəsizlik və geosiyasi aspektlərdən dəyərləndirirlər. Bu baxımdan müxtəlif platformalarda dəhliz ətrafında müzakirələrin intensivləşməsi təsadüfi deyil. Tehran son dövrlərdə bu məsələni diqqət mərkəzində saxlamaqla həm daxili ictimai rəyə, həm də regional aktorlara mesaj verməyə çalışır. Bu mənada avqustun 5-də Zəngəzur dəhlizi ilə bağlı Tehranda keçirilməsi nəzərdə tutulan konfrans maraq doğurur.**

Məlumatı İranın "Mehr" informasiya agentliyi yayıb. Bildirilib ki, birgünlük konfransın təşkilatçıları "Mehr" və Ermənistanın "Orbeli" analitik araşdırmalar mərkəzidir. Konfrans "Zəngəzur dəhlizi: İrana qarşı geosiyasi təhdidlər və müxtəlif aktorların perspektivləri" adı altında təşkil olunacaq. Toplantıda açılış nitqi ilə "Mehr"in icraçı direktoru doktor Mehdi Rəhməti çıxış edəcək. Konfransda hər iki qonşu ölkədən (?) tədqiqatçıların və jurnalistlərin iştirak edəcəkləri bildirilib. Qeyd edilib ki, M.Rəhmətinin çıxışından sonra Ermənistanın "Orbeli" mərkəzinin tədqiqatçıları, o cümlədən Nver Davtyan, Janna Vardanyan, Edvard Bukracyan və Conni Melikyan dəhlizin regional təhlükəsizliyə təsiri ilə bağlı öz təhlillərini təqdim edəcəklər.

"Mehr" tədbirdə iranlı ekspertlərdən Dariuş Səfərnejadın, Şoaib Bəhmanın, Ehsan Movahedianın və Məhəmmədrza Moradinin, habelə Türkiyənin Vətən Partiyasının lideri Doğu Perinçekin də qatılacağını və hazırlamış olduqları analitik materialları təqdim edəcəklərini vurğulayıb.

*

Qeyd etdiyimiz kimi, Zəngəzur dəhlizi ilə bağlı müzakirələrin təkcə region ölkələrinin rəsmi dairələri arasında deyil, eyni zamanda, analitik və ictimai platformalarda da intensivləşməsi təsadüfi deyil. Tehran konfransı da məhz bu maraq və narahatlığın ifadəsi kimi dəyərləndirilə bilər. İranın regionda tanınmış, ölkənin hakim dairələrinə yaxınlığı ilə seçilən informasiya agentliyinin təşkilatçı kimi çıxış etdiyi tədbir, eyni zamanda, Ermənistanın "Orbeli" analitik mərkəzi ilə əməkdaşlıq şəraitində reallaşır. Bu fakt özlüyündə Tehranın məsələni təkcə öz prizmasından deyil, həm də İrəvanın baxışları ilə uzlaşdırılmış şəkildə gündəmə gətirmək istədiyini göstərir. Yəni, İran bu mövzuda tək deyil. O, narahatlığını regional əməkdaşlıq kontekstində, xüsusilə Ermənistanla koordinasiya olunmuş informasiya və ekspert platformalarında gücləndirməyə çalışır.

Konfransın adı da bir çox mətləblərdən xəbər verir. "Zəngəzur dəhlizi: İrana qarşı geosiyasi təhdidlər və müxtəlif aktorların perspektivləri" sözü tədbirin məqsəd və hədəflərini tam aydın göstərir. Burada əsas vurğu məhz İranın təhlükəsizlik narahatlıqları üzərində cəmlənib. Yəni, tədbirin məqsədi dəhlizin region ölkələri üçün iqtisadi və nəqliyyat yönümlü üstünlüklərini dəyərləndirməkdən daha çox, onun yarada biləcəyi hansısa risklərin şərhi və bu risklərə qarşı mövcud strategiyaların müəyyənləşdirilməsidir. Beləliklə, İran tərəfi konfransı həm fikir mübadiləsi, həm də regional aktorlar arasında ortaq mövqelərin formalaşdırılması üçün platforma kimi istifadə etməyə çalışır.




Onu da bildirək ki, İran tərəfi dəhlizin açılmasını özünə qarşı təhdid kimi görür. Regional və qlobal əməkdaşlıq platforması rolunu yerinə yetirəcək Zəngəzur dəhlizi sözünün İranda Tehrana qarşı geosiyasi təhdid kontekstində hallandırılması bundan xəbər verir. Yeri gəlmişkən, qeyd edək ki, hələ 44 günlük Vətən müharibəsinin başa çatmasının az sonra – 2020-ci ilin dekabrında Ermənistana səfər edən İran xarici işlər naziri Məhəmməd Cavad Zərif bildirmişdi ki, Ermənista¬nın ərazi bütövlüyü onlar üçün "qırmızı xətt"dir. Təəssüf ki, ötən 5 ilə yaxın müddətdə Tehranın mövqeyi dəyişməz olaraq qalıb. Yəni, Tehran yenə Zəngəzur dəhlizinə özünün "qırmızı xətt"i kimi baxır. 2025-ci il iyulun 21-də keçirdiyi brifinqdə İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqai Zəngəzur dəhlizi ilə bağlı ölkəsinin rəsmi mövqeyinə dair suala cavabında deyib ki, dəhlizlər suverenliyə və ərazi bütövlüyünə xələl gətirməməlidir: "Biz region ölkələri arasında mübadilənin və əlaqələrin genişləndirilməsini dəstəkləməklə razılaşsaq da, eyni zamanda, həmişə vurğulamışıq ki, bu keçidlərin yaradılması heç bir halda suverenlik və ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərə xələl gətirməməli və regionun geosiyasətində dəyişikliklər yaratmamalıdır. Bəzi hallarda Qafqaz regionunda digər ölkələrin danışıqları və mövqeləri yanlış şərh oluna bilər. Bununla bağlı mövqeyimiz aydındır və biz bunu dəfələrlə bəyan etmişik".

Bu baxımdan Tehranda Zəngəzur dəhlizi ilə bağlı keçiriləcək konfrans, əslində, İran və Ermənistanın süni narahatlığının rəsmi ifadəsidir. Dəhliz layihəsinin reallaşması istiqamətində hələ konkret addımlar atılmadığı bir dönəmdə belə tədbirlərin təşkili iki ölkənin məsələni olduğundan qat-qat böyük təhlükə kimi təqdim etmək cəhdindən başqa bir şey deyil. "Mehr" agentliyinin və "Orbeli" mərkəzinin birgə konfrans keçirməsi göstərir ki, burada məqsəd obyektiv analiz deyil, əvvəlcədən formalaşdırılmış qorxuların ictimai rəydə möhkəmləndirilməsidir. Halbuki indiyə qədər dəhlizlə bağlı Azərbaycan və Türkiyə tərəfindən bu ölkələrin suverenliyinə və ya təhlükəsizliyinə yönəlmiş konkret hədəfə rast gəlinməyib. İranın bu məsələdə narahatlığının mərkəzində, guya, regiondan təcrid olunmaq qorxusu dayanır. Amma bu qorxu real geosiyasi təhlilə əsaslanmır və yanlış yanaşmanın göstəricisidir. Zəngəzur dəhlizi layihəsi beynəlxalq hüquq normalarına və 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın müddəalarına əsaslanır. Burada İranın maraqlarına zidd olan heç bir məqam yoxdur. Əksinə, bu layihə regional iqtisadi inteqrasiyanın genişlənməsi və ticarət imkanlarının artması baxımından Tehranın özü üçün də yeni fürsətlər yarada bilər. Lakin görünən odur ki, Tehran məsələyə iqtisadi deyil, yalnız siyasi və təhlükəsizlik prizmasından baxmağa üstünlük verir. Nəticədə, mühüm infrastruktur təşəbbüsü region üçün "geosiyasi fəlakət" kimi təqdim edilir.

Konfransda iştirak edəcək ekspertlərin siyahısına baxdıqda aydın olur ki, burada əsas məqsəd məsələyə alternativ baxış gətirmək deyil. Onların məqsədi oxşar narahatlıqları eyni platformada səsləndirib ictimai rəydə "təhlükə" obrazını möhkəmləndirməkdir. İştirakçılar arasında əsasən İran və Ermənistan mənşəli tədqiqatçıların olması, eləcə də qeyd etdiyimiz kimi, tədbirin adında "İrana qarşı geosiyasi təhdidlər" sözü onu göstərir ki, konfrans əvvəlcədən müəyyən edilmiş nəticələrə xidmət edir. Elə onun işində Ehsan Movahedianın iştirak etməsi konfransın hansı notlar altında keçəcəyini təxmin etməyə imkan verir. Onun son aylarda Zəngəzur dəhlizi və ümumiyyətlə, Azərbaycanla bağlı verdiyi açıqlamalar açıq-aşkar qərəzli və təxribat xarakteri daşıyır. Movahedian dəfələrlə ölkəmizin ərazi bütövlüyünü şübhə altına alan və Zəngəzur dəhlizinin, guya, "pantürkist layihə" olduğunu iddia edən fikirlər səsləndirib. O, dəhlizi İranın milli təhlükəsizliyinə yönəlmiş xarici planın tərkib hissəsi kimi təqdim edir ki, bu yanaşma nə fakta, nə də beynəlxalq hüquqa əsaslanır. Əslində, bu cür fikirlər Cənubi Qafqazda sabitliyə yox, gərginliyin artmasına xidmət edir.

Yazımızı hazırlayarkən Tehranın ATU (Allame Tabataba) Universitetinin müəllimi, Qafqaz regionu, xüsusilə Ermənistan və Azərbaycan, eləcə də regiondakı qonşu ölkələr arasında münasibətləri araşdıran alim kimi təqdim edilən Movahedianın ötən ilin noyabrında "Armenpress"ə verdiyi müsahibə ilə tanış olduq. O deyib: "Ermənistanın da Şərqlə Qərbi birləşdirən iqtisadi marşruta qoşulmaq istəyi yaxşıdır. Lakin vəziyyəti qiymətləndirəndə hesab edirəm ki, İrəvan və Bakı arasında sülh sazişinin imzalanması o qədər də tez baş verməyəcək, çünki Türkiyə və Azərbaycanın sizin təşəbbüslərinizə necə reaksiya verdiyini görürük. Ona görə də İran, Ermənistan və Gürcüstan vasitəsilə yaxşı variant var. Hər üç ölkənin bir-biri ilə əlaqə saxlaması vacibdir. Bu, təkcə bizim üçün deyil, həm də sizin üçün vacibdir". Ekspert adlanan bu şəxs bu baxımdan Ermənistanın İran üçün böyük əhəmiyyət kəsb etdiyini bir daha təsdiqləyərək deyib: "İranda bəzi insanlar bu əlaqənin nə qədər vacib olduğunu başa düşmürlər. İran və Ermənistan maraqları 100 faiz üst-üstə düşən iki ölkədir. Dünyada maraq və mənfəətlərinin bu qədər üst-üstə düşdüyü başqa bir hal tapmaq çox çətindir. Məsələn, dəhlizlərə gəlincə, bəzi ölkələr, sizin qonşu ölkələr Ermənistanın ərazisindən keçmək istəyirlər, amma Ermənistanın ərazi bütövlüyünə hörmət etmək istəmirlər. Onlar dəhlizlər əldə etmək və onlara nəzarət etmək istəyirlər. İran yeganə qonşu ölkə və yeganə dostdur ki, bunun qeyri-mümkün, qəbuledilməz olduğunu söyləyib. İran bunun üçün mübarizə aparmağa hazır olduğunu dəfələrlə bəyan edib, çünki Ermənistanla əlaqələr Tehran üçün həyati əhəmiyyət daşıyır".

Belə fikirlər söyləyən şəxsin məruzə ilə çıxış edəcəyi bir konfransın təxribat xarakteri daşıyacağı, hansısa maraqlara xidmət etdiyi açıq-aşkar ortadadır. Tehranda keçiriləcək konfrans məhz bu cür qərəzli baxışları legitimləşdirmək üçün təşkil olunur və sülhə yox, təcrid siyasətinə xidmət edir.

**P.S.** Politoloq Yeganə Hacıyeva "Mehr" informasiya agentliyinin onu aldadaraq, xəbəri olmadan məruzəçi kimi təqdim etdiyini bəyan edib. O, bu barədə sosial şəbəkə hesabında açıqlama verib. Bildirib ki, konfransla bağlı paylaşılan məlumatlarda onun da çıxışçılar siyahısında yer aldığı göstərilib. Lakin onun sözlərinə görə, bu, tamamilə onun xəbəri və razılığı olmadan baş verib: "Bu, mənim üçün gözlənilməzdir. Bəyan edirəm ki, adım həmin siyahıya məndən xəbərsiz və şərti şəkildə əlavə olunub".

Politoloq əlavə edib ki, sadəcə Zəngəzur dəhlizi ilə bağlı "Mehr" agentliyinə video müsahibə verib, lakin həmin video materialın beynəlxalq forum çərçivəsində səsləndiriləcəyi barədə onun məlumatı olmayıb və bu, əvvəlcədən onunla razılaşdırılmayıb.

Y.Hacıyeva artıq "Mehr" agentliyinə və müsahibəni götürən jurnalistə yazılı etiraz məktubu göndərdiyini, adının iştirakçılar siyahısından çıxarılmasını tələb etdiyini bildirib. O, bütün bunları nəzərə alaraq, bundan sonra "Mehr"ə müsahibə və şərh verməyəcəyini bildirib.

*Səxavət HƏMİD*
*XQ*

# Dövlətçilik uğrunda savaş yeni mərhələdə



I MƏQALƏ

### Prezidentin çağırışı və vədi

XXI əsrdə müstəqil dövlət quruculuğu geosiyasi və siyasi baxımdan elə mürəkkəb prosesdir ki, onun hansısa standart reallaşma qaydası yoxdur. Hər bir ölkə keçdiyi tarixi yolla müasir vəziyyətin sərt reallıqlarının sintezində bu yolu getməli olur. Azərbaycan Respublikası Avrasiya məkanında müstəqil dövlət quruculuğu kursunun həm nəzəri hazırlanmasında, həm də onun praktiki reallaşmasında özəl mərhələlərdən keçmiş və Avrasiya məkanında hələ bənzəri olmayan uğurlu nümunə yaratmış dövlətdir.

Bunlar pafoslu sözlər deyil, müstəqil Azərbaycanın mövcudluğu və davamlı inkişafını təmin edən dahiyanə dövlət quruculuğu strategiyasının anatomiyasına aid olan gerçək fikirlərdir. Həmin prosesin memarı Ulu öndər Heydər Əliyev, onun XXI əsrdə siyasi varislik prinsipi əsasında nümunəsini yaradan isə Prezident İlham Əliyevdir.

Müstəqil Azərbaycan dövlətçiliyi kontekstində sonuncu tezisi biz fəlsəfi baxımdan fundamental hesab edirik və əsaslandırılması üçün dövlət başçısının müxtəlif tədbirlərdə ifadə etdiyi fikirlərin məntiqi özəlliyinə bir daha nəzər salmağa çalışacağıq. Yəni irəli sürülən tezisin konseptual səviyyədə sübuta ehtiyacı vardır.

Prezident İlham Əliyev 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına verdiyi müsahibədə belə bir tezis ifadə etmişdir: “...biz hər zaman çox ayıq olmalıyıq, çünki bizə qarşı olan hərəkət, dediyimiz bu məsələlərlə bitməyəcək, bundan sonra da davam edəcək. Çünki biz dünya miqyasında çox böyük layları tərpətdik. Bəlkə də təhlilçilər görürlər ki, bizim Zəfərimizin bəzi ölkələr üçün fəsadları onlara çox baha başa gəlib. Böyük layları tərpətdik biz. Elə bir Zəfər çaldıq ki, bu, lokal əhəmiyyətli məsələ deyil. Bu, bir növ beynəlxalq gündəliyin əsas məsələlərinin birinə çevrilibdir”.

İlham Əliyevin bu fraqmentdə “dediyimiz bu məsələlər”in və onlarla bağlı “bizə qarşı olan hərəkət” ifadələri geniş siyasi anlamı olan fikri əks etdirirlər. Həmin konteksti Prezident İlham Əliyev aşağıdakı kimi izah etmişdir: dünyanın güclü dövlətlərinin bir neçəsi ermənilərə havadarlıq edərək bizim üçün ümummilli məsələ olan ərazi bütövlüyünün bərpasını müxtəlif üsullarla unutdurmağa 30 il cəhd göstərmişlər. Onlar cəmiyyətin müxtəlif kəsimlərinə fərqli bəhanələrlə təsir etməyə çalışmışlar. Həmin qüvvələr bu prosesi ciddi və sistemli qaydada aparmışlar. Xüsusilə, gənclərdə ərazi bütövlüyünün bərpasına laqeyd olmaq duyğusu formalaşdırmağa çox cəhd göstərmişlər.

Biz indi bu kimi cəhdlərin nümunələrini xatırlaya bilərik. 1991-ci ildən başlayaraq, müxtəlif dini təriqətlər Azərbaycanda gənclərin orduya getməməsi üçün ciddi-cəhdlə təbliğatlar aparırdılar. Orduya getməyənlərə “cənnət vəd edilən” qondarma dini ayələr yayırdılar. Bu kontekstdə erməni gənclər “qardaş” və vətənpərvər azərbaycanlı gənclər isə “radikal, ixtilaf yaradan” və s. kimi təqdim olunurdular. Keçən əsrin 90-cı illərinin sonu XXI əsrin əvvəlləri bu kimi xristian və bir sıra müsəlman dini təriqətlərlə ağır mübarizə dönəmi oldu.

Bunlarla yanaşı, hətta hüquq və ədalət çərçivəsində fəaliyyət göstərməli olan bir sıra beynəlxalq tərəfdaşlarımız Qarabağı bizlərə unutdurmaq üçün dəridən-qabıqdan çıxırdılar. Prezident İlham Əliyev həmin bağlılıqda demişdir: “...30 il ərzində bir çox beynəlxalq tərəfdaşlarımızın səylərinə baxmayaraq, bu mövzu unudulmadı. Bunu bizə unutdurmaq istəmişdilər. Müxtəlif bəhanələr altında - Ermənistanla əməkdaşlıq, insanları, cəmiyyətləri sülhə hazırlamaq üçün müxtəlif QHT-lər vasitəsilə təmasların yaradılması məhz o məqsədi güdürdü ki, Azərbaycanda yetişən gənc nəsil bu məsələdə fərqli istiqamətdə yetişsin. Bizim isə məqsədimiz o idi ki, yetişən gənc nəsil vətənpərvər olsun, heç vaxt bu ədalətsizliklə barışmasın və əgər bizə nəsib olmazsa bu tarixi ədaləti bərpa etmək, gələcək nəsillər onu etməlidirlər”.

Vurğulanan fikirlər müstəqil dövlət quruculuğunun çox çətin bir mərhələsinin birinci fazasına aiddir. Azərbaycan dövlət kimi həmin əngəlləri aşaraq “dünya miqyasında çox böyük layları tərpətdi”.

> **“Əziz xalqımı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm”**
>
> **Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2024-cü il fevralın 24-də Milli Məclisdə Andiçmə mərasimindəki nitqindən**

### “Layları tərpənmiş dünya”nın həyəcanları

Prezidentin bu nəzəri və eyni zamanda, çox incə diplomatik işarəsinə diqqət edək. Azərbaycan Avrasiya məkanında elə bir siyasi, hərbi, informasiya və geosiyasi addım atdı ki, birincisi, milli miqyasda milli ideyanı reallaşdırdı, ikincisi, bu reallaşmanın qlobal səviyyədə çox ciddi “oturuşmuş və geosiyasi mənası olan daşları yerindən oynadacağını” öncədən proqnozlaşdırmışdı.

Məsələnin ikinci qismi dövlətçilik uğrunda mübarizənin yeni dönəmdə anatomiyası üçün prinsipial əhəmiyyət kəsb edir. Dövlət başçısı İlham Əliyev də məhz bu məqamı cəmiyyətə çatdırır: “...Elə bir Zəfər çaldıq ki, bu, lokal əhəmiyyətli məsələ deyil. Bu, bir növ beynəlxalq gündəliyin əsas məsələlərinin birinə çevrilibdir”! Yəni Azərbaycan coğrafi aspektdə məhdud, lokal məkanda qalib gəldi, lakin onun geosiyasi anlamı qlobaldır, beynəlxalq gündəliyin əsas məsələsidir! Obrazlı desək, “daşlar bütün dünya miqyasında yerindən oynamışdır”.

İlham Əliyev dövlətin və toplumun bu ciddi dəyişikliyə adekvat reaksiyasının başlıca prinsiplərini də ifadə edir.

Birincisi, “biz heç vaxt sakitləşməməliyik”.

İkincisi, bəzi dövlətlər kimi qələbədən feyziyab olub, yerimizdə saymamalı, köhnə hədəfləri pafosla təkrar etməməliyik: “Təbii ki, yeni dövrün yeni hədəfləri olmalıdır. Biz yeni dövrə köhnə hədəflərlə gedə bilmərik, çünki o hədəflər artıq əldə edildi və indi bəzi ölkələr var ki, öz tarixi keçmişini, tarixi uğurları illər boyunca, onilliklər ərzində istismar edirlər. Halbuki onların özlərinin o zəfərlərə heç bir aidiyyəti yoxdur. Yəni, biz o ölkələrdən olmaq istəmirik. Biz nə etmişiksə etmişik, xalq da bunu qiymətləndirir və qiymətləndirəcək. Ancaq bu tarixi Zəfəri də bundan sonra daim istismar etmək düzgün olmaz. Çünki birincisi, siyasi nöqteyi-nəzərdən düzgün olmaz. İkincisi, cəmiyyətdə elə bir sakitləşmə ovqatı da yaradılmamalıdır”.

Prezident İlham Əliyev bu cür nəzəri baza əsasında dövlətçilik uğrunda mübarizəni dayandırmamaq kontekstində çox perspektivli tezis irəli sürür: “Yeni dövrün yeni hədəfləri kimi yeni konseptual inkişaf strategiyamız və milli ideologiyamızın yeni istiqamətləri müəyyən edilməlidir”.

Dövlətçilik uğrunda savaşın mərkəzi tezisi olan bu strateji hədəfi həyata keçirməli olan subyektləri də Prezident İlham Əliyev konkret ifadə etmişdir: Prezident və xalq!

İlham Əliyev yeni hədəflərin müəyyən edilməsində konseptual inkişaf strategiyasının hazırlanmasında və milli ideologiyanın formalaşdırılmasında aparıcı rolu özünün oynayacağını bəyan etmişdir. Cəmiyyətin bu prosesdə çox yaxından iştirak etməli olduğunu da vurğulayan dövlət başçısı eyni zamanda, “son və həlledici qərarı” Prezidentin verəcəyini ifadə etmişdir.

Azərbaycan lideri yeni tarixi mərhələdə milli ideyanın hazırlanmasının cəmiyyət tərəfindən iki mühüm subyektini də vurğulamışdır: ziyalılar və gənclər! Məsələnin bu tərəfi dövlətçilik uğrunda mübarizə baxımından da çox əhəmiyyətli və maraqlıdır. Onun səbəblərinin fəlsəfi-nəzəri aspektini izah edək.

### Ziyalılar

Heydər Əliyevin müstəqil güclü dövlət quruculuğu kursunda ziyalılar xüsusi yer tuturlar. Ulu öndər AMEA-da keçirdiyi görüşlərdə, müxtəlif tədbirlərdə dövlət quruculuğu ilə bağlı irəli sürdüyü tezislərdə Azərbaycan elminə, alimlərinə və bütövlükdə ziyalılarına böyük önəm verdiyini açıq və dəqiq ifadə etmişdir. Ulu öndərin çoxlu sayda fikirlərindən bu aspektdə bir ana tezis keçir: “Azərbaycan cəmiyyətini ziyalılar formalaşdırırlar. Onlar mədəniyyət və dövlətçiliyin inkişafının aparıcı qüvvəsidirlər. Məhz bu gerçəkliyə görə, başda AMEA olmaqla Azərbaycan ziyalı camiyəsi milli sərvətdir”.

Bu fikri Prezident İlham Əliyev həm AMEA-nın yubiley tədbirlərində iştirakı zamanı ifadə etmiş və həm də onları inkişaf etdirərək Azərbaycan alimləri qarşısında dövlətçilik kontekstində yeni prinsipial vəzifələr qoymuşdur.

Bütün bunları bir elmi təşkilat kimi AMEA nəzərə alaraq, ölkə qurumları içərisində ilk olaraq özünün strateji yeniləşmə kursunu müəyyən etmişdir. Bu kursda AMEA-nın Azərbaycanşünaslığın mərkəzinə çevrilməsi birinci prioritet kimi təşkilatın qəbul etdiyi sənədlərdə vurğulanmışdır. Həmin bağlılıqda AMEA prezidenti, akademik İsa Həbibbəylinin təşəbbüsü və təşkilatçılığı ilə yeni tarixi mərhələ üçün milli ideyanın müəyyən edilməsində alimlərin iştirakı davamlı hala gətirilmişdir. Artıq AMEA bu mövzunu dəfələrlə müzakirə etmiş və öz təkliflərini hazırlamışdır!

AMEA rəhbərliyi hazırladığı strateji inkişaf konsepsiyasında vurğulanan məqamları maksimum dərəcədə nəzərə almışdır. Hazırda ölkənin ali elmi təşkilatı mükəmməl işlənmiş strateji inkişaf proqramına və “Yol Xəritəsi”nə malikdir! Azərbaycanın digər dövlət təşkilatlarının da analoji konsepsiya, strategiya hazırlayıb, bütövlükdə sinxron fəaliyyət göstərmələri bir zərurət kimi AMEA-nın fəaliyyəti prizmasında aydın görünməkdədir!

Onu da vurğulayaq ki, AMEA-da toplanan təcrübə göstərir ki, Azərbaycanşünaslığı bir sistemli nəzəri konsepsiya kimi müasir dövrün elmi kriteriyaları fonunda hazırlamaq asan proses deyildir. Burada müxtəlif elmi sferalara aid olan yanaşmaları Azərbaycan dövlətçiliyi naminə sintez halına gətirmək ciddi elmi yanaşma və metodologiya tələb edir. Məsələn, folklorşünaslıqla fəlsəfə və tarixşünaslığın nəzəri və metodoloji özəlliklərini Azərbaycanşünaslıq çətiri altında necə nəticəverici formada vəhdət halına gətirmək olar? Bu suala cavab axtarışları intensiv olaraq aparılır.

Əldə edien nəticələrlə bağlı bir nümunə göstərə bilərik. İndi AMEA-da Azərbaycanşünaslıq bağlılığında intensiv olaraq müxtəlif sferaların elmi dərkində dövrüləşdirmənin yeniləşməsi prosesi gedir. Burada ilk təşəbbüs və konkret dövrüləşdirmə konsepsiyasını hazırlamaq AMEA prezidentinə aiddir. Akademik İsa Həbibbəyli bədii təfəkkürün dövlətçilik və azərbaycançılıq kontekstlərində dövrüləşdirilməsi ilə bağlı mükəmməl bir konsepsiya yaratmışdır. Bu konsepsiyada reallaşdırılan nəzəri və metodoloji yanaşmanı digər elm sahələrinə də tətbiq etmək olar. Ancaq bu tətbiqin nəticəverici və səmərəli olması üçün alimlərin yaradıcı fəaliyyətləri olmalıdır. Elmi təşkilatda bu istiqamətdə tədqiqatlar yeni səviyyəyə yüksəlməkdədir.

Bütün bunlar Prezident İlham Əliyevin müstəqil dövlətçiliyi inkişaf etdirmək kursunun çoxaspektli və yeni yanaşmalar tələb edən proses olduğunu sübut edir. O cümlədən, Azərbaycanın ziyalı kəsiminin üzərinə həm böyük vəzifələr, həm də ciddi məsuliyyətli fəaliyyət düşdüyünü göstərir. Bunun fonunda Prezidentin gənclərə verdiyi önəmi mütləq vurğulamaq gərəkdir.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

**Avropa Komissiyası “Apple” və “Meta” şirkətlərini müvafiq olaraq 500 və 200 milyon avro məbləğində cərimələyib. Rəsmi açıqlamada qeyd edilir ki, bu şirkətlər “Rəqəmsal Bazarlar Qanunu”nu (DMA) pozublar.**

Amerika Birləşmiş Ştatları Avropa İttifaqının Avropa məkanında sosial şəbəkələrə məhdudiyyətlər qoyulmasından narazılığını ifadə edib. “Apple” və “Meta” şirkətlərini cərimələmək qərarını demokratiyaya zərbə, senzura tətbiq etmək cəhdi kimi qiymətləndirib. Dövlət Departamenti bəyanat yayaraq Avropanı “tənqidi fikirlərə görə kütləvi məsuliyyət” tətbiq etməkdə qınayıb.

Amerika tərəfi sosial şəbəkələri cərimələmək üçün hüquqi zəmin yaradan Avropa qanunlarını ayrıca tənqid edib. Bu sırada “Rəqəmsal Xidmətlər Aktı”nı xüsusi qınayıb. Həmin qanunu sosial şəbəkələr

# Sosial şəbəkələrə nəzarət: ABŞ–Avropa İttifaqı savaşı

üzərində “Senzura Aktı” kimi dəyərləndirib. ABŞ-ın fikrincə, “Avropa İttifaqı “bazar rəqabətini tənzimləmək” adı altında faktiki olaraq sosial media müstəvisində söz və ifadə azadlığına müdaxilə edir”.

Amma məsələ bu qədər sadə deyil. Problem heç də nə Avropa İttifaqının dediyi kimi, təkcə azad bazar şətlərinin tətbiqində, rəqabət mühitinin qorunmasında, yaxud istifadəçi hüquqlarının müdafiəsində deyil. Nə də ABŞ-ın iddia etdiyi kimi, təkcə ifadə azadlığı problemi ilə bağlı deyil. Analitik mərkəzlər qeyd edirlər ki, bu cərimələrin arxasında dərin və narahatedici tendensiyalar dayanır. Bu kontekstdə ilk olaraq ifadə azadlığı problemi qabardılır. Ardınca isə Avropanın informasiya məkanına nəzarət, ən əsası, sosial şəbəkə platformaları üzərində söz sahibinə çevrilmək təşəbbüsləri önə çəkilir.

İfadə azadlığı kontekstindən yanaşsaq, Avropa Komissiyasının bu qərarı, həqiqətən də, söz və ifadə azadlığına zərbədir. Avropanın illərlə başqa ölkələrə təlqin etdiyi “insan haqları” və “demokratik dəyərlərə” ziddir. Məlumat üçün qeyd edək ki, Avropa İttifaqı ərazisində sosial şəbəkə platformaları üzərində senzuranın tətbiqi rəsmi qaydada 2018-ci ildə üzə çıxıb. Əvvəllər də bu sahədə təşəbbüslər olub. 2018-ci ilin ayırıcı xətt kimi götürülməsinin səbəbi senzuranın rəsmiləşdirilməsi, hüquqi formaya salınmasıdır. Həmin il Fransa hökuməti “onlayn mühitdə dezinformasiyaya qarşı mübarizə tədbirləri”-ni önə çəkərək “Yalan məlumatlara qarşı mübarizə ilə bağlı 799 saylı təklif”i müzakirəyə çıxarıb. Nəticə bu olub ki, Milli Assambleya 2018-ci ilin dekabr ayında “İnformasiya manipulyasiyasına qarşı mübarizə haqqında 1202 saylı qanun” qəbul edib.

Yeni qanuna əsasən, ölkədə informasiya dövriyyəsinə aidiyyəti olan bütün qanunlar yeniləşdirilib, onlayn media mühitinin şərtlərinə uyğunlaşdırılıb. Dəyişikliklər “Rabitə haqqında 1986-cı il tarixli Qanun”u, “Audiovizual yayım haqqında Qanun”u, “Mətbuat azadlığı haqqında 29 iyul 1881-ci il tarixli qanun”u, “Seçki Məcəlləsi”ni və digər hüquqi aktları əhatə edib. Məsələn, Seçki Məcəlləsinin 112-ci və 163-1-ci maddələri dəyişdirilərək yeni redaksiyada verilib. Mahiyyəti budur ki, seçki prosesi dövründə dezinformasiya xarakterli məlumatların yayılması qadağan edilib. Qadağaları pozanlar üçün ciddi cəza növləri – 1 illik həbs cəzası, yaxud, 75 min avro məbləğində cərimə tətbiq edilib.

“İnformasiya manipulyasiyasına qarşı mübarizə haqqında” qanun sosial şəbəkə platformalarını da əhatə edir. Sosial şəbəkə platformaları, internet axtarış sistemləri, xəbər portalları və digər onlayn informasiya resursları “yalan məlumatlar”ın yayılmasının qarşısını almaq üçün mexanizmlər qurmaq üzrə məsuliyyət daşıyırlar.

Fransa hakimiyyətinin təşəbbüsü ilə ortaya çıxmış bu qanunlar zahirən cəlbedici görünə, informasiya çirkliliyindən müdafiə üçün tərtib edilmiş addımlar kimi dəyərləndirilə bilər. Amma durum fərqlidir. Analitik mərkəzlər iddia edirdilər ki, “İnformasiya manipulyasiyasına qarşı mübarizə” qanunu Fransada demokratiya və ifadə azadlığı üçün birbaşa təhlükədir. “Evronews” yazır ki, Fransa parlamenti hakimlərə seçki kampaniyaları zamanı “saxta xəbərləri” operativ şəkildə silmək üçün səlahiyyət verməklə tənqidi səsləri susdurmağa şərait yaradır: “Çünki ani məqamda saxta xəbəri tənqidi fikirdən fərqləndirmək, hansı xəbərin dezinformasiya, hansının tənqid olduğunu müəyyənləşdirmək çətindir. Bu yanaşma imkan verir ki, dezinformasiya adı altında həm də Makron hökumətinə qarşı yönəlmiş tənqidi fikirlər dövriyyədən çıxarılsın”. Analitik mərkəzlərin hesabatlarından görünür ki, Makron hökumətinə qarşı yönəlmiş minlərlə tənqidi fikir “dezinformasiya” adı altında yerli seqmentlərdən silinib.

Almaniyada 2017-ci ildə qəbul edilmiş, 2018-ci ilin yanvar ayında qüvvəyə minmiş “Sosial şəbəkələrdə qaydaların tətbiqi” qanunu (NetzDG) sadələşdirilmiş formada “Şəbəkə Mühafizəsi Aktı”, yaxud “Facebook Aktı” adlandırılır. Preambula hissəsində qeyd edilir ki, o, saxta xəbərlərlə, nifrət nitqi və dezinformasiya ilə mübarizə aparmaq məqsədi daşıyır.

“Şəbəkə Mühafizəsi Aktı” istifadəçilərinin sayı 2 milyon nəfərə çatmış bütün sosial şəbəkə platformalarına tətbiq edilir. Əsas tələbi budur ki, istifadəçi sayı qeyd edilən həddə çatmış platformalar Almaniyada öz ofislərini açmalı, müraciətlər/şikayətlər üçün əlçatan olmalı, saxta xəbərin qarşısını almaq üçün çevik mexanizmlər tətbiq etməlidirlər.

Qanun “saxta xəbərə qarşı mübarizə tədbirləri” adı altında sosial şəbəkə platformalarının provayderləri qarşısında ciddi öhdəliklər yaradır. Onlar şikayətləri dərhal yoxlamalı, şikayət doğuran məzmunu 24 saat ərzində silməli, saxta olduğu mübahisə doğuran xəbərləri isə ən azı 7 gün ərzində bloklamalı, mübahisə bitdikdən sonra silinb-silinməməsinə qərar verməlidirlər.

Bu qaydaları pozanlar pozuntunun tipinə uyğun olaraq 500 min Avrodan 50 milyon Avroya qədər məbləğdə cərimə oluna bilərlər. Məlumat üçün bildirək ki, 2019-cu ilin iyul ayında Facebook “qeyri-qanuni məzmunla bağlı şikayətlərə çevik reaksiya vermədiyi üçün” Almaniya Federal Ədliyyə İdarəsi tərəfindən 2 milyon avro məbləğində cərimələnib. Ədliyyə İdarəsi bildirib ki, Facebook öz istifadəçilərinin paylaşımlarında icma standartlarının pozulmasına dair hesabatları tərtib etməyib.



*Müşfiq ƏLƏSGƏRLİ,*
*XQ-nin media eksperti*

Federal Ədliyyə İdarəsi sosial şəbəkələrdə yayılmış hansı xəbərləri saxta hesab edir? Şikayətin haqlı-haqsız olmasını bilmədən şübhəli xəbərlərin 24 saat ərzində silinməsi, yaxud, ən azı 7 gün ərzində bloklaması nə anlam daşıyır? Problemlərin kökü bu məqamdan başlayır. Məlumat üçün bildirək ki, əksər beynəlxalq təşkilatlar Almaniyada tətbiq edilən qanun barədə tənqidi fikirlər səsləndiriblər.

Avropa Şurası bu qanunun Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsi ilə ziddiyyət təşkil etdiyini açıqlayıb. “Sərhədsiz Reportyorlar Təşkilatı” isə qeyd edir ki, xəbərin saxta və ya düzgün olmasına məhkəmə qərar verməlidir. “Sosial şəbəkələrdə qaydaların tətbiqi Qanunu” isə məhkəmələrə aid olan bu səlahiyyəti inzibati icra qurumuna – Ədliyyə İdarəsinə həvalə edir. Həmin idarə də öz səlahiyyətlərindən istifadə edərək Facebook və Google-dan saxta olub-olmaması mübahisə doğuran məzmunu bloklamağı tələb edir, tənqidi səsləri batırır, ifadə azadlığını “hüquqi yolla” pozur.

Beləliklə, Fransa və Almaniyada 2018-ci ildən etibarən qüvvəyə minmiş yeni qanunlar həm insanların ifadə azadlığını məhdudlaşdırır, həm də bu dövlətlərin sosial şəbəkə platformaları üzərində nəzarət imkanlarını genişləndirir.

Fransa və Almaniyanın yaratdığı president bu dövlətlərin dominant mövqe tutduqları Avropa İttifiqına da sirayət edib. Son 5 il ərzində İttifaq ərazisində onlayn informasiya resursları üzərində senzuranı hədəfləyən çoxsaylı qanunlar qüvvəyə minib. Bu sırada “Avropa Media Azadlığı Aktı” (EMFA), Avropa İttifaqının “Rəqəmsal Xidmətlər Aktı” (DSA) və “Rəqəmsal Bazarlar Aktı” (DMA) ön sırada dayanır.

Adlarında “media azadlığı”, “ifadə azadlığı”, “xidmət” sözlərinin olması ictimai rəyi çaşdırmaq üçündür. Məzmun və hədəf başqadır. Bu aktlar onlayn informasiya resursları, sosial şəbəkə platformaları üzərində nəzarət, media termini ilə desək, senzura üçün hüquqi yol açır. Avropa İttifaqı məkanında sosial şəbəkələr üzərindən yayılan məzmunun nəzarətə götürülməsinə xidmət edir. Avropa Komissiyası həmin aktlara istinad edərək bu ay “Apple” və “Meta” şirkətlərini müvafiq olaraq 500 milyon avro və 200 milyon avro məbləğində cərimələyib.

Bilinən faktdır ki, öz əhatəsində 6 milyard nəfərə yaxın insanı birləşdirən sosial şəbəkə platformalarının admin şirkətlərinin əksəriyyəti ABŞ-ın və Çinin əlindədir. Bu status onlara imkan verir ki, qlobal ictimai rəylə istədikləri kimi davransınlar. Avropa İttifaqı da bu məkanda söz sahibinə çevrilmək istəyir. Qəbul edilən qanunlar, sosial şəbəkələrə qarşı cərimə tətbiqləri də bu xəttə xidmət edir.

Bu məqamda maraqlı sual yaranır. Azərbaycanda bənzər qanunlar qəbul edilsəydi, cərimələr tətbiq olunsaydı, görəsən, Avropa Parlamenti və ya Avropa Şurası necə davranardı? Ölkəmizə qarşı hansı hədyanlar yağdırardı, hansı ruhda qətnamələr qəbul edərdi? Sual əslində ritorikdir. Heç şübhə yoxdur ki, Qərbdə məskunlaşan “beynəlxalq təşkilatlar”, “hüquq müdafiəçiləri”, ən əsası Qərb mediası bu halda “Azərbaycanı ifadə azadlığını pozmaqda”, “sosial şəbəkələrə senzura tətbiq etməkdə” ittiham edərdilər.

Amma bu gün səsləri batıb. Nə Avropa Parlamenti, nə Avropa Şurası, nə də “Amnesty International”, “Human Rights Watch” və “Freedom House” üzə çıxır. “Sərhədsiz Repotyorlar” bəyanat vermir. Çünki iki od arasında qalıblar. Qarşı duran tərəflərin hər ikisi – həm ABŞ, həm də Avropa İttifaqıqrant verən, pullu sifariş edən donorlardırlar. Bu gün tərəflərdən birini dəstəkləmək, ya Avropa İttifaqını, ya da ABŞ-ı haqlı saymaq bu təşkilatları bitirər. “Amnesty International”, “Human Rights Watch” və ya “Freedom House” təşkilatının sonunu gətirər.

# Dünya Bankı Azərbaycanın “yaşıl” tərəfdaşıdır

**(əvvəli 1-ci səhifədə)**

Hazırda ölkədə günəş və külək enerjisi sahələrində genişmiqyaslı layihələr reallaşdırılır. 2027-ci ilə qədər bərpa olunan enerji sahəsinə 2,8 milyard ABŞ dolları məbləğində investisiya qoyuluşu planlaşdırılır. Bu çərçivədə 8 böyük günəş və külək elektrik stansiyasının inşası nəzərdə tutulur. Nəticədə, təxminən, 2 GVt gücündə bərpa olunan enerji istehsalı imkanlarının yaradılması nəzərdə tutulur. Bununla da Azərbaycanın enerji istehsal gücündə nəzərəçarpacaq artımın gerçəkləşdirilməsinə əlverişli yol açılır.

Qeyd edək ki, 2 GVt sadəcə texniki göstərici deyil, bu rəqəm beynəlxalq enerji şirkətləri və ekspertlər tərəfindən aparılmış təhlillər və qiymətləndirmələr əsasında müəyyənləşdirilib. Həmin rəqəm göstərir ki, Azərbaycanın enerji sistemi müasir texnoloji təkmilləşdirmələr və infrastrukturun modernləşdirilməsi nəticəsində yaxın onillikdə məhz bu qədər “yaşıl” enerjini qəbul etməyə qadir olacaq.

Yeni enerji stansiyalarının qurulması ilə yanaşı, Azərbaycanın enerji infrastrukturunun müasirləşdirilməsi də paralel şəkildə həyata keçirilir. Çünki yalnız yeni mənbələrin yaradılması kifayət etmir, həm də bu mənbələrin milli enerji sisteminə inteqrasiyası, enerji axınlarının idarə olunması, ötürmə xətlərinin gücləndirilməsi və enerji balansının tənzimlənməsi tələb olunur. Bu istiqamətdə Azərbaycan hökuməti “Azərenerji” və “Azərişıq” ASC-lər vasitəsilə irimiqyaslı yenidənqurma və rəqəmsallaşdırma proqramları həyata keçirir.

Azərbaycanın bərpa olunan enerji sahəsində irəli sürdüyü ambisiyalı planlar beynəlxalq investorların və nüfuzlu enerji şirkətlərinin diqqətindən yayınmayıb. Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” və Səudiyyə Ərəbistanının “ACWA Power” kimi aparıcı şirkətləri tərəfindən ölkəmizdə külək və günəş enerjisi layihələrinə artıq sərmayə qoymaqla yanaşı, texnologiya transferi və təlim proqramları da həyata keçirilir. Bu əməkdaşlıqlar ölkənin enerji keçidinə mühüm töhfə verməklə yanaşı, qeyri – neft sektorunun inkişafında da mühüm rol oynayır.



Onu da qeyd edək ki, Azərbaycanın bu istiqamətdəki fəaliyyəti təkcə daxili bazarın tələblərinə cavab vermir, həm də regional və beynəlxalq enerji sisteminə inteqrasiya imkanlarını genişləndirir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları “yaşıl enerji zonası” elan olunub və bu ərazilərdə yalnız bərpa olunan mənbələrdən istifadə etməklə elektrik enerjisi istehsalı planlaşdırılır. Bu yanaşma, eyni zamanda, işğaldan azad edilmiş ərazilərin bərpası, eləcə də müasir infrastruktura əsaslanan inkişafı ilə uyğunlaşır.

Nəticə etibarilə Azərbaycanın bərpa olunan enerji sektoruna yönəltdiyi diqqət və investisiyalar təkcə iqtisadi məqsədlər daşımır. Bu, həm də ekoloji məsuliyyətin ifadəsinə, iqlim dəyişmələrinin qarşısının alınmasına verilən töhfədir. Təmiz enerjiyə keçid çətin, amma zəruri bir prosesdir və bu prosesin uğurlu icrası Azərbaycanın enerji sahəsində qlobal imicini daha da gücləndirir. 2030-cu ilə qədər enerji balansında bərpa olunan mənbələrin 30 faizlik paya çatdırılması hədəfi reallığa çevrilərsə, Azərbaycan “yaşıl” gələcəyin reallaşmasında lider ölkələrdən biri olacaq.

Bu baxımdan ölkənin ortaya qoyduğu iradə, qəbul etdiyi qərarlar və həyata keçirdiyi layihələr strateji baxımdan çox mühüm və zamanın çağırışlarına cavab verən addımlardır. Azərbaycanın “yaşıl” enerji siyasəti bu gün yalnız bugünkü deyil, sabahkı nəsillər üçün də daha təmiz, dayanıqlı və təhlükəsiz bir enerji gələcəyini təmin etməyə yönəlib.

“AzərEnerji” ASC-nin Dünya Bankı ilə həyata keçirdiyi bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi layihəsi (AZURE) üzrə işlərin birinci mərhələsi yekunlaşmaq üzrədir. Adı çəkilən ASC-nin məlumatına görə, bu layihənin birinci mərhələsində “AzərEnerji”nin daxili imkanları və bir hissəsi dövlət büdcəsi hesabına ayrılan vəsaitlə tikilən yeni yarımstansiyanın və onun 330 kilovoltluq tərəfinin, o cümlədən Nəvahidən Abşerona 500 kilovotluq, “Biləsuvar” və “Bankə” günəş elektrik stansiyalarına 330 kilovoltluq ötürmə xətlərinin çəkilməsi artıq yekunlaşmaqdadır.

İcra qrafikinə əsasən, 2024-cü ilin sentyabr ayından başlanılan və artıq tamamlanan layihənin birinci mərhələsi “Bankə” və “Biləsuvar” günəş elektrik stansiyalarının enerjisistemə qoşulması öhdəliyinin yerinə yetirilməsini şərtləndirir. Bu böyük enerji layihəsinin ikinci mərhələsində isə Dünya Bankının maliyyələşdirilmə hissəsinə start verilməsi nəzərdə tutulur.

Dünya Bankının krediti hesabına “Nəvahi” yarımstansiyasının 500 kilovoltluq tərəfinin və yarımstansiya üçün transformator, əlaqəli avadanlıqların alınması və quraşdırılması, habelə adıçəkilən yarımstansiyadan Mingəçevirə 500 kilovoltluq, o cümlədən Ələt, Abşeron və Qobuya 330 kilovoltluq ötürmə xətlərinin tikintisi planlaşdırılıb. Bu mərhələnin isə 3 il müddətinə yekunlaşdırılması nəzərdə tutulub.

Qeyd edək ki, sözügedən layihəsinin icra olunmasında əsas məqsəd Azərbaycanda tikilən 2 giqavat bərpa olunan enerji mənbələrinin enerji sisteminə inteqrasiyasını dayanıqlı və təhlükəsiz şəkildə həyata keçirməkdir. Bunun üçün ölkədə əsas qovşaq yarımstansiyası funksiyasını daşımaq üçün ölkənin ən böyük yarımstansiyalarından biri – 500/330 kV-luq “Nəvahi” Enerji Qovşağı tikilir və oradan ölkənin müxtəlif istiqamətlərinə 500 və 330 kilovoltluq yüksəkgərginlikli ötürmə xətləri çəkilir.

Qeyd edək ki, bu layihənin həyata keçirilməsi üçün Dünya Bankı tərəfindən 173,5 milyon ABŞ dolları məbləğində kredit ayrılıb. Həmin vəsaitin 5 ili güzəşt dövrü olmaqla 15 illik müddətə cəlb olunması və kreditin qaytarılması 2039-cu ilin sonunda bitəcəyi nəzərdə tutulub.

Sonda ölkəmizdə bərpa olunan enerji potensialının reallaşdırılması ilə əlaqədar bəzi göstəriciləri də diqqətə çatdırmaq istərdik. Belə ki, Energetika Nazirliyindən redaksiyamıza verilən məlumata görə, cari ilin birinci yarımilində respublika üzrə elektrik enerjisi istehsalı 291,5 milyon kilovat-saat, yəni 2,2 faiz artaraq 13 milyard 849,3 milyon kilovat-saat olub. Bu dövrdə istilik elektrik stansiyalarında (İES-lərdə) 11 milyard 519,2 milyon kilovat-saat, su-elektrik stansiyalarında (SES-lərdə) 1 milyard 860 milyon kilovat-saat, digər mənbələr üzrə isə 470,1 milyon kilovat-saat, o cümlədən külək elektrik stansiyalarında(KES-lərdə) 21 milyon kilovat-saat, günəş elektrik stansiyalarında (GES-lərdə)314,6 milyon kilovat-saat, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 134,5 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə bərpaolunan enerji mənbələrindən 14,6 faiz və ya 297,2 milyon kilovat-saat artımla 2 milyard 330,1 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub.

6 ay ərzində elektrik enerjisinin istehsalı “AzərEnerji” ASC üzrə 12 milyard 323,2 milyon kilovat-saat (İES-lərdə 10 milyard 441,4 milyon kilovat-saat, SES-lərdə 1 milyard 851,1 milyon kilovat-saat, GES-lərdə 30,7 milyon kilovat-saat), “Azərişıq” ASC üzrə külək elektrik stansiyalarında 14,6 milyon kilovat-saat, müstəqil elektrik stansiyaları üzrə isə 1 milyard 511,5 milyon kilovat-saat təşkil edib. Hesabat dövründə elektrik enerjisinin ixracı 59,9 faiz artaraq 709,9 milyon kilovat-saat, idxalı isə 15,9 faiz azalaraq 81,1 milyon kilovat-saat olub.

## Azərbaycan–Yaponiya enerji əməkdaşlığı



**Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf Yaponiya – Azərbaycan İqtisadi Komitəsinin sədri və “ITOCHU” Korporasiyasının baş əməliyyat direktoru Tetsuya Yamada ilə görüşüb. Söhbət zamanı “ITOCHU” Korporasiyası ilə ötən illər səmərəli əlaqələrin qurulduğu vurğulanıb. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən regional və qlobal əhəmiyyətli enerji layihələrində, neft-kimya sahəsində uğurlu tərəfdaşlıq da məmnunluqla qeyd olunub.**

Söhbət zamanı Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyasının növbəti iclasına hazırlıq məsələləri müzakirə edilib. Tərəflər enerji sektorunun müxtəlif istiqamətlərində əməkdaşlığın genişləndirilməsi, o cümlədən neft yataqlarının kəşfiyyatı və işlənməsi, bərpa olunan enerji layihələri, qabaqcıl texnoloji yeniliklərin sənayedə tətbiqi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıb.

Qeyd edək ki, Yaponiyanın ən böyük universal transmilli şirkətlərindən biri olan “ITOCHU” 1866-cı ildə yaradılıb. Baş ofisi Tokioda yerləşən və illik dövriyyəsi 160 milyard ABŞ dolları təşkil edən korporasiyada 8 mindən çox işçi çalışır. 816 yardımçı müəssisəsi olan qurumun 164 ölkədə nümayəndəliyi var. 1996-cı ildə Bakıda ofisini açan “ITOCHU” Azərbaycanda, əsasən, neft və qaz sahəsində investisiya layihələrini həyata keçirir. Korporasiya “Əsrin müqaviləsi” çərçivəsində “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun işlənilməsi, eləcə də Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri layihələrində iştirak payları qazanıb. Bununla yanaşı, yapon nəhəngi Türkiyənin “Petkim” neft-kimya kompleksinin nəzdində layihə gücü ildə 10 milyon ton təşkil edən STAR neft emalı zavodunun inşasında SOCAR-la əməkdaşlıq edib.

## Rəqabət mövzusunda maarifləndirici seminar

**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi qida, qeyri-qida, tikinti, hasilat, metallurgiya, yanacaq istehsalı və satışı, dərman vasitələrinin satışı, rabitə və telekommunikasiya sahələrində fəaliyyət göstərən bir sıra təsərrüfat subyektləri nümayəndələrinin iştirakı ilə maarifləndirici onlayn seminar keçirib.**



30-dan çox iştirakçının qatıldığı təlimdə agentliyin antiinhisar nəzarəti şöbəsinin müdiri Fuad Yadigarov açılış nitqi ilə çıxış edib. O, Rəqabət Məcəlləsinin tətbiqi ilə bağlı keçirilən budəfəki seminarın Azərbaycan Respublikasının Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın əmtəə bazarının səmərəliliyi və rəqabət işçi qrupunun fəaliyyət planının tələblərinə əsasən təşkil olunduğunu diqqətə çatdırıb.

Daha sonra həmin şöbənin antidempinq araşdırmaları sektorunun müdiri Gündüz Camalzadə “Saziş (üfüqi və ya şaquli saziş) və ya kartel tipli sövdələşmələrə dair təsərrüfat subyektlərinə müvafiq nəzarətin və tənzimləmənin həyata keçirilməsi” mövzusunda təqdimatla çıxış edib. Çıxış zamanı iştirakçılara Rəqabət Məcəlləsində təsbit olunmuş üfüqi və şaquli sazişlər, kartel sövdələşmələri, uyğunlaşdırılmış hərəkətlər, az əhəmiyyətli sazişlər, eləcə də istisna edilmiş sazişlər barədə məlumat verilib.

Seminar zamanı qanun pozuntusuna səbəb olan sazişlərlə bağlı Rəqabət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyət tədbirləri iştirakçıların diqqətinə çatdırılıb, tənzimləmə mexanizmlərinin həyata keçirilməsi metodları izah edilib. Sonda iştirakçıları maraqlandıran suallar ətrafında müzakirələr aparılıb.

## Dövlət Neft Şirkəti hesabat verir

### *II rübdə 1,8 milyon ton neft və 2 milyard kubmetr qaz hasil olunub*

**Bu ilin ikinci rübündə Azərbaycan Dövlət Neft Şirkəti 17 min 898 metr qazma işləri həyata keçirib. Hesabat dövründə şirkətin müstəqil şəkildə və ya əsas payçı qismində istismar etdiyi yataqlardan 1 milyon 768 min 875 ton neft və 1 milyard 969 milyon 670 min kubmetr qaz hasil olunub. Şirkət üzrə təbii qaz hasilatı ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,5 faiz artıb.**

Ölkə üzrə qaz hasilatı isə 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə, təxminən, 1,4 faiz artaraq, 12 milyard 692 milyon 215 min kubmetr təşkil edib. Ümumilikdə, cari ilin ikinci rübündə Azərbaycanda 6 milyon 825 min 722 ton xam neft hasil olunub.

Hesabat dövründə Dövlət Neft Şirkətinin xarici bazarlara ixrac etdiyi neft ötən ilin eyni dövrü ilə müqayisədə cüzi artaraq, təxminən, 4 milyon 157 min 350 ton təşkil edib. Bura şirkətin öz imkanları ilə çıxardığı neft ilə birlikdə ölkəmizdə fəaliyyət göstərən beynəlxalq konsorsiumların hasil etdiyi neftin Azərbaycana və Dövlət Neft Şirkətinə məxsus mənfəət payları da daxildir.

Ümumilikdə, 2025-ci ilin yanvar-iyun aylarında Azərbaycandan 18 ölkəyə 12 milyon 46 min 352,54 ton həcmində neft ixrac olunub. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, hesabat dövründə Azərbaycanın neft ixrac etdiyi TOP-10 ölkələr sırasına İtaliya, Çexiya, Xorvatiya, Rumıniya, Portuqaliya, Almaniya, Böyük Britaniya, İrlandiya, Yunanıstan və Niderland daxil olub. Cari ilin 6 ayında Azərbaycan İtaliyaya 3 milyard 602 milyon 341,97 min ABŞ dolları dəyərində 6 milyon 820 min 798,97 ton, Çexiyaya 449 milyon 595,51 min dollar dəyərində 846 min 461,39 ton, Xorvatiya 408 milyon 862,68 min dollar dəyərində 744 min 703,91 ton xam neft ixrac edib. Bundan əlavə, ilin birinci yarısında ölkəmizdən Rumıniyaya 378 milyon 39,37 min dollar dəyərində 685 min 972,26 ton və Portuqaliyaya 310 milyon 369,1 min dollar məbləğində 576 min 34,89 ton neft tədarük edilib.

Bu ilin ikinci rübündə ölkə üzrə təbii qaz ixracı 6 milyard 165 milyon 825 min kubmetr təşkil edib. Hesabat dövründə qaz istehlakı isə 2 milyard 418 milyon 158 min kubmetr təşkil edib. Bu sahədə 6 faiz artım qeydə alınıb. Yeri gəlmişkən, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu enerji siyasəti nəticəsində Azərbaycanın qaz ixrac etdiyi ölkələrin sayı ildən-ilə artır. Artıq Azərbaycandan “mavi yanacaq” alan ölkələrin sayı 12-yə çatıb. Bunlar Gürcüstan,




Türkiyə, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya və Slovakiyadır. Növbəti ildən isə Cənub Qaz Dəhlizinin keçdiyi Albaniya da Azərbaycandan qaz almağa hazırlaşır. Bununla yanaşı, yaxın vaxtlarda Ukrayna və Suriyanın hesabına ölkəmizin qaz ixrac etdiyi ölkələrin siyahısı bir qədər də genişləncək. Artıq Türkiyə üzərindən Suriyaya ildə 1 milyard kubmetr təbii qaz ixrac ediləcəyi dəqiqləşib. Ukraynaya gəldikdə isə, bu ölkə Azərbaycandan qaz idxalına bir qədər əvvəl başlayıb. Bu ölkənin “Naftogaz” Şirkətlər Qrupunun məlumatına görə, hazırda Azərbaycan qazının Bolqarıstan – Rumıniya – Ukrayna dəhlizi üzərindən Transbalkan marşrutu ilə sınaq tədarükü həyata keçirilir.

Qurumun cari ilin ikinci rübünün nəticələri ilə bağlı hesabatında neft və qazın emalı ilə bağlı göstəricilər də əksini tapıb. Qeyd olunub ki, aprel-iyun ayları ərzində Dövlət Neft Şirkəti 1 milyon 544 min 143 ton neft və 766 milyon 399 min 333 kubmetr qaz emal edib. Bu dövrdə şirkətin Azərbaycandakı müəssisələrində istehsal olunan 569 min 804 ton neft, neft-kimya və qaz-kimya məhsulları xarici bazarlara ixrac edilib.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Qədim türk yurdunun daş yaddaşı

## "Möminə xatun" – sevginin əbədiyyətə əmanəti

**Naxçıvan şəhərindəki XII əsr Azərbaycan intibahı dövrünün möhtəşəm yadigarı olan Möminə xatun türbəsi dünya memarlıq inciləri sırasında da layiqli yer tutur. Tarixçi, arxitektor və mühəndislər isə bu abidəni Şərq memarlığının bənzərsiz nümunəsi kimi öyrənir və mədəni irsimizə gətirdiyi zənginliyi incələyirlər.**



Ümumi fikir isə budur ki, Möminə xatun türbəsinin tarixi dəyəri və məxsusi memarlığı Şərq sərhədlərini xeyli aşır. Doğrudur, bu gün dünyanın müxtəlif ölkələrində fərqli mədəniyyətlərə məxsus çoxsaylı abidələr mövcuddur və bu abidələrin hər birinin özünəməxsus əhəmiyyəti var. Amma Möminə xatun, sözün əsl mənasında, xalqımız üçün misilsiz bir dəyərdir. Möminə xatin Tac-Mahal kimi möhtəşəm memarlıq əsərləri ilə müqayisə oluna bilər.

Bu gün ölkəmizdə tarixin daş yaddaşı olan belə abidələrin qorunub saxlanmasına yetərli dövlət qayğısı göstərilir. Prezident İlham Əliyevin 22 may 2025-ci il tarixli "Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında" sərəncamı Möminə xatun türbəsinin özünəməxsus tarixi görkəminin və dəyərinin qorunub saxlanması və gələcək nəsillərə çatdırılması məqsədilə imzalanmış çox mühüm dövlət sənədidir.

Bu yaxınlarda isə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi ilə Avstriyanın dünyaca məşhur restavrasiya şirkəti olan "Atelier Erich Pummer GmbH" arasında türbənin bərpa və konservasiyasının aparılması ilə bağlı müqavilə imzalanıb. Görüləcək işlər dünya əhəmiyyətli bu tarixi abidəyə yeni nəfəs gətirəcək. Qalır, bu abidəni dünyaya lazımi səviyyədə təqdim edək.

Gəlin əvvəlcə bu abidə haqqında bildiklərimizi xatırlayaq. Türbənin kitabəsindən də məlum olduğu kimi bu abidə Azərbaycan Atabəyləri dövlətinin banisi Şəmsəddin Eldənizin əmri ilə xanımı Möminə xatunun şərəfinə tikilib. Türbə bürcvari Azərbaycan türbələrinin ən görkəmli nümunəsidir. Zəmanəmizə qədər qalmış və hündürlüyü 26 metr olan abidənin yuxarı hissəsi dağılmışdır. Onun da 8 metr olduğunu nəzərə alsaq, türbə keçmişdə 34-35 metr hündürlüyündə dairəvi bir tikinti olmuşdur.

Abidə yeraltı hissədən və yerüstü qurğudan ibarətdir. Yeraltı sərdabə hissəsi planda onbucaqlıdır. Sərdabənin quruluşu burada olduqca maraqlı bir şəkildə həll edilmişdir. Mərkəzdə yerləşmiş sütundan onbucaqlının hər küncünə bir tağ atılmışdır. Yerüstü abidə isə xaricdən ongüşəli, daxildən isə dairəvidir.

Səthlərinin və bucaqlarının kitabə və həndəsi ornamentlərdən ibarət olan bəzəyi, gəc üzərindəki nəbati təsvirləri haqqında indiyədək xeyli sayda monoqrafik əsərlər yazılmışdır. Türbənin bucaqlarındakı çıxıntılar əsas etibarı ilə kufi xətlə işlənmiş kitabə ilə örtülmüşdür. Bu kitabələrin türbənin ümumi quruluşunda nə qədər əhəmiyyətli mövqe tutduğunu göstərmək üçün təkcə onu qeyd etmək kifayətdir ki, onların ümumi uzunluğu 500 metrə çatır.

Abidənin daxilindəki yeganə bəzək ünsürü türbənin günbəzinin iç tərəfində yerləşdirilmiş dörd böyük qönçədir. Bu qönçələr dairəvi şəkildədir və içərisində nəbati naxışlı rəsmlər və son zaman aydınlaşdırılmış yazılar ornament şəklində yerləşdirilmişdir. Burada "Allah", "Məhəmməd, Əbu-Bəkr, Ömər, Osman, Əli" sözləri yazılmışdır. Abidənin memarı Əcəmi Naxçıvani tikintisi 11 il sürən (1175–1186-cı illər) türbənin üzərində belə bir beyt də yazmışdır:

**Biz gedirik, ancaq qalır ruzigar,**
**Biz ölürük, əsər qalır yadigar.**

8 əsrdən çox yaşı olan bu əzəmətli abidə bu zamanadək Naxçıvana gələn səyyah və tacirlərin diqqətini özünə cəlb etmiş və haqqındakı məlumatlar bir çox əsərlərdə öz əksini tapmışdır. XIX əsrin əvvəllərində Naxçıvana gələn fransız səyyah Dübua de Monper abidə ilə yaxından tanış olmuş, onun kitabələrinin üzünü çıxararaq Peterburqa, şərqşünas akademik Frenə göndərmişdir. O zamandan bəri müxtəlif alim və şərqşünaslar türbənin özü və kitabələri haqqında çoxsaylı əsərlər nəşr etdirmişlər.

Möminə xatun türbəsi sadəcə bir memarlıq incisi deyil – o, qadına göstərilən yüksək dəyərin, ehtiramın, sevgi və sədaqətin daşlaşmış nümunəsidir. Bu abidə vasitəsilə qadının cəmiyyətdəki mövqeyi, ailə və dövlət üçün əhəmiyyəti tarixə həkk olunmuşdur.

Türbə həm də Azərbaycan mədəniyyətində qadına verilən dəyərin əbədi simvoludur. Bu memarlıq abidəsinin üzərində yer alan kufi yazılar və "Qurani-Kərim"dən götürülmüş ayələr qadına verilən ruhani dəyərin göstəricisidir. Bu, qadının yalnız dünyəvi yox, eyni zamanda, ilahi bir dəyər daşıdığını simvolizə edir. Müasir dövrdə dünyada qadın hüquqları, qadına hörmət və gender bərabərliyi kimi məsələlərin aktuallığını nəzərə aldıqda, bundan 800 il əvvəl bir dövlət rəhbərinin həyat yoldaşının xatirəsinə belə bir şah əsəri ucaltması çoxəsrlik tariximizdə qadına verilən yüksək dəyərin dünyadakı ən təsirli sübutudur.

Doğrudur, bu gün həm Qərb, həm də Şərq memarlığında qadınların şərəfinə tikilmiş xeyli sayda abidələr mövcuddur. Amma bu abidələrin çoxu əsasən həmin qadınların (baxmayaraq ki, Möminə xatun da ağlı, diplomatik bacarığı ilə sarayda və el arasında böyük nüfuz sahibi olub) fərdi şəkildə siyasi, hərbi və ya sosial sahələrdə göstərdikləri qəhrəmanlığı, fədakarlığı və yaxud hansısa sahədə xidmətlərini əbədiləşdirmək məqsədilə inşa edilib.

Ümumiyyətlə, dünya memarlığında qadınların şərəfinə tikilən abidələr daha çox kraliçalar, müqəddəslər və dövlət xadimi olan qadınları təbliğ edir. Məsələn, Hatşepsut Kraliça Məbədi qədim Misirin ilk qadın fironu olan Hatşepsutun şərəfinə tikilmiş möhtəşəm məbəd kompleksidir ki, onun liderliyini və hakimiyyətini simvolizə edir. Və yaxud, Avstriyadakı Mariya Tereza abidəsi onun dövlətçilik fəaliyyətinə və siyasi irsinə həsr olunub. İspaniyadakı Birinci İzabella – Katolik Kraliça abidəsi onun dini və siyasi təsirini xatırlamaq üçün, Böyük Britaniyadakı Kraliça Viktoriya abidəsi Britaniya İmperiyasının ən uzun müddət hökmranlıq edən liderlərindən biri və onun rəhbərliyi dövründə baş verən sənaye, sosial və mədəni inkişafları simvolizə etmək məqsədilə inşa olunub.

Lakin Möminə xatun türbəsi bu ənənədən fərqlənir. Bu abidə bir qadının nə siyasi gücə, nə də hərbi qəhrəmanlığa sahib olduğu üçün deyil, onun Azərbaycan cəmiyyətindəki mental statusundan qaynaqlanaraq bir həyat yoldaşı, bir ana və bir mənəvi dayaq kimi daşıdığı dəyərləri özündə birləşdirir. Bu baxımdan, Möminə xatun türbəsi təkcə Şərq memarlığında deyil, bütün dünya mədəniyyətində nadir hallarda rast gəlinən bir fenomendir. Bu abidə Möminə xatunun timsalında Azərbaycan qadınının ruh, hiss və əxlaq ölçülərində ucaldır, onun ictimai funksiyasından çox varlığı ilə dəyərli olduğunu ortaya qoyur.

Etiraf edək ki, bu gün dünyada bir qadının şərəfinə tikilmiş ən cəlbedici tikili kimi Hindistandakı Tac-Mahal tanınır. Böyük Moğol hökmdarı Şah Cahanın sevimli həyat yoldaşı Mumtaz Mahalın şərəfinə tikdirdiyi bu əsrarəngiz kompleks əsasən mərmərlə örtülü, cənnəti simvolizə edən mükəmməl memarlıq ansamblı kimi diqqəti çəkir. Bəlkə, kimsə bunu qüsurlu hesab edə bilər, amma müqayisə təkcə forma və estetikaya əsaslanmamalıdır.

Hər ikisi Şərq abidəsidir, amma Tac-Mahal bir imperatorun öz arvadına olan sevgisini göstərən "imperial romantizm" nümunəsidirsə, Möminə xatun bir cəmiyyətdə qadın, ana müqəddəsliyinin fəlsəfi təcəssümüdür. Əgər Tac-Mahal romantik və estetik zirvədirsə, ondan 4 əsr əvvəl tikilmiş Möminə xatun qadın yüksəkliyinin daşlara həkk olunmuş tarixi yüküdür.

Nəzərə alaq ki, Tac-Mahalın tikildiyi XVII əsrin ortalarında artıq Hind-İslam memarlığı inkişaf etmiş mərhələdə idi. Böyük imperiyalar vardı, resurslar bol, sənətkarlar və memarlar yetkin idi. Amma XII əsrdə Möminə xatun türbəsinin inşası, yalnız Əcəmi təfəkkürünün gücünə əsaslanırdı. Və hər iki abidə bir qadının xatirəsinə tikilibsə də, biri imperiyanın gücünü, digəri isə bir xalqın və ailənin təməlini simvolizə edir. Ortaq xüsusiyyət isə budur ki, hər iki abidə sonradan bir çox memarlıq abidələrinin yaranmasında ilham mənbəyinə çevrilmişlər.

# "Xaraba Gilan" tarixdən baş qaldırır

**Naxçıvanın qədim şəhər mədəniyyəti izlərini özündə yaşadan tarixi yurd yerlərindən biri də Xaraba Gilandır. Ordubad şəhərindən 15-16 kilometr qərbdə, Gilançayın sol sahilində yerləşən bu qədim şəhər vaxtı ilə Azərbaycanın mühüm ticarət və sənətkarlıq mərkəzlərindən biri olub.**

Araşdırmalar nəticəsində məlum olub ki, burada şəhər mədəniyyəti ilk antik dövrün V–IV əsrlərində yaranmış, sonralar isə Şərqə doğru uzanan ticarət yollarının üzərində inkişaf edərək daha da dirçəlmişdir. Mənbələrə görə, böyük Azərbaycan alimləri Hinduşah Naxçıvani və Məhəmməd Naxçıvani bu şəhərdə doğulmuş və fəaliyyət göstərmişlər. Tədqiqatçılar Xaraba Gilan abidəsinin monqolların Azərbaycana yürüşü zamanı dağıdılmış Kiran şəhərinin qalıqları olduğunu müəyyənləşdirmişlər.

İbn əl-Əsir (XIII əsr), Yaqut Həməvi (XIII əsr), Zeynəddin Qəzvini (XIV əsr), Məhəmməd ibn Həmdullah Naxçıvani və başqalarının əsərlərində Gilanın Azərbaycanın qədim və əzəmətli şəhərlərindən biri olması haqqında məlumatlar var. Karvan yolu üstündə yerləşən şəhərdə sənətkarlıq, ticarət, əmtəə-pul əlaqələri geniş inkişaf etmişdi. Şəhərdə "Giran" adı ilə gümüş və mis sikkələr kəsilmişdir.

XIII əsrdə ciddi dağıntılara məruz qalan şəhər hələ tam bərpa olunmamış XIV əsrin sonlarında Əmir Teymur tərəfindən dağıdılmış, Səfəvilər sülaləsindən I Şah Abbasın hakimiyyəti dövründə isə tamamilə tənəzzülə uğramışdır. Bundan sonra şəhərin əhalisi Ordubad rayonunun indiki Aşağı və Yuxarı Aza, Darkənd kəndlərinə köçmüşdür.

Qədim şəhərin adının mənşəyinə gəldikdə isə, Xaraba Gilan adı orta əsr Kiran şəhəri 14-cü əsrin əvvəllərində zəlzələ nəticəsində dağıldıqdan sonra onun xarabalıqlarına yerli əhali tərəfindən verilən addır. "Gilan" sözünün etimologiyası haqqında müxtəlif fikirlər vardır. Bu söz "böyük", "möhtəşəm" (ibn əl-Əsir Həmdullah Qəzvini), "gilələrin yaşadığı yer" (A. Oleari), "gilli torpaq" (C. Rəfiyev), kadusilərin bir qolu olan "gellərin yaşadığı yer" (V Bartold) mənalarında izah edilir.

Xaraba Gilan ötən əsrin əvvəllərindən tarixçilərin diqqətini cəlb etmiş, burada ilk tədqiqatlar 1926-1929-cu illərdə aparılmışdır. 1976-cı ildən şəhər ərazisində başlanılmış arxeoloji tədqiqatlar isə fasilələrlə günümüzədək davam etdirilməkdədir. Hazırda isə burada AMEA





Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun antik və orta əsrlər arxeologiyası şöbəsinin müdiri, tarix elmləri doktoru, dosent Toğrul Xəlilovun rəhbərlik etdiyi ekspedisiya tərəfindən qazıntı işləri aparılır.

Bu il iyun ayının 2-dən burada qazıntı işlərinin aparılmasına başlanıldığını deyən Toğrul Xəlilov əvvəlcə bizi ərazi ilə tanış etdi. Bildirdi ki, buradakı şəhər xarabalıqları 100 hektardan artıq ərazini əhatə edir. Şərq tərəfdə, dağın üstündə Narınqala yerləşir. Təkcə Narınqalanın sahəsi 30 hektara qədərdir. Narınqalanın mərkəzi hissəsində qala qarnizonunun yerləşdiyi çoxlu kiçik otaqlardan ibarət kompleks, bir neçə iri həcmli kompleks və iki örtülü su anbarı yerləşir.

Narınqalaya yeganə giriş yolu şəhərin birinci və ikinci məhəllələrinin qalaya yaxınlaşdığı yerdədir. Şəhərin narınqalası və məhəllələri dairəvi, dördbucaqlı və altıbucaqlı planda bürcləri olan möhkəm müdafiə divarları ilə əhatə olunmuşdur. Məhəllələr arasındakı çökəkliklərdə karvansara, dəyirman, hamam və digər ictimai binalar yerləşmişdi. Şəhərin şimal tərəfi sıldırım qayalar olduğundan burada müdafiə divarlarına, istehkamlara və başqa müdafiə qurğularına ehtiyac olmamışdır.

Şəhərin müdafiə sistemində yaxınlıqdakı kiçik qalalar və gözətçi məntəqələri də mühüm rol oynamışdır. Şəhərin su ilə təchizatı isə əsasən Narınqalaya yaxın yerləşən ən böyük su anbarı vasitəsilə mümkün olmuşdur. Bura Düylünçaydan çəkilmiş arx vasitəsilə və yağış suları ilə doldurulurmuş.

Torğul Xəlilov bu il burada həyata keçirilmiş qazıntılar zamanı bir-çox maddi-mədəniyyət nümunələrinin aşkar olunduğunu bildirdi. Qeyd etdi ki, ekspedisiya müddətində Xaraba Gilan şəhərinin "İçəri şəhər" adlanan hissəsinə və Narınqalaya gedən giriş yolundakı qala qapısı aşkar olunub. Dairəvi və dördkünc formalı tikililər, 1 ədəd mis sikkə, keramika məmulatları, ocaq izi və heyvan sümüyünün qalıqları həmin dövrün araşdırılması üçün olduqca əhəmiyyətlidir.

Həmsöhbətimiz qazıntılar zamanı çox qiymətli bir kitabənin tapıldığını da bildirdi. Məlumat verdi ki, kitabə nəstəliq xəttilə yazılıb və 4 sətirdən ibarətdir. Toğrul Xəlilov ilkin təhlil zamanı daş kitabənin dördüncü sətrində Salur tayfasına məxsus damğa işarəsini aşkar etdiyini bildirdi. Arxeoloq Xaraba Gilan şəhər yerində tapılan ən unikal maddi-mədəniyyət nümunəsinin məhz bu daş kitabə olduğunu vurğuladı. Kitabənin tamamilə oxunması üçün buradakı yazıların yaxın vaxtlarda analiz olunacağını bildirdi.

Müsahibimiz qala divarlarından içəriyə giriş hissədə tağabənzər tikilmiş bölmədə yer səthindən kiçik bir oyuğu olan yer aşkar olunduğunu da bizə göstərir. Məlumat verir ki, Günəş şüalarından qorunmaq məqsədilə üzü Qərb tərəfə tikilmiş bu bölmə keçmiş zamanlarda qida məhsullarını saxlamaq üçün istifadə olunurmuş. Bir növ "soyuducu anbar" funksiyasını yerinə yetirən bu cür bölmələr şəhərin qala qapıları ətrafında keşik çəkənlər üçün nəzərdə tutulurmuş.

Ərazidə yeni aşkar olunmuş mühafizə divarları haqqında məlumat verən T.Xəlilov bildirdi ki, bu divarların hamısı daş, çiy və bişmiş kərpicdən tikilib. Hətta giriş hissədəki keçid divarında suvaq kimi istifadə olunmuş gəcin üzərindəki fərqli bir suvağın olduğunu göstərərək bu hissənin böyük ehtimalla sonradan təmir olunduğunu dedi. O, qısa müddətdə aparılmış qazıntılar zamanı buradan şirli və şirsiz qablar, şüşə və metal məmulatları tapıldığını da bildirdi.

Öyrəndik ki, ekspedisiyanın həyata keçirdiyi tədqiqat işlərində Naxçıvan Dövlət Universitetinin tələbələri də yaxından iştirak edirlər. Alim Naxçıvan tarixinin araşdırılması və öyrənilməsində "Arxeoloqların yay məktəbi" layihəsinin gənc tədqiqatçıların yetişməsində böyük rol oynayacağını qeyd etdi.

Ümumiyyətlə isə, bu gün Xaraba Gilanda aparılan arxeoloji qazıntılar tariximizin görünməyən qatlarının araşdırılması və maddi-mədəniyyət nümunələrinin aşkar edilməsi işinin, sadəcə, Naxçıvanın deyil, ümumilikdə, Azərbaycan tarixinin orta əsrlər dövrünün elmi əsaslarla öyrənilməsinə öz töhfəsini verəcək.

*Səhifəni hazırladı:*
***Səbuhi HƏSƏNOV,***
*XQ-nin Naxçıvan müxbiri*

# Görkəmli xanəndə Arif Babayev son mənzilə yola salınıb



**Avqustun 1-də Beynəlxalq Muğam Mərkəzində Xalq artisti, muğam sənətinin görkəmli nümayəndəsi Arif Babayevlə vida mərasimi keçirilib.**



Mərhumun cənazəsi Beynəlxalq Muğam Mərkəzinin matəmsayağı bəzədilmiş səhnəsində postament üzərinə qoyulmuşdu.

Postamentin ətrafına Azərbaycan Prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva, dövlət və hökumət təşkilatları adından əklil düzülmüşdü.

Muğam sənətinin görkəmli nümayəndəsi Arif Babayevin həmkarları, dostları, tanınmış mədəniyyət, incəsənət və elm xadimləri, deputatlar, mərhumun sənətinin pərəstişkarları Muğam Mərkəzinin binasına gələrək unudulmaz sənətkara son borclarını verirdilər.

Vida mərasimini mədəniyyət naziri Adil Kərimli açaraq Arif Babayevin zəngin həyat və yaradıcılıq yolundan danışıb. O, böyük sənətkarın Azərbaycan muğam məktəbinin inkişafında və tanıdılmasında göstərdiyi misilsiz xidmətləri vurğulayıb. Bildirib ki, Arif Babayevin ifası və sənətə olan yanaşması nəinki milli musiqimiz də, ümumən mənəviyyatımızda dərin izlər buraxıb.

Nazir qeyd edib ki, Arif Babayev öz sənəti ilə, sadəcə, muğamı deyil, bütöv bir musiqi fəlsəfəsini yaşadıb. Onun muğama gətirdiyi yeniliklər və ən əsası da tələbələrə ötürdüyü ustadlıq dərsləri bu gün muğam sənətimizin əsas dayaqlarından birinə çevrilib.

"Arif Babayevin itkisi bizim üçün çox ağırdır, amma yaratdığı irs, yetişdirdiyi tələbələr və könüllərdə qoyduğu izlər onu daim yaşadacaq", – deyə nazir əlavə edib.



Azərbaycan Milli Konservatoriyasının rektoru Kamilə Dadaş-zadə çıxış edərək Arif Babayevin milli musiqi mədəniyyətimizin inkişafında oynadığı əvəzsiz roldan, onun böyük ustad kimi gənc ifaçılar nəslinin yetişməsindəki misilsiz xidmətlərindən danışıb. O, Arif müəllimin sənət irsinin konservatoriyada və ümumilikdə, Azərbaycan musiqisində daim yaşadılacağını vurğulayıb.

Arif Babayevin Azərbaycan muğam sənətinə bəxş etdiyi böyük töhfələrdən danışan Xalq artisti Mənsum İbrahimov bildirib ki, o, yalnız görkəmli ifaçı deyil, həm də əsl ustad, sənət məktəbi yaradan, neçə-neçə sənətkarın yolunu işıqlandıran şəxsiyyət idi.

Mənsum İbrahimov vurğulayıb ki, Arif Babayevin yaratdığı sənət irsi tükənməz xəzinədir və o, öz ifaları, yetirmələri və insani keyfiyyətləri ilə hər zaman xatırlanacaq.

Xalq artisti Vamiq Məmmədəliyev dərin kədərini ifadə edərək bu gün danışmağın onun üçün çox ağır olduğunu söyləyib: "Arif Babayev mənim yaxın dostum idi. Biz bir yerdə çox çörək kəsmişik, uzun illər çiyin-çiyinə işləmişik. Onunla aramızda böyük səmimiyyət, dostluq və sənət bağları var idi. Arif müəllim Xan Şuşinski məktəbinin layiqli davamçısı idi. Bu sənəti yaşatmaq, onu gələcək nəsillərə ötürmək asan deyil – o, bu çətin və şərəfli missiyanı böyük məsuliyyətlə yerinə yetirirdi".

Bütün iştirakçılara təşəkkürünü bildirən Xalq artistinin oğlu Yaşar Babayev deyib: "Atam bu dünyadan xoşbəxt getdi. Ömrünün son günlərində ona göstərilən sonsuz sevgi, diqqət və qayğı Arif Babayev üçün böyük mənəvi dayaq oldu. O, xalqının sevgisini hiss edərək əzizlərini, doğmalarını, dostlarını, tələbələrini ətrafında görərək bu dünyaya vida etdi".

Xalq artisti Arif Babayevin cənazəsi Beynəlxalq Muğam Mərkəzinin binasından qaldırılaraq Fəxri xiyabana gətirilib. Burada mərhumun ruhuna dualar oxunub. Əziz xatirəsi xalqımızın qəlbində yaşayacaq böyük sənətkar Arif Babayevin cənazəsi doğma torpağa tapşırılıb. Məzarı üzərinə əklillər, gül dəstələri düzülüb.

Allah rəhmət eləsin!

*XQ*

# Milli musiqimizin ağır itkisi

**Görkəmli sənətkar Arif Babayevlə vida mərasimində ümumxalq hüznü və ehtiramı ilə əbədiyyətə yola salınan Xalq artisti barədə aldığımız qısa müsahibələri təqdim edirik.**

**Adil Kərimli, mədəniyyət naziri:**

– Səhər saatlarında aldığımız xəbər hər kəsi və mədəniyyət ictimaiyyətini kədərləndirib. Bu, mədəniyyətsevərlər üçün ciddi itkidir. Arif Babayev xəstəliyi ilə bağlı müalicə alırdı və onun müalicəsi Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqətində idi.

Tale elə gətirdi ki, o, bu gün bizimlə vidalaşdı. O, xalqımızın ürəyində daim yaşayacaq. Biz artıq xarici ölkələrdən başsağlıqları alırıq. Biz də bütün ictimaiyyətə başsağlığı veririk. Arif Babayevin xatirəsi daim yaşayacaq.

**Orxan Fikrətoğlu, mədəniyyət nazirinin müşaviri, yazıçı-jurnalist:**

– Elə insanlar var ki, onlar böyük bir epoxanı təmsil edirlər. Arif Babayev bizim səhnəmizin əvəzolunmaz Məcnunlarından biri idi.

Arif Babayevin qəlblərə ötürdüyü sənət yaşandıqca, yeni nəsil də onu unutmayacaq, Azərbaycan mədəniyyətinə, muğamına verdiyi töhfələrə görə daim yad olunacaq. Arif Babayev muğam sənətində ikinci nəfəs verən, onun dirçəlməsinə xidmət edən ustaddır. Qarabağ muğam məktəbinin görkəmli nümayəndəsidir. Onun xatirəsi əbədi yaşayacaq. Biz vida mərasimində sənət cameəsi olaraq borcumuzu əlbəttə, ödəməliyik.

**Mənsum İbrahimov, Xalq artisti:**

– Arif Babayev sağlığında əfsanəyə çevrilmiş, böyük bir məktəb yaratmış sənətkar, xalqın qəlbində özünə heykəl ucaldan şəxsiyyət idi. Arif müəllim hamımızın ustadı olmuşdu. Yüzlərlə tələbə yetişdirmiş, muğam sənətinə misilsiz töhfələr vermişdi. 35 ildən artıq Opera və Balet Teatrında fəaliyyət göstərərək baş rollarda çıxış etmişdi.

Onun xidmətləri əvəzsizdir – muğam sahəsində elə bir irs qoyub gedib ki, bu miras nəsillərlə yaşayacaq. Təkcə sənətkar yox, həm də böyük bir ictimai xadim idi.

**Nəzakət Teymurova, Xalq artisti:**

– Arif müəllim, demək olar ki, bütün sahələrə əl atmışdı. O həm xanəndəlik, həm opera sənəti, həm də pedaqoji fəaliyyət sahəsində böyük xidmətlər göstərib. Hara baxırsan, onun izi, onun kölgəsi var. Bu gün xalq artistləri, əməkdar artistlər arasında Arif müəllimin tələbələri çoxdur. O, sadəcə bir müəllim yox, bir şəxsiyyət idi. Biz onu sevdik, onunla qürur duyduq. Onun məsləhətləri, zarafatları, həyat dolu yanaşması bizim üçün çox dəyərli idi. Allah ruhunu şad eləsin.

*Hazırladı:*
*Tahir AYDINOĞLU*
*XQ*

**Vida sözü**

# Sənət Arifliyinin əbədiyyət ünvanı

**Xalqı üçün dəyərli və gərəkli insanlar illər keçdikcə daha da təcrübəli, faydalı olurlar. İllər onların yetkinliyini artırdıqca cəmiyyətdə qədir-qiymətləri də yüksəlir. Əfsus ki, günlərin birində amansız ölüm ömrünü xalqa xidmət yolunda şam kimi əritmiş bu insanları sıralarımızdan qoparıb əbədiyyətə aparır.**



Görkəmli musiqi ifaçısı və pedaoqu, muğam və mahnılarımızın mahir ifaçısı Arif Babayevin 87 yaşında dünyasını dəyişməsi bizə bu amansız həqiqəti bir daha xatırlatdı. Arif müəllimin sənətinin vurğunu və tədqiqatçısı, onunla illər uzunu sıx təmasda olmuş, dostluq etmiş bir qələm sahibi kimi mən bu itkini daha dərindən hiss edir və hədsiz dərəcədə kədərlənirəm. Nə yaxşı ki, milli musiqi ifaçılığımızın ustad xanəndəsi və öyrədicisi, insanlıqda da arif olan Arif Babayevin mədəniyyət tariximizdə əbədiyyət qazanan sənəti bizə onun zəngin irsini ərməğan edib.

Arif Babayevin ömür yolu mənalı, sənət yolu məhsuldar və zəngin olub. 1938-ci ilin 20 fevralında Qarabağın musiqi beşiyi Ağdamda anadan olmuş müğənni ilk sənət addımlarını Ağdam Dövlət Dram Teatrında atıb. 1960-cı ildən başlayaraq, Arif Babayevin yaradıcılıq yolu Bakı şəhəri ilə bağlı olub. O, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində ixtisas təhsili aldıqdan sonra Dövlət Filarmoniyasında, Opera və Balet Teatrında çalışıb. İstedadlı sənətkar Seyid Şuşinski, Xan Şuşinski, Zülfi Adıgözəlov kimi sənətkarların ənənələrinə əsaslanaraq özünəməxsus ifaçılıq üslubu yaradıb.

Arif Babayev XX əsrin ikinci yarısında Qarabağ xanəndəlik məktəbinin yetirdiyi istedadlı xanəndə kimi tanınıb. Onun yaradıcılığında "Şur", "Segah" muğam dəstgahları, "Arazbarı", "Qarabağ şikəstəsi" zərbi muğamları xüsusi yer tutur. Onun ifasında səslənmiş muğam dəstgahları lentə alınaraq AzTV Fondunda saxlanır. Arif Babayev muğam operalarında Məcnun, Kərəm ("Leyli-Məcnun", "Əsli və Kərəm"), Aşıq Qərib ("Aşıq Qərib"), Camal ("Gəlin qayası") rollarını məharətlə oynayıb.

Ünlü sənətkar ustad musiqi pedaqoqu kimi Bülbül adına Orta İxtisas Musiqi Məktəbində, Azərbaycan Dövlət Konservatoriyasına muğam müəllimim olub. Xalq artisti, professor Arif Babayev Milli Konservatoriyanın muğam kafedrasının müdiri olub, eyni zamanda, Xəzər Universitetində də muğam dərsi verib.

Arif müəllim sağlığında danışırdı ki, bir dəfə tanış səs eşidib, ayaq saxlayıb. Eşitdiyi ifanı əvvəlcə özününkü sayıb. Diqqət eləyəndə görüb ki, ifa tərzi onundur, oxuyan başqasıdır. O, özü də ustad muğam ifaçılarını belə incəliklə izləmiş, onlardan çox şey öyrənmişdi.

Bir xanəndə kimi Arif Babayevin istedadı çox tez parlamışdı. Ağdamda və Bakıda konsertləri böyük uğurla keçmişdi. Nə idi bu uğurun səbəbi? Gənc müğənninin bu qədər tez şöhrətlənməsi nə ilə bağlı idi? Nə üçün tamaşaçılar, dinləyicilər onun konsertlərinə bu qədər maraq göstərirdilər?

Səbəb çox idi. Artıq görkəmli muğam ifaçıları yaşa dolmuşdular və Arif Babayev də belə bir vaxtda sənət meydanına çıxmışdı. Yox, səbəb təkcə bu deyildi. Səbəblərdən, bəlkə də, ən birincisi Arif Babayevin fitrətən xanəndə olması idi. Onun boy-buxunu, oturuşu-duruşu və bu kimi müsbət keyfiyyətlərinin zirvəsi olan şirindən şirin səsi idi. Təbiət Arifə səs verəndə ondan heç nəyi əsirgəməmişdi. Səsi zilli, bəmli vermişdi. Bir də Arif müəllimin sənətkar kimi xoşbəxtliyi onda idi ki, əlinə qaval aldığı gündən öz yolu, öz nəfəsi, öz guşəxanlığı, öz dəst-xətti var idi. O, bir xanəndə kimi yaşlı sənətkarların sənətindən çox şey öyrənmişdi, amma səsi, ifası onların təkrarı deyildi. Bu səsin öz axar-baxarı, qövsi-quzehi, öz gülşəni, öz çeşməsi var idi.

Müğənni öncə muğamat və xalq mahnılarının mahir ifaçısı idi. Yaxından tanıyanlar bilirlər ki, onun təbiəti də, istedadı da xalq ruhuna köklənmişdi. Hələ sovetlər dövründə, televiziya və radionun bunc inkişaf etmədiyi çağlarda Arif Babayevin səsi radiodan eşidiləndə yoldan keçənlərin ayaq saxlayıb onun səsinə necə aludəliklə qulaq asmalarının şahidi olmuşam. Tanıyan, tanımayan da Arifdən, onun məlahətli səsindən danışardı. O günlərdən illər keçdi, çox dəyərlər dəyişdi, yaş üstünə yaş gəldi, amma Arifin səsi dəyişmədi, ona olan xalq məhəbbəti tükənmədi.

"Oxuyur Arif Babayev!". Elə bil yaddaşımız diktorun bu elanına bənddir, o saat yaddaşımızın "səs mücrüsü"nün "qızıl qapağı" açılır, gözəgörünməz "səs patefonumuz"un valı fırlanır və biz Arif Babayevin ifasında muğamlara, təsniflərə, el mahnılarına qulaq asırıq. İnsan yaddaşı artıq "yük" götürmür. O, hər xanəndənin səsini öz "mücrüsünə" qəbul eləmirdi.

Xanəndənin səsi ürəyimizin ən dərin hisslərinə toxunur. Çünki Arif Babayev "Segah" nəfəsli xanəndə idi. O, nə oxuyur-oxusun, "Segah"dan ilmələr atmağı, naxışlar vurmağı, avaz, nəfəs işlətməyi sevirdi. Mahir ifaçı nə oxuyubsa, ürəkdən oxuyub. Müğənninin respublika televiziya və radiosunun fonotekasında saxlanan muğam ifalarına, təsnif, el nəğmələrinə qulaq asanda onun səsi, nəfəsi bizə bahar çiçəkləri kimi təzə-tər gəlir. Xanəndənin ifasında dönə-dönə qulaq asdığımız muğamları, təsnifləri təkrar-təkrar dinləməkdən usanmırıq.

Muğam, mahnı, təsnif ifaçısı kimi Arif Babayev klassik xanəndəlik sənətimizin ən layiqli davamçılarından idi. Zaman-zaman oxunan, büllurlaşan, yaddaşlara həkk olunan el nəğmələrinin ifasında təzə nəfəs, şirin xırdalıqlar, yeni ovqat gətirmək hər xanəndəyə nəsib olmur. Arif Babayev həmişə ürəyinə yatan xalq mahnılarını seçib oxuyurdu. "Yar bizə qonaq gələcək", "Apardı sellər Saranı", "Yaxan düymələ", "Qəmərim"... kimi mahnılar onun ifasında daha şux, daha oynaq, daha yaddaqalandır.

Arif Babayev Fransada, İsveçrədə, İtaliyada, Danimarkada, ABŞ-da, Türkiyədə, İranda, Livanda, ərəb ölkələrində və daha neçə-neçə xarici ölkələrdə xalq musiqimizin təbliğatçısı olub. Arifin səsi adamı çıraq pərvanəni özünə çəkən kimi çəkir. Elə bil, zərif bir pıçıltıya qulaq asırsan. O, oxuduqca, sanki sakit-sakit qar yağır və o qar bizim ruhumuza qəribə bir bəyazlıq gətirir.

Arif Babayevin sənət ömrü Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında keçib. O, 1966-cı ildən 2006-cı ilə kimi Opera və Balet Teatrının solisti olub, bir aktyor-müğənni kimi bu qocaman sənət məbədində püxtələşib. O, Məcnun obrazının mahir ifaçısı kimi həmişə tamaşaçıların, musiqiçilərin diqqətini cəlb edib. Hər dəfə Arif Babayevin ifasında Məcnunun ariyalarını dinləyəndə qəlbimiz riqqətə gəlir. Çünki Arif Babayevin səsi böyük filosof aşiqin iç dünyasının ən incə, bakir duyğularını bizə bütün əlvanlığı, bütün gözəlliyi ilə çatdırır. Bu mənada, Arif Babayevin Məcnunu yaşarıdır, yaddaqalandır. İstedadlı bir opera müğənnisi kimi Arif Babayevin Məcnun obrazına məhəbbəti sonsuz idi.

Arif Babayev həmişə sənətinin fövqündə idi. Adı, şöhrəti ölkəmizin sərhədlərini çoxdan aşıb. O, professor elmi adını almış ilk muğam ifaçısı idi, həm də pedaqoq-xanəndə idi. İstedadlı gənclərimizin əksəriyyəti onun tələbəsi olmağa can atırdı. Bütün bunlar həm də Arif Babayevin səsinə, onun ifaçılıq üslubuna sevgidən irəli gəlirdi. Bu barədə söz düşəndə Arif müəllim deyirdi ki, hər bir sənətkar öz bildiyini gənc nəslə öyrətməlidir. Bu, onun borcudur. Tələbəmin uğuru bir müəllim kimi həm də mənim uğurumdur.

Cəsarətlə demək olar ki, bu gün Arif Babayev təkcə doğma Azərbaycanımızın deyil, böyük türk dünyasının, bütün Şərqin sevilib-seçilən xanəndəsi idi. Arif müəllimin bənzərsiz səsi, mahir ifası, zəngin irsi və sənət arifliyi onu həmişə bu zirvədə tanıdacaq, sevdirəcək.

**Allah rəhmət eləsin!**

*Mustafa ÇƏMƏNLİ,*
*Əməkdar mədəniyyət işçisi*

*2 Avqust Azərbaycan Kinosu Günüdür*

# Həyatın canlı aynası



**Milli kino işçilərinin peşə bayramı ilə əlaqədar Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti, Dövlət mükafatı laureatı, "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenli Rasim Balayevlə görüşüb, ekran sənətimizin dünəni, bugünü və sabahı ilə bağlı söhbət etdik. Müsahibəni oxuculara təqdim edirik.**

**– Rasim müəllim, əvvəla bayramınızı təbrik edirik. Düz 25 il əvvəl Ulu öndərin sərəncamı ilə Azərbaycan Kinosu Günü təsis olunub. Milli ideologiyamızın, mədəniyyətimizin, mənəvi dəyərlərimizin təbliğində Azərbaycan kinosunun danılmaz xidmətləri olub. Deyə bilərikmi ki, milli ekran sənətimizin işıqlı dünəni olduğu kimi, dolğun bugünü və ümidli sabahı da var?**

– Sağ olun. Kinomuzun tarixi 125 ildən çoxdur. Dünya kinosunun yaranma tarixindən çox da geri qalmayan Azərbaycan kinosu 1898-ci ildə ilk addımlarını atmağa başlayıb, 125 illik zəngin və keşməkeşli yol keçərək xalqımıza böyük bir irs buraxmışdır. Əvvəllər 1915-ci ildə İbrahim bəy Musabəyovun "Neft və milyonlar səltənətində" romanı əsasında eyni adlı ilk Azərbaycan bədii filminin, 1916-cı ildə Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettası əsasında ilk Azərbaycan kinokomediyasının çəkilməsi əsas götürülürdü. Sonra araşdırmalar aparılaraq müəyyən olundu ki, Azərbaycan kinematoqrafının tarixi 1898-ci il avqustun 2-dən başlayır. İlk filmlər fransız fotoqraf və nasir Aleksandr Mişonun çəkdiyi xronika süjetləri – "Bibiheybətdə neft fontanı yanğını", "Balaxanıda neft fontanı", "Şəhər bağında xalq gəzintisi", "Qafqaz rəqsi" və "İlişdin" bədii kinosüjet olub. İttifaqımız bu faktı dəstəkləyib və Ulu öndər də təsdiqləyərək avqustun 2-ni Kino Günü elan edib.

Bu gün deyə bilərəm ki, bizdən asılı olan və olmayan səbəblər üzündən ötən əsrin 90-cı illərinin əvvəllərindən Azərbaycan kinosu tənəzzül etdi. Yadımdadır ki, 6 il, ümumiyyətlə, film çəkilmədi. Halbuki, ona qədər bizdə hər il 8 film – dövlət sifarişi ilə 4, Mərkəzi televiziyanın sifarişi ilə də 4 film – çəkilirdi. Yaradıcı insanlar, rejissorlar, operatorlar, aktyorlar hey işləyir, yaradırdılar. SSRi-nin dağılması ilə bu birdən-birə kəsildi. Etiraf edək ki, ona qədər sovetin pis-yaxşı sistemi vardı. Yenisi düşünülmədi və hələ də müəyyən mənada bunun altını çəkirik.

Amma Azərbaycan kinosunun yaxşı ənənələri olub. Demək olmaz ki, bu gün artıq kinomuz öz relsinə düşüb, hər halda güman var ki, Mədəniyyət Nazirliyi, Kino Agentliyi kimi qurumlar, yəni bilavasitə kinonu idarə edənlər tədricən buzu əridirlər. Məncə, tam dirçəlişin zamana ehtiyacı var. Bir neçə illər lazımdır ki, tənəzzüldən tamamilə çıxaq. Sənətkarlar dünyalarını dəyişsələr də, sənət yaşayır. İctimai-siyasi formasiyaların dəyişməsi həmişə ağrılı olub, bir çox sahələr kimi, mədəniyyətə də mənfi təsir edib. Buna baxmayaraq, biz nikbinik. Nazirlik və Kino Agentliyi inkişaf tendensiyalarını reallaşdırmaqla ciddi məşğul olurlar. İnanıram ki, yaxın gələcəkdə hər şey qaydasına düşəcək.

**– Dövlət başçısının "Azərbaycanda kino sənətinin inkişaf etdirilməsi haqqında" 2007-ci il 2 fevral tarixli sərəncamı milli kinomuzun maddi-texniki bazasının möhkəmləndirilməsini nəzərdə tuturdu. Bununla bağlı Azərbaycan kinosunun inkişafına dair dövlət proqramı da qəbul olunmuşdu. Bütün bunlar kəmiyyətlə bərabər, keyfiyyətə də təsir edibmi?**

– Sözsüz. Amma nəzərdə tutulan bəzi işlər tam görülmədi. Məsələn, kinostudiyanın əsaslı təmiri, köhnə texniki avadanlıqların dəyişdirilməsi tam reallaşmadı. Təbii ki, Qarabağ münaqişəsi də buna öz təsirini göstərmişdi. Çünki əsas prioritet torpaqlarımızın azad edilməsi idi. Bax, belə çətinliklər vardı. İndi isə, torpaqlarımız alınandan sonra geniş bərpa-quruculuq işləri aparılır. Əminəm ki, bu yenilənmələr Azərbaycan kinosundan da yan keçməyəcək.

**– İttifaqdakı struktur birləşməsindən sonrakı ab-hava necədir?**

– Əlbəttə, struktur birləşməsi işin xeyrinə idi. Amma, yadınızdadırsa, o ərəfələrdə bəzən mətbuatda çox lazımsız söhbətlər, qarşıdurma yaratmağa cəhdlər də olurdu. Bu gün isə birləşən kollektivdə ab-hava çox yaxşıdır. Hər kəs öz işi ilə məşğuldur. Nizamnaməmizə uyğun çalışırıq. Bəzən kimlərsə deyirlər ki, bu ittifaq sovetdən qalma təşkilatdır, bağlanmalıdır. Amma, yaradıcı səylərin dəstəklənməsi, yönəldilməsi baxımından heç də gərəksiz deyil. Bizdə digər yaradıcılıq birlikləri də var və özlərini doğruldurlar. Sizə deyim ki, mən xaricdə olanda da maraqlanmışam, orada da yaradıcıların birliyi formaları var. Xaricdə buna gildiya deyirlər: aktyorların, rejissorların gildiyaları fəaliyyət göstərir. Bunun ümumi işə heç bir ziyanı yoxdur, əksinə, buranın əksəriyyət təşkil edən üzvləri öz təcrübələri ilə sənətin inkişafına xidmət edirlər. Düzdür, ittifaq kino çəkə bilmir, amma tövsiyələrmizlə, təkliflərimizlə, layihələrimizlə nazirliyə, agentliyə kömək edirik. Sırf nizamnaməmizə uyğun olaraq fəaliyyət göstəririk, jurnalımız çıxır, saytımız var, əlaqələndirici işlər aparırıq.

**– Onilliklər bindan əvvəl kinonun təbliği və təşviqi daha canlı idi. Görüşlər, təqdimatlar daha çox olurdu...**

– Bəli, o başqa zaman idi. İndi yeni filmlərin müzakirəsi səngiyib. Bəzən kino çəkilir, amma müəyyən səbəblərdən tamaşaçı üzü görmür. Bir də görürəm, kimsə məndən soruşur ki, film çəkmirsiniz? Cavab verirəm ki, çəkirik, amma onlayn platformalar-filan olduğu üçün birbaşa ünsiyyətlər az olur. Əlbəttə, kimsə çəkdiyi filmi hətta beynəlxalq festivallara da çıxarır və mükafat da qazanır. Sadəcə, hələlik istədiyimiz kimi, təbliğ edə bilmirik. Zamanla bu da düzələr.

**– Rasim müəllim, siz demişkən, canlı ünsiyyət formalarına ehtiyac var. Bu baxımdan AKİ-nin "Bölgələrdə kino günləri" layihəsi təqdir edilməlidir. Bir neçə yerdə uğurla keçib, filmlər nümayiş etdirilib, yaradıcılarla tamaşaçıların görüşləri təşkil olunub. Bundan başqa, Laçında "Hoçazfilm" studiyasının yaradılması nümunəsi var. Elə bu yaxınlarda Xətai rayonunda sizinlə yaddaqalan görüş olub. Bundan başqa, "Kino həftəsi"nin açılışı maraqla qarşılanıb. Bütün bunlar kino ilə insanların arasında yaranmış boşluğu aradan qaldırmaq üçün atılan addımlar kimi təqdirəlayiqdir.**

– Elədir. Qeyd edim ki, Xətaidəki görüşdən bir az əvvəl Cəmşid Naxçıvanski adına Hərbi Liseydə də maraqlı görüşümüz oldu. Mən orada dedim ki, gələn dəfə bura yeni filmin premyerası ilə gəlməyi arzu edirəm.

**– Yəqin ki, o film 44 günlük Zəfər yürüşü haqqında olar...**

– Çox istərdim. Buna böyük ehtiyac var. Bilirsiniz, İkinci Dünya müharibəsi haqqında ən yaxşı filmlər 10–15 il sonra hasilə yetib. Hələ o zaman operatorlar ön xəttə ezam olunub, bilavasitə döyüşləri çəkib, bəzən yaralanıblar da. Yəni bu da zamana ehtiyacı olan məsələdir. Amma müharibənin ekranda bədii inikası vacibdir. Bu, mütləq olmalıdır və bizim mənəvi borcumuzdur. Təkcə qələbə eyforiyası deyil, müharibələrin insan həyatına mənfi təsiri, sülhün zəruriliyi də əks olunan bədii filmlər çəkilməlidir. Böyük sənət bunu tələb edir. Məncə, yaxın gələcəkdə bu da olacaq.

**– Dünyaya çıxış nə yerdədir? Kinoçular üçün ingilis dili kurslarının hədəfi nədir? Yeri gəlmişkən, son Kann festivalında ilk dəfə olaraq sizin sayt qeydiyyatdan keçib və operativ məlumatlar verib.**

– Zamanın çağırışları ilə ayaqlaşmaq vacibdir. Xarici dil kursları xarici həmkarlarla əlaqələr baxımından vacibdir. Əlimizdən gələn qədər çalışırıq buna nail olaq.

**– Prezident İlham Əliyev "Azərbaycan Respublikasının ərazisində kinematoqrafiya əsərlərinin və digər audiovizual əsərlərin istehsalı ilə bağlı bəzi məsələlər haqqında" 2025-ci il 29 may tarixli sərəncam imzalayıb. Bu sənədə əsasən, Nazirlər Kabineti 4 iyul tarixli qərarı ilə kinematoqrafiya əsərlərinin və digər audiovizual əsərlərin istehsalı üçün çəkilmiş xərclərin qismən geri ödənilməsi qaydalarını təsbit edib. Bu barədə nə deyə bilərsiniz?**

– Keçmişdə prokat sistemi vardı. Hər bir film, hətta ən zəif saydığımız filmlər də xərcini qat-qat artıqlaması ilə çıxarırdı. Çünki kino bütün SSRİ ərazisində yayılırdı. İndi isə hərə öz qazanında qaynayır. Kino işçilərinin vəzifəsi çox çətinləşib. Gərək elə filmlər çəkəsən ki, itirdiyin tamaşaçını yenidən tapasan. Bax, xarici ölkələrdəki seyrçilər kütləvi şəkildə gedib kinoteatrlarda baxırlar, özü də bəzən bizimkindən də zəif olan filmlərə. Çünki ora bir ab-hava, aura yeridir. Filmlər mütləq qaydada elə olmalıdır ki, xərclərinin müəyyən hissəsi geri qayıtsın.

Düzdür, bizim yerlərdə prokatımız, yayım imkanlarımız çox balacadır. Son 20-30 ildə bölgələrdəki kino-teatrlar köhnəlib, ləğv olunaraq ticarət obyektinə çevriləni də var. Olub-qalan avadanlıqlar da tələbatı ödəmir. Artıq müasir, modern zallar olmalıdır, yaxşı filmlər olmalıdır ki, camaatı cəlb edə bilsin. İnşallah, öhdəsindən gələrik.

**– Bu da bir tarixdir ki, düz yarım əsr əvvəl ulu öndər Heydər Əliyevin göstərişi ilə Azərbaycanda tanınmış sənət adamlarının iştirakı ilə "Dədə Qorqud" bədii filmi çəkilib. Siz də o filmdə Bamsı Beyrək obrazı ilə yadda qalmısınız. Düzdür, ondan əvvəl "Nəsimi" filmində, daha 3 il sonra isə "Babək" filmində baş rollarda ifanızla Azərbaycan kinosuna monumentallıq gətirmisiniz. Seyrçilərin yaddaşında böyük, yenilməz şəxsiyyətlərin mahir ekran təfsirçisi kimi layiqli yer tutmuş, şöhrətinin zirvəsində vüqarla dayanmış və 6 gün sonra 77 yaşı tamam olacaq Rasim Balayev kinoda rol üçün darıxmırmı? Rejissor və ssenaristlərdən gəzləntiləri varmı?**

– Yaralı yerimə toxundunuz. Son 25 ildə cəmi 2 filmə çəkilmişəm. Biri Hüseyn Cavid, digəri isə Mirzə Fətəli Axundov haqqındadır. Amma daha öncələr bu sahədə fəaliyyətim qat-qat məhsuldar idi. Həm burada, həm Orta Asiya respublikalarında, həm də xaricdə tez-tez çəkilirdim. Kinoda fəaliyyətimin 50–55 ilinin, təəssüf ki, yarısı boşuna gedib. Özü də bu, püxtələşəndən, təcrübəmi artırandan sonra baş verdi. Yaxşı filmlərə tələbat var. İndi seriallar-filan çəkilir, amma əksəri sənət əsəri deyil. Mən də 1–2-sinə çəkildim, amma sonra özüm-özümü danladım ki, getmə belə filmlərə. Səviyyə o deyil.

Əlbəttə, kino çəkilişi üçün çox darıxmışam. Yaxşı bir film olsaydı, ömrümün bu ahıl çağında, təbii ki, həvəslə çəkilərdim... Bax, son 2–3 onillikdə 20–25 filmə çəkilə bilərdim və ən azı, 5–6-sı tamaşaçı rəğbəti qazanar, sevilərdi.

**– Şübhəsiz.**

– Təsəllim budur ki, ötən əsrin 70–90-cı illərində daim başım sırf çəkilişlərə, dublyaja qarışıq olub və ortaya nəsə çıxıb. Mən bilən, çətinliklər tezliklə arxada qalacaq və kino xadimləri də gözəl əsərlər yaradacaqlar.

**– Rasim müəllim, Azərbaycan Kinosu Günü ərəfəsində AKİ ənənəvi olaraq mükafatlandırma keçirib və fərqlənən kinoçuların fəaliyyətini stimullaşdırıb. Bu barədə nə deyərdiniz?**

– Bəli, AKİ katibliyinin qərarına əsasən, bu il üçün AKİ-nin ənənəvi mükafatına Pərviz Həsənov "Başlıbel – bir kəndin mühasirə gündəliyi" tammetrajlı sənədli filminin uğurlu rejissor həllinə görə, Daniel Quliyev "Kinomexanikin qayıdışı" və "Tənha insanın monoloqu" filmlərinin uğurlu vizual həllinə görə, Səbuhi Atababayev "Tağıyev: Neft" və "Bəlkə də" tammetrajlı bədii filmlərində uğurlu rəssam işinə görə və Fehruz Şamıyev beynəlxalq film festivallarının təşkili, kinematoqrafiyamızın beynəlxalq əlaqələrinin inkişafında xidmətlərinə görə layiq görülüblər. Hər birini təbrik edirəm! Sizin verdiyiniz bu fürsətdən də istifadə edərək AKİ-nin bütün üzvlərinə, kino sənayesində çalışan hər kəsə və eləcə də bütün kinosevərlərə bu gün münasibətilə ən xoş arzularımı çatdırıram!

*Müsahibəni hazırladı:*
***Əli NƏCƏFXANLI***
***XQ***

# Rəqəmsal xidmətlərə çıxış hüququ

**Azərbaycanlı hüquq tədqiqatçıları Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin icraçı direktoru Samir Mahmudov, Hüquq və İnsan Haqları İnstitutunun İdarə Heyətinin sədri Məhəmməd Quluzadə xaricdə nəşr edilən "Danish Scientific Journal"da "Rəqəmsal xidmətlərə çıxış hüququ – yeni insan hüququ kimi" məqaləsi ilə çıxış ediblər.**

Yazıda rəqəmsal xidmətlərə çıxışın ayrıca bir insan hüququ kimi tanınması təklif edilir. Müəlliflərin fikrincə, hazırda süni intellekt, e-hökumət sistemləri və bir sıra digər texnoloji yeniliklərin insan həyatına təsiri o qədər yüksəkdir ki, onlardan istifadə təmin edilmədən fundamental insan hüquqlarının səmərəli həyata keçirilməsi mümkün deyil. Bu baxımdan, müvafiq texnoloji yeniliklərdən istifadəni təmin edən rəqəmsal xidmətlərə çıxış imkanı universal dəyər daşımaqla, insan hüquqlarının tərkib hissəsinə çevrilir. Bu isə öz növbəsində həmin xidmətlərə çıxış hüququnun yalnız şəxsin vətəndaşı olduğu dövlətdə deyil, istənilən ölkədə təmin edilməsini zəruriləşdirir.




Bu ideya hazırda beynəlxalq müstəvidə də aktualdır. Birləşmiş Millətlər Təşkilatı dövlətləri texnologiyanın imkanlarından istifadə edərək zəruri dövlət xidmətlərini insanlara daha əlçatan etməyə çağırır. Avropa İttifaqı isə artıq "Rəqəmsal şəxsiyyət cüzdanı" və "Rəqəmsal xidmətlər aktı" kimi hüquqi çərçivələrlə bu prosesə dəstək verir. Qeyd edilən hüquqi çərçivələr vasitəsilə vətəndaşlar və rezidentlər Avropa İttifaqının ərazisində onlayn şəkildə həm dövlət, həm də özəl sektorun göstərdiyi rəqəmsal xidmətlərə çıxış əldə edə bilirlər.

Müəlliflər ekstraterritoriallıq prinsipini dərindən təhlil edərək, daha bir cəsarətli təşəbbüs – Texnoloji-hüquqi stansiya (THS) adlı rəqəmsal platformaların yaradılması təklifini irəli sürürlər. Bu stansiyalar xarici ölkələrdə və ya internet üzərindən fəaliyyət göstərərək, vətəndaşların, sanki, öz ölkələrinin içində imiş kimi, dövlət xidmətlərinə çıxışlarını təmin edə bilər. THS-lər fiziki kabin və ya tam onlayn sistem kimi təşkil oluna bilər. Burada istifadəçi öz şəxsiyyətini rəqəmsal olaraq təsdiqləyir, ödəniş edir, sənədləri təqdim edir və rəsmiləşdirmə prosesini tamamlayır.

Ölkəmizin rəqəmsallaşma sahəsində əldə etdiyi nailiyyətlər, həmçinin ASAN xidmət, DOST xidməti və digər vətəndaş yönümlü təşəbbüslərin məntiqi davamı olaraq "rəqəmsal xidmətlərə çıxış"ın ayrıca insan hüququ kimi tanınmasını təklif edən hüquq tədqiqatçılarımızın bu sahədə apardıqları araşdırma və verdikləri təkliflər gələcəkdə yeni – mühüm əhəmiyyət kəsb edən bir sistemin bünövrəsini qoya bilər.

***Qabil YUSİFOĞLU***
***XQ***

*Təqvim yada salır*

**Doğum tarixləri Azərbaycan Kinosu Günü qeyd olunan aralara düşən bir neçə kino xadimimiz var. Belə ki, rejissor və kinoşünas Ayaz Salayev avqustun 1-də, Fəxrəddin Manafov avqustun 2-də, mərhum Məmmədrza Şeyxzamanov isə avqustun 4-də dünyaya göz açıblar.**

# Kino xadimlərinin yubileyləri

### Məmmədrza Şeyxzamanov – 110



1915-ci ildə Gəncədə doğulub. Aktyorluq sənətinə olan maraq və həvəs isə hələ məktəb illərində öz "toxumlarını səpməkdə" idi. Ona görə də orta məktəbdə oxuya-oxuya teatr studiyasına daxil olub.

1934-cü ildə C.Cabbarlı adına Gəncə Dövlət Dram Teatrlının rejissoru Həbib İsmayılovun təklifi ilə teatra gələn gənc Məmmədrza ilk dəfə Ə. Həmidin "Hind qızı" tamaşasında Brahma adlı kiçik rolda çıxış edir. Bu, gələcək aktyorun peşəkar teatr səhnəsinə, sənət zirvəsinə doğru aparan yolda atdığı ilk uğurlu addımı olur. Teatrda işləyərkən peşəkar yaradıcılıq tələblərinə uyğunlaşır, milli aktyorluq sənətinin gözəl ənənələrini mənimsəyir.

1954-cü ildə aktyor M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrında işə başlayıb. O vaxtdan sənət yolundakı "yaşıl işığı" daha da gur yanıb.

Daha 1 il sonra o, böyük ekrana çıxıb. "Bəxtiyar" filmində Rəcəbov, "Qızmar günəş altında"da Alı kişi, "Leyli və Məcnun"da Dərviş, "Bir qalanın sirri"ndə həkim Eldostu, "Onu bağışlamaq olarmı?"da polkovnik Qurbanov, "Qatır Məmməd"də Gəncə qubernatoru, "Nəsimi"də Şeyx Əzəm kimi obrazlar yaradıb. "Əhməd haradadır"dakı Şirin kişi, "Tütək səsi"ndəki İsfəndiyar kişi və digər rollarda böyük ustalıqla obrazlar yaradıb. Gözəl sənətinə görə Xalq artisti fəxri adına və Dövlət mükafatına layiq görülüb.

Məmmədrza Şeyxzamanov 1984-cü il yanvarın 25-də 68 yaşında vəfat edib.

### Fəxrəddin Manafov – 70



Xalq artisti Fəxrəddin Manafov Xankəndidə çoxuşaqlı ailədə anadan olub. Bir müddət sonra isə ailə Bakıya köçüb. Sovet ordusunda hərbi xidmətdən sonra İncəsənət Universitetini bitirib.

İlk vaxtlar Aktyor Evi və Yuğ Teatrında çalışan F.Manafov sonra kinostudiyada aktyor kimi filmlərə çəkilib. "Evləri köndələn yar", "İşgüzar səfər", "Park", "Şeytan göz qabağında", "Ölsəm, bağışla", "Təhminə", "Otel otağı", "Dronqo", "Qraf Krestovski", "Əlvida, cənub şəhəri", "Hökmdarın taleyi", "Sübhün səfiri", "Mahmud və Məryəm" kimi ekran işlərində iştirak edib. Aktyora ən böyük uğuru isə "Ölsəm, bağışla və "Təhminə" filmlərindəki rolları gətirib.

Fəxrəddin Manafov 2006-cı ildən Prezidentinin fərdi təqaüdçüsüdür. Bu il TÜRKSOY-un "Türk dünyasının ən yaxşı teatr aktyoru" nominasiyası üzrə mükafatına layiq görülüb. Bir neçə aydır ki, Fəxrəddin Manafov Azərbaycan Respublikası Kino Agentliyinin Müşahidə Şurasına üzv təyin edilib.

### Ayaz Salayev – 65



Məşhur kinoşünas, Azərbaycan televiziyasında populyar "Retro" verilişinin sevimli aparıcısı Ayaz Salayev Bakıda anadan olub. Moskvada Ümumuittifaq Dövlət Kinematoqrafiya İnstitutunun kinoşünaslıq fakültəsində təhsil alıb. Ayaz Salayev 1983–1985-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasında və "Azərbaycanfilm"də çalışıb. Moskvada aspiranturada oxumaqla bərabər, "Müasir film" fənnindən dərs deyib. 1995-ci ildə çəkdiyi "Yarasa" filmi bir sıra ölkədə keçirilən 30-a yaxın müsabiqədə iştirak edib. Film Beynəlxalq Avropa kinosu festivalında Qran-priyə və digər nüfuzlu mükafatlara layiq görülüb.

Ayaz Salayev 2000-ci ildə Azərbaycan kino sənətinin inkişafındakı xidmətlərinə görə Əməkdar incəsənət xadimi fəxri adına layiq görülüb. Hazırda "Azərbaycanfilm" kinostudiyasının baş redaktorudur.

***Ə.ƏLİYEV***
***XQ***

*"Xalq qəzeti" üçün*

# Azərbaycanın parlaq uğur hekayəti

## *III Şuşa Qlobal Media Forumu barədə düşüncələr*

**Mənim Azərbaycanla ilk tanışlığım bu ölkədə ötən ilin payızında uğurla keçirilən qlobal COP29-la bağlı olub. Heç ağlıma gəlməzdi ki, həmin ilk təmas Azərbaycana qarşı məndə dərin bir maraq oyadacaq, nəhayət, məni III Şuşa Qlobal Media Forumu üçün tarixi Şuşa şəhərinə gətirəcək.**



### Şuşa: tarix və müasirliyin qovuşduğu məkan

III Şuşa Qlobal Media Forumuna qatılmaq məqsədilə Azərbaycana qayıtmağım, bu qədim ölkənin zəngin tarixinə və rəngarəng mədəniyyətinə dərindən bələd olmaq üçün əla bir fürsət oldu. Bəlli idi ki, bu, sıradan bir media konfransı deyil. Texnoloji təminat əla idi, logistika qüsursuz təşkil olunmuşdu. İştirakçıların qlobal media məsələlərinə dərindən nüfuz etmələri üçün də hər bir cizgi düşünülmüşdü.

İştirakçılar həm qlobal media çağırışlarını müzakirə etmək, həm də Şuşanın tarixi əhəmiyyətə malik məkanlarını kəşf etmək imkanına malik idilər. Mədəni proqramlar və yüksək səviyyəli hökumət rəsmiləri ilə keçirilən görüşlər qonaqpərvər mühit yaratmışdı.

Bu yanaşma mükəmməlliyin təcəssümüdür. Özünü daha dərindən tanıtmaq istəyən bir çox ölkələr Azərbaycanın təcrübəsindən nümunə götürə bilər. Azərbaycan təkcə bir media forumuna ev sahibliyi etmədi. Qonaqların ölkənin uğur hekayəti, dəyərləri və məqsədləri ilə səmimi şəkildə tanış olmalarına şərait yaratdı. Mədəni diplomatiyanın bu strateji yanaşması effektiv ölkə brendinin həqiqi anlaşma və uzunmüddətli təəssürat yaratmaqdan ibarət olduğunu nümayiş etdirdi.

### Davamlılıq rəmzi

Şuşa haqqında məni ən çox təsirləndirən məqam onun milli iradənin canlı simvolu olaraq daşıdığı güclü rəmzi mənası oldu. Bu şəhər bir millətin işğaldan sonra necə yenidən yüksələ, hərtərəfli şəkildə bərpa oluna və öz irsini dönməz qətiyyət, birlik və uzaqgörən liderliklə geri qaytara biləcəyinin misilsiz nümunəsidir. Bu hekayət sülhə, bərpaya və suverenliyin yenidən qazanılmasına doğru irəliləyən bir çox Afrika ölkələri üçün gözəl nümunədir.

Şuşanın məscidlərinin, musiqi ənənələrinin və abidələrinin bərpası sadəcə fiziki yenidənqurma deyil. Bu, bir kimliyin dirçəlişidir. Afrikalı müşahidəçi olaraq mən bu prinsipi dərindən hiss etdim, çünki mədəniyyətin bərpasının həqiqi suverenliyin bünövrəsi olduğunu yaxşı bilirəm.

Bu anlayış Afrika İttifaqının 2025-ci il üçün qəbul etdiyi "Afrikalılar və Afrika mənşəli insanlar üçün ədalət: təzminatlar vasitəsilə" mövzusu ilə mükəmməl şəkildə üst-üstə düşür. Bu mövzu 2026–2036-cı illəri əhatə edəcək onillik bir hədəf halına gətirilib.

### Media savadlılığı və informasiya təhlükəsizliyi

Panel müzakirələrimiz media savadlılığı və onun informasiya təhlükəsizliyindəki vacib rolu ətrafında cəmlənmişdi. Ortaq razılıq vardı ki, düzgün informasiya yayımı təkcə medianın deyil, həm də hökumətlərin və özəl sektorun, xüsusilə sosial media platformalarının birgə səyləri ilə təmin olunmalıdır.

Çünki dezinformasiya bu platformalarda düzgün məlumatdan daha sürətlə yayılır. Bu müzakirələr mediada çalışan peşəkarların üzləşdiyi ümumbəşəri çağırışları və bu problemlərin bütün sektorlarda nizamlanmasının vacibliyini önə çıxardı.

### Prezidentin liderliyi

Azərbaycan Prezidenti cənab İlham Əliyevin forum çərçivəsində media ilə qarşılıqlı səmimi münasibəti məni xüsusilə təsirləndirdi. Onun yanaşması həssas və açıq idi – heç bir suala qadağa yox idi. Prezidentin hər bir suala şəffaf şəkildə cavab verməsi qeyri-adi bir liderlik nümunəsi oldu. Bu pozitiv nümunə təkcə media ilə qarşılıqlı münasibətlə məhdudlaşmır, eyni zamanda özündə Azərbaycanın ümumi inkişaf tarixçəsini ehtiva edir.

Prezident İlham Əliyev Qarabağın yenidən qurulmasında yalnız fiziki deyil, həm də emosional və strateji cəhətdən şəxsən iştirak edir. Onun bu missiyaya bağlılığı göstərir ki, aydın milli təəssübkeşlik və qətiyyətli liderlik birləşəndə yüksək nailiyyətlər əlçatan olur. Uğurlu inkişaf güclü və məqsədyönlü liderliklə başlayır.

### İnkişaf və tərəqqinin mənzərəsi

III Şuşa Qlobal Forumu Azərbaycanda baş verən inkişaf və tərəqqinin əhatəli mənzərəsini təqdim etdi. Texnoloji irəliləyişlərlə mədəni irsin qorunmasının ahəngdar şəkildə inteqrasiyası, yalnız infrastrukturun deyil, eyni zamanda milli kimliyin yenidən qurulmasına olan sədaqət və qlobal media çağırışlarına açıq şəkildə yanaşma – bütün bunlar keçmişinə hörmətlə yanaşaraq gələcəyə inamla addımlayan bir xalqın dərindən anlaşılması və qəbul edilməsii üçün zəmin yaratdı.




Bütövlükdə, Şuşa Qlobal Media Forumu bir ustad dərsi idi. Azərbaycan sübut etdi ki, effektiv ölkə brendi yaratmaq sadəcə parlaq şüarlar və təmtəraqlı təqdimatlar deyil. Bu, dünyaya ölkənin həqiqi xarakterini hiss etdirmək üçün imkanlar yaratmaqdır.

### Afrika və digər regionlar üçün dərslər

III Şuşa Qlobal Media Forumunda qazandığım təcrübə uğurlu milli inkişafın universal prinsiplərini bir daha təsdiqlədi: uzaqgörən liderlik, mədəni irsin bərpası, inklüziv tərəqqi və imkanlarla yanaşı, çağırışları da açıq şəkildə qarşılaşmaq cəsarəti.

Azərbaycanın Şuşada əks olunan parlaq nümunəsi inkişaf və bərpa istiqamətində səylərini davam etdirən Afrika ölkələri üçün dəyərli dərslər təqdim edir: qətiyyət, birlik və strateji çağırışları zəfərə çevirmək bacarığı!

Forum təkcə qlobal media ilə bağlı mühüm məsələləri müzakirə etmədi, eyni zamanda Azərbaycan adlı bir ölkənin öz tarixi irsinə necə hörmətlə yanaşaraq gələcəyini qurmaq qabiliyyətini nümayiş etdirdi. Afrikanın davamlı inkişafına və güclənməsinə sadiq olan bizlər üçün Şuşa həm ilham mənbəyi, həm də ideallarla qətiyyətin qovuşmasının praktik nümunəsidir.

***Zipporah MAUBANE,***
***Afrika İttifaqının İnkişaf Agentliyinin kommunikasiya meneceri,***
***(JAMBO AFRİCA online)***

*Şirin duyğular*



# Torpağın dadı...

**Ömrümün uşaqlıq illərini kəndimizdə keçirmişəm. Yaxşı yadımdadır, o vaxt atam kolxozun bağ-bostan sahələrində işləyirdi. Hərdən məni də özü ilə bağa, bostana aparırdı. Orada bol meyvə-tərəvəz vardı. Alma, armud, ərik, şaftalı, gilas, üzüm, qarpız, yemiş və s. Hərəsi də öz mövsümündə yetişirdi. Allahın ən gözəl nemətləri, barlı budaqlardan adama gəl-gəl deyirdi.**

Mən bağ-bostan uralandıqdan sonra sahəyə getməyi daha çox xoşlayırdım. Baxırdım ağacda nə çiçək, nə də bar görünür. Amma üzümlüklərin arası ilə getdikcə görürdüm ki, salxımlar meynələrdəcə kişmişə dönüb. Bir də payızda tənək yarpağını tökənə qədər yarpaqların altında sükuta bürünüb "gizlənmiş" qora salxımları təkəm-seyrək gözə dəyirdi. Mən qora salxımları yığıb yeməkdən ləzzət alırdım. Həmin qora üzüm salxımları payızın son ayına, bəzən qışın ilk ayına kimi, üstünə qırov düşənə qədər qalırdı. Qora salxımların turşaşirin dadı mənə xoş gəlirdi. İndi şəhərdə ağ şanı, qara şanı üzümləri üstünlük təşkil etsə də, dadından doymadığım qora salxımları gündüzlər çıraqla gəzsən də tapa bilməzsən. Həm də o qora salxımlardan yaxşı abqora düzəldirdilər.

... O yerlərin təbiəti, qeyri-adi gözəllikləri məni özünə çəkirdi. Təbiət yaşıl donunu geyəndə, yaşıl örpəyinə bürünəndə ilk bahar ürəkdə dil açıb dinirdi. Orada çalışan, əzmi mətanət, dəyanət dolu mehriban zəhmət adamları ilə tanış, dost olduqca onlara daha çox bağlanırdım. Ürəyi məhəbbət, hərarət dolu, süfrədə çörəyi bərəkət dolu zəhmət adamlarını deyirəm. İllər keçsə də, onların zəhmət nəğməsi heç vaxt xəyalımdan getmir:

**"A torpaq, ortaq olaq,**
**Dözümü səndən olsun,**
**Bərəkəti Tanrıdan,**
**Zəhməti məndən olsun."**

Bu, ürəyimdə ömürlk nəğməyə dönüb. Bunları düşündükcə, ağac əkmək, bağ salmaq həvəsim artırdı. Mən böyüdükcə həvəsim də böyüyürdü. Zaman keçdikcə bu həvəs ürəyimdə ülvi bir istəyə, arzuya çevrildi. Şəhərdə özümün balaca bir bağım olmasını arzulayırdım. Amma uzun illər o arzuya çatmaq mənə qismət olmurdu. Nəhayət, illər keçdi, uşaqlıq arzumun yerinə yetirilməsi üçün bir yol açıldı.

Yaşadığımız evin eyvanından baxanda zibillik poliqonuna çevrilmiş daşlı-kəsəkli ərazini görəndə ürəyim ağrıyırdı. İllərdən bəri kimin əlinə yararsız bildiyi nə keçmişdisə, ora atmışdı. O tullantıların altında torpaq için-için göynəyirdi, can verirdi elə bil.

Balalarımı başıma yığıb günlərlə, aylarla zibillik poliqonunu təmizlədik. Təmizləndikcə torpaq cana gəlirdi, nəbzi döyünürdü, nəfəs alırdı ana torpaq. Bilən bilir, bilməyənlər də bilsin ki, Vətən torpağının hikməti böyük olduğu kimi, tamı da gözəl olur...

Şumlayırsan, altını üstünə çevirirsən. Üst-başından torpaq tamı gəlir. Əkib-becərdiyin qara torpaq üz ağardır. Bir zamanlar mən torpağa sadəcə qara torpaq deyirdim. Anam qoynuna köçəndən sonra qara torpağa "anam torpaq" deyirəm.



Alın tərin torpağa qarışanda torpaq dilə gəlir. Torpaq deyir ki, əz məni, əzizləyim səni. Torpağı əkməsən, becərməsən səndən gileylənər. Gül-çiçək əkərsən, meh əsər, ətrini ətrafa yayar. Üzünə mehdən güllərin qoxusu çilənər, könlün açılar. Ağaclar çiçək açanda ömür-gün də gülür. Ana torpaq gül ətri qoxuyur.

Əkdiyin ağacların kölgəsi düşəndə elə bilərsən ki, ömrünə gün doğur. Xəyalında canlandırdığın yaşıl ağaclar qol-budaq atır.

...Tullantılardan təmizlədiyimiz ərazidə bir qarış torpağı qənimət sayıb rəngbərəng güllər, hər növ meyvə ağacları əkdik. Əkdiyimiz ağacların, güllərin hər gün nazını çəkməsəydik ağaclar, güllər umu-küsü edərdi. Könül umduğu yerdən küsür, axı!

Əkdiyim torpağın qoynunda hənirtini duyduqca qəlbim sevincə bürünürdü. Hər gün işdən sonra evə getməmiş, əvvəl bağçamıza baş çəkirdim. Elə bilirdim ki, məni gül çağırır, çiçək səsləyir. Əkdiyimiz gül bağçasına elə bil, xalılar döşənmişdi. Xallı kəpənəklərin çiçəkdən-çiçəyə qonduğuna baxdıqca baxıb zövq alırdım. O xalı çəmənlikdə xallı kəpənəklərin zərif gözəlliyinə tamaşa edib, sonra da çəmənlikdə uzanıb dincimi alırdım. Gərgin işləyib bağ becərəndə bir hovur dincini almasan, yorğunluğa canmı dözər, ürəkmi tablayar?!

Aylar, fəsillər ötüşür, bir-birini əvəz edir. Hər ayda, hər fəsildə torpağın mövsümə uyğun qayğıları var. Yaşıl aylarda çəkdiyin əziyyətin ağırlığı xınalı payızda canından çıxar. Zəhmətin bağların şirin barına dönəndə elə bilərsən dünyanı sənə bağışlayırlar. Doğru deyiblər ki, torpaqda izi olanın süfrədə üzü olar.

Bağçamızdan ayrılıb gedəndə əkdiyim ümid ağacları arxamca əl edirdi. Üzüm çardağımızı ağuşuna alan tənəklər qolboyun olub başımızın üstündə salxımlı çətir yaradıb. Bu, bağçamıza xüsusi gözəllik verir. Bağdan çıxıb şəhərə gələndə qədim yaşayış evlərinin qabağında yerdən fışqırıb binanın üst mərtəbələrinin eyvanlarından asılan ağlı-qaralı slxımlara baxdıqca baxıram. Ağ-qara şanılar qol-qola tutub gözəl mənzərə yaradıb. Baxanda öz-özünə inana bilimirsən, elə sanırsan ki, şirin bir yuxu görürsən. Şairi bu mənzərə ilhama gətirib. Ona görə də götürüb belə yazıb:

**Qabarlı əllərin ehtiramını**
**Aynaya çəkməyə səhərlər gələr.**
**Bu doğma torpağın alar tamını,**
**Yerin alt qatından üst mərtəbələr.**

**Gecə işıqları axar şəhərə,**
**Qranit divarlar dözüm qaldırar.**
**Tənəklər yuxarı mərtəbələrə**
**Qıvrıla-qıvrıla üzüm qaldırar.**

İlləri yola salmış üzüm tənəkləri də evlərin eyvanlarına xüsusi gözəllik verir. Yaşıllıqlar, rəngbərəng güllər, çətirli, çardaqlı yamyaşıl kölgələr ana torpağın bağrından doğulur.

Bu səmimi düşüncələrimi qələmə almağa vəsilə olan müqəddəs torpağımızın tamıdır. Köklər torpağın dərinliklərindən su içəndə ağaçların yaşı əsrlərə çatır.

Ana torpağın tamında ağrını-acını unutduran bir hikmət, bir güc var. Ona ürəkdən bağlanan, onu sevə-sevə əkib becərən bağbanı bağların şipşirin barı dindirər. Bu da bəlli...

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

# Kosmosda qucaqlaşma, yerdə dartışma

## *ABŞ – Hindistan münasibətlərinin ziddiyyətli trayektoriyası*

**İyulun 30-da Hindistanın cənub-şərq sahillərində yerləşən kosmodromdan NASA və Hindistan Kosmik Araşdırmalar Təşkilatı (ISRO) tərəfindən birgə hazırlanan NISAR peyki uğurla orbitə buraxıldı. Bu peyk Yer səthində cəmi 1 santimetrlik yerdəyişmələri belə qeydə almağa qadirdir. Məlumatlar vulkan püskürmələri, zəlzələlər və torpaq sürüşmələri kimi təbii fəlakətlərə qarşı qabaqlayıcı tədbirlər üçün istifadə olunacaq. Bundan başqa, subasmalar, buzlaqların əriməsi, torpaq rütubəti və əkin sahələrinin monitorinqi də mümkün olacaq. NASA-nın "indiyədək ən güclü radar sistemli" peyki adlandırdığı NISAR həm elm, həm də fövqəladə hallarla mübarizə baxımından böyük potensiala malikdir. Bu missiya Hindistanın elm və texnologiya sahəsindəki gücünü nümayiş etdirməklə yanaşı, ölkənin qlobal kosmik tədqiqatlar arenasında strateji tərəfdaş kimi rolunu möhkəmləndirir.**



Lakin kosmosdakı tərəfdaşlıq fonunda yer üzündə baş verən iqtisadi və siyasi qarşıdurmalar ABŞ – Hindistan münasibətlərini mürəkkəb bir müstəviyə daşıyır. ABŞ Prezidenti Donald Tramp yenidən vəzifəyə başladıqdan sonra Hindistanla ticarət münasibətlərində ciddi dəyişikliklər baş verəcəyinə işarə etmişdi. Hindistanın Baş naziri Narendra Modi Trampın andiçməsindən dərhal sonra Vaşinqtona səfər etmiş, yüksək tariflərə dair danışıqlara ümid bəsləmişdi. Lakin bu səfərdən altı ay keçməsinə baxmayaraq, gözlənilən saziş hələ də imzalanmayıb.

ABŞ avqustun 1-dən etibarən Hindistandan idxal olunan mallara 25 faizlik gömrük rüsumu tətbiq etməyi planlaşdırır. Bu qərar yalnız Hindistana deyil, onlarla başqa ölkəyə də şamil oluna bilər. Ancaq Hindistanın fərqi ondadır ki, bu ölkə həm dünyada əhalisinə görə birinci yerdədir, həm də ABŞ-ın əsas ticarət tərəfdaşlarından biridir. İki ölkə arasındakı ticarət dövriyyəsi 2024-cü ildə, təxminən, 130 milyard dollar təşkil edib. İqtisadi baxımdan Hindistan ABŞ-dan asılılığını artırsa da, Vaşinqton da Dehli ilə əməkdaşlığı uzun illərdir inkişaf etdirməkdə maraqlıdır. Xüsusən də Çinlə qlobal güc balansında Hindistanın mövqeyi ABŞ üçün mühüm strateji dayaqdır.

Bununla belə, Tramp administrasiyasının ticarət siyasəti Hindistanın siyasi və iqtisadi ambisiyalarını çətin duruma salır. Əgər ABŞ-la ticarət əlaqələri zəifləyərsə, Hindistan Çinə qarşı qurulmuş koalisiyalarda tərəddüd edə bilər. Siyasi mütəxəssislər bunun ABŞ-ın Hindistanı "anti-Çin cəbhəsi"nə cəlb etmək planlarını zədələyə biləcəyindən ehtiyatlanırlar.

Eyni zamanda, ABŞ-ın Rusiya ilə gərgin münasibətləri Hindistanın enerji və hərbi asılılığını sual altına qoyur. Prezident Tramp avqustun 8-nə qədər atəşkəs əldə olunmasa, Rusiya neftinə 100 faizlik tarif tətbiq etməklə hədələyib. Rusiya neftinin əsas alıcılarından biri olan Hindistan ciddi iqtisadi zərbə alacaq. İndiki mərhələdə Hindistan balanslı xarici siyasətini qorumağa çalışır: bir tərəfdən Qərblə – xüsusilə ABŞ-la – strateji əməkdaşlıq, digər tərəfdən isə Rusiya və region ölkələri ilə tarixən formalaşmış münasibətlər qurmağa can atır. Lakin belə siyasət artıq Vaşinqtonu razı salmır.

Kosmik əməkdaşlıq Hindistanın texnologiya sahəsində reputasiyasını yüksəldir, lakin iqtisadi sanksiyalarla üzləşmək riski onun regional və qlobal liderlik ambisiyalarını zəiflədəcək. Hindistan bu balansı qoruyub saxlamaqla həm öz iqtisadi maraqlarını, həm də beynəlxalq nüfuzunu itirməməyə çalışır. İndiki mərhələdə əsas sual budur ki, Dehli ABŞ-ın ticarət təzyiqləri fonunda Çinlə münasibətlərini balansda saxlaya, Rusiyadan enerji asılılığını azalda və eyni zamanda, regional liderlik iddialarını davam etdirə biləcəkmi?

***Səbuhi MƏMMƏDOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 159 (30853) 2 avqust 2025-ci il, şənbə

# Yay nəfəsi, dağ havası...

## *Hacıkənd gəncəlilərin yay seyrəngahıdır*



**Elə ki, iyulun, avqustun istisi Gəncənin daşlarını qızdırdı, asfalt nəfəsalmaz oldu, bir yer var ki, gəncəlilər ora üz tuturlar. Ora nə Xəzər sahilidir, nə də xarici kurort... Ora Hacıkənddir – Gəncənin göz bəbəyi kimi sevdiyi, nəfəsi kimi ehtiyac duyduğu yaylaq.**

Səhərin ilk işığı ilə avtomobillər yola düzəlir. Gəncədən cəmi 23 kilometr məsafə... Amma sanki hava da, zaman da, həyat da dəyişir bu yolda. Küləklə dolu sərt dağ döngələrindən keçənlər Hacıkəndin ilk nəfəsini aldıqda anlayırlar: yay artıq buradadır, istidən qaçış yalnız bura qədər mümkündür.

Bu dağ kəndi təbiətin bəxş etdiyi nadir guşələrdəndir. Qədim ağacların kölgəsi, bulaqların şırıltısı, Göygöl Milli Parkına aparan yollar, al-əlvan güllərlə örtülü yamaclar – hər şey dincəlmək istəyən insanı qucaqlayır.

Hacıkənd təkcə yaşıllıq və təbiət deyil, həm də canlı bir həyat tərzidir. Kimi çay qırağında yerini möhkəmlədir, kimi meşə içində ailəsi ilə dincəlir. Hardasa bir samovar tüstüləyir, yaxınlıqdan kababın ətri gəlir. Kimisi portativ stollarla, kimisi çadırla gəlib.

Yol boyu "özəl məkanlar" da az deyil. Torpaq sahəsi olanlar gəlib-gedənə kölgəli masa, samovar, hətta yelləncək və quzu ətindən kabab bişirmək imkanı təklif edir. Qiymətlər də münasibdir – bir gün üçün yer kirayəsi, çaynik, şiş, samovar, hətta manqal daxil olmaqla 30-50 manat arası. Yəni ailəvi istirahət üçün ideal şəraitdir.



Kababxanalar da artıb. Əvvəllər tək-tük idi, indi isə Hacıkənd–Göygöl yolu boyunca onlarla istirahət guşəsi var. Kabab, kətə, ayran, təndir çörəyi, bal, pendir təklif edən bu məkanlar həm qonaqpərvərliyi, həm də təbiətə uyğun sadəliyi ilə seçilir. Amma onu da qeyd etməliyik ki, bəziləri üçün Hacıkənd artıq bir növ "kabab rayonu"na çevrilib.

Gələnlərə kətə, ayran, bal təklif edən kənd qadınları da yay aylarının ayrılmaz obrazına çevrilib. Əllərində sinidə dağ məhsulları ilə yol kənarında dayanıb, alıcılara gülümsəməklə yanaşırlar. Kimsə deyir:

– Xamalı kətə al, bala, indicə hazırlamışam!

İsti təndir çörəyi, bal bankaları, pendir, yay qonaqlarının alış-veriş səbətini doldurur. Bu səhnələr kənd bayramı ab-havası yaratmaqla yanaşı, bir növ, yay bazarına çevrilib.

Rəsmi qeydiyyat olmasa da, yerli müşahidələrə əsasən, iyul və avqust aylarında Hacıkəndə gündəlik 3–5 min nəfərdən çox adam gəlir. Həftə sonları isə bu rəqəm 8–10 minə çatır. Tıxaclar, dolu istirahət yerləri, park edilmiş onlarla avtomobil bu marağın göstəricisidir.

Unutmayaq ki, Hacıkənd təkcə istirahət deyil, həm də tarixdir. Çar dövründən qalma dəmir yolu stansiyası, alman və rus kolonistlərinin saldığı bağlar bu gün də durur. İndi o stansiyanın ətrafında uşaqlar oynayır, nənələr palaz sərib günə çıxır, gənclər buludların şəklini çəkirlər.

Hacıkənd gəncəlilər üçün yay nəfəsi, sərin dağ kölgəsi, təbiət qoynunda bir sığınacaqdır. Bu yol təkcə dağlara yox, həm də keçmişə, nostaljiyə, istirahətə açılır.

Amma gəlin, bu yolu və bu təbiəti təmiz saxlayaq – çünki Hacıkənd bir günlük deyil, gələcək nəsillər üçün qorunmalı bir dəyərdir.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***
***Foto: Rövşən ƏMİRASLANOĞLU***

**Gəncə**

## İDMAN

### Avropa birinciliyində üçüncü olduq



**Azərbaycanın ağırlıqqaldırma üzrə komandası İspaniyanın paytaxtı Madriddə keçirilmiş U-15 Avropa birinciliyində üçüncü yeri tutub. Bu barədə mətbuata Azərbaycan Ağırlıqqaldırma Federasiyasının mətbuat xidmətindən məlumat verilib.**

Qitəmiqyaslı yarışda Musab Məmmədtağıyev, Lətif Əliyev və Muhəmmədəli Məmmədzadənin qazandığı 3 qızıl və 4 gümüş medal sayəsində Azərbaycan komandası İspaniya, Polşa, Bolqarıstan kimi kollektivləri qabaqlayıb.

### "Sabah"ın rəqibi "Levski"dir



**Avropa Liqasının II təsnifat mərhələsində Moldovanın "Petrokub" komandasına iki oyunun nəticəsinə əsasən 6:1 hesabı ilə qalib gələn "Sabah" növbəti raundda "Levski" (Bolqarıstan) ilə qarşılaşacaq.**

Qeyd edək ki, bolqarıstanlı futbolçular II təsnifat mərhələsində Portuqaliya təmsilçisi "Braqa" ilə üz-üzə gələrək iki oyunun nəticəsinə əsasən (0:0, 0:1) uduzub. Bununla da "Levski" Konfrans Liqasında "Sabah"a rəqib olub.

### Viktor Osimhen 4 il "Qalatasaray"da



**İstanbulun "Qalatasaray" klubu İtaliyanın "Napoli" klubunun nigeriyalı futbolçusu Viktor Osimhenin transferini başa çatdırıb. Futbolçu ilə 4 illik müqavilə imzalanıb. "Qalatasaray" Osimhen üçün 75 milyon avro ödəyib və bu, Türkiyə çempionatının yeni rekordu olub.**

Viktor Osimhenin 26 yaşı var, o, ötən mövsümü icarə əsasında "Qalatasaray"da keçirib. Forvard klubda müxtəlif turnirlərdə 41 oyun keçirib, 37 qol vurub və 8 məhsuldar ötürmə edib. Futbolçu 26 qolla Türkiyə çempionatının bombardiri olub.

***M.HACIXANLI***
***XQ***

## Şəmkirdə ana dili sevgisi




**Şəmkirdə 1 Avqust - Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü ilə əlaqədar "Heydər Əliyev və Azərbaycan dili" adlı toplantı təşkil olunub.**

Rayon icra hakimiyyəti və Qazax-Tovuz Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən toplantıda qeyd edilib ki, Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü ümummilli lider Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli fərmanına əsasən təsis edilib.

Azərbaycan əlifbası kimi, dilinin də hərtərəfli inkişafı, onun rəsmi dövlət dili statusu alması, beynəlxalq münasibətlər sistemində dünya diplomatiyasına yol açması məhz Ulu öndərin adı ilə bağlıdır. Ana dilimizi qorumaq üçün mühüm addımlar atan ümummilli lider Heydər Əliyevin siyasi xətti Prezident İlham Əliyev tərəfindən inamla və uğurla davam etdirilir.

Tədbir çərçivəsində məktəblilərin ifasında ana dilimizə həsr olunan şeirlər səsləndirilib, rəqslər və musiqili kompozisiyalar təqdim edilib.

***XQ***

## Hava

### Yağmursuz, günəşli hava…



**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin günəşli keçəcəyi gözlənilir. Şimal-şərq küləyi gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 23-27, gündüz 35-39, bəzi yerlərdə 40 dərəcəyə yaxın isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 756 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-80, gündüz 40-45 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi, gecə və səhər duman olacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 23-27, gündüz 36-39, bəzi yerlərdə 41 dərəcəyədək, dağlarda gecə 15-20, gündüz 29-34 dərəcə isti olacaq.

***XQ***

## Peşə təhsili mövzusunda ictimai dinləmə



**Elm və Təhsil Nazirliyində "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın layihəsinin hazırlanması üzrə təkliflərin dinlənilməsi və müzakirəsi məqsədilə ilkin ictimai dinləmə təşkil edilib.**

Nazirlikdən mətbuata bildirilib ki, tədbirdə Elm və Təhsil Nazirliyi, Peşə Təhsili üzrə Dövlət Agentliyi, Təhsil İnstitutu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi, Elm və Təhsil Nazirliyi yanında İctimai Şura, peşə təhsili müəssisələri, qeyri-hökumət təşkilatları və özəl şirkətlərin nümayəndələri iştirak ediblər.

İlkin müzakirələr "Peşə təhsilinin, o cümlədən yüksək texniki peşə təhsilinin əhatəsinin artırılması", "Əmək bazarının tələblərinə cavab verən peşə təhsilinin təşkili və təlim-tədris prosesinin qurulması", "İnklüziv peşə təhsili" və "Səriştələrin davamlı inkişafına əsaslanan "ömür boyu təhsil" sisteminin gücləndirilməsi" mövzuları üzrə keçirilib.

Mövzu ətrafında müzakirələr aparılıb, iştirakçıların rəy və təklifləri dinlənilib. Müzakirələrdə peşə təhsilində inklüzivliyin artırılmasının, eyni zamanda, qadınların peşə təhsilinə cəlb edilməsinin vacibliyi vurğulanıb, bu istiqamətdə mobil proqramların təşkili, kurrikulumların yenilənməsi, rəqəmsallaşma kimi mövzulara toxunulub.

***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Dillər Universitetinin professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi ali məktəbin insan resursları şöbəsinin baş mütəxəssisi Şəfiqə Rzayevaya

**ATASININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağdam rayonunun Kəngərli kəndindən İldırım Cəfərov Yaşar Babayevə və ailə üzvlərinə əzizləri, görkəmli sənətkar, Xalq artisti

**ARİF BABAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3390
SİFARİŞ 1514
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00